# Xalq qəzeti

Xalqın qəzeti!

№ 124 (30528) 13 iyun 2024-cü il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti | xalqqazeti.az


## Xocalı aeroportunda da Azərbaycan bayrağı qaldırılıb



**Xocalı aeroportunda da Azərbaycanın üçrəngli Dövlət Bayrağı qaldırılıb. Bu barədə Azərbaycan Müdafiə Nazirliyi videogörüntülər yayıb.**

Nazirliyinin yaydığı məlumata əsasən, Vətən müharibəsindən sonra Azərbaycan ərazisində müvəqqəti yerləşdirilmiş Rusiya Federasiyasının sülhməramlı kontingentinin ölkəmizin ərazisindən çıxarılması prosesi iyunun 12-də başa çatıb.

*XQ*

# COP29 və Azərbaycanın dünyaya çağırışı

## Hədəf sülh və barışdır




**Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransına (COP29) ev sahibliyini reallaşdıracaq Azərbaycan başlıca hədəfini açıqlayır. Hədəf sülh və barışdır. Azərbaycan Prezidentinin köməkçisi, Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevin "X" sosial şəbəkəsindəki paylaşımı bunu deməyə əsas verir.**

İstər-istəməz yada Azərbaycan Respublikası Prezidentinin Administrasiyası və Ermənistan Respublikası baş nazirinin aparatının ötən il dekabrın 7-də yaydıqları birgə açıqlama düşür. O açıqlama ki, orada sülh egidası əsas götürülürdü və xoş niyyətin təzahürü olaraq Ermənistan BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasına Tərəf Dövlətlərin 29-cu Konfransına (COP29) ev sahibliyinə öz namizədliyini geri götürərək, Azərbaycanın namizədliyini dəstəkləyirdi.

Bəli, sülh məntiqi mühüm əhəmiyyət daşıyır. Nəzərə alaq ki, sözügedən açıqlamanın ilk cümləsində bildirilmişdi ki, Bakı və İrəvan regionda çoxdan gözlənilən sülhün əldə olunması üçün tarixi fürsətin yarandığı fikrini bölüşürlər. Həmçinin vurğulanırdı ki, Azərbaycan və Ermənistan münasibətləri normallaşdırmaq, suverenlik və ərazi bütövlüyü prinsiplərinə hörmət əsasında sülh sazişinə nail olmaq niyyətini bir daha təsdiq edirlər.

*(ardı 4-cü səhifədə)*

# İrəvanda ara qarışdı

**Erməni apostol kilsəsinin Tavuş vilayəti üzrə yeparxiyasının rəhbəri, arxiyepiskop Baqrat Qalstanyanın rəhbərlik etdiyi "Vətən naminə Tavuş" hərəkatının üzvləri dünən də gecəni İrəvanın mərkəzindəki Baqramyan prospektində keçiriblər. Etirazçılar ardıcıl üç gündür bağlı olan prospektdə gecə tonqallar qalayıb, çadırlar ətrafında əyləşərək müzakirələr aparıblar. Həmçinin, onlar gecə əsas küçədə quraşdırılan monitorda filmə baxıblar. Yeni günə isə keşişin dua oxuması ilə başlayıblar.**



Qeyd edək ki, iyunun 11-də tərəfdarları qarşısında çıxış edən B.Qalstanyan demişdi: "Biz dedik ki, məsələni 96 saat ərzində həll edəcəyik, onlarla üzləşəcəyik. Sabah səhər müxtəlif yerlərdə aksiyalar keçirəcəyik, bu gecə isə kütləvi şəkildə burada qalacağıq. İyunun 12-də çox insanın burada olması bizim üçün son dərəcə vacibdir, çünki təyin etdiyimiz 96 saat bitəcək. Amma, mən indi nə edəcəyimizi açıqlamayacam".

Dünən səhər isə Baqrat "Facebook"da canlı yayım açaraq hayları iyunun 12-də, saat 15:00-da Baqramyan prospektində gözlədiyini bildirib. Prospektdəki vəziyyəti canlı efirdə təqdim edən keşiş yenə də xalqı aldatmaq yolunu tutaraq, qələbəyə çox yaxın olduqlarını iddia edib: "Bu gün son dərəcə vacib gündür. İstəsəniz, çox çətin və əlamətdar gün də adlandıra bilərsiniz. Saat 15:00-da biz böyük sayda toplaşmalıyıq, çünki deyəcək sözümüz və edəcək işimiz var. Bu adamlar bizim tələbimizi rədd etdilər. Biz də bu insanları işsiz qoymalıyıq. Hamınızı gözləyirəm. Ruhunda dəyişikliyə ehtiyac duyanlara müraciət edirəm: burada olmaq, son və həlledici sözü söyləmək lazımdır".

*(ardı 6-cı səhifədə)*

## Qurtuluşun dörd fəsli




**İlin dörd fəsli olduğunu bilsəm də, otuz bir ilin neçə fəsli olduğunu hesablamağa maraq göstərməmişəm. Amma bu sətirləri qələmə alanda beynimdə belə bir fikir yarandı ki, xalqımıza möhtəşəm qurtuluş bəxş edən məlum qərarın qəbul edilməsindən keçən dövrün də elə dördcə fəsli olub.**

**Birinci fəsil qış idi** – ölkəmiz xaos, anarxiya, hərc-mərclik, vətəndaş müharibəsi məngənəsində qalmışdı. Ulu öndərin Naxçıvanda – neft lampasının işığı fonunda çəkilmiş fotosu Qurtuluşdan əvvəlki dövrə aid olsa da, əslində, Qurtuluşun qış fəslini daha çox xarakterizə edirdi.

**İkinci fəsil yaz idi** – cəbhədə atəşkəs elan edilmiş, "Əsrin Müqaviləsi" imzalanmış, Yeni Konstitusiya qəbul olunmuş, ilk milli parlament seçilmiş, Azərbaycan Ordusu Horadiz əməliyyatında Ermənistana öz gücünü göstərmiş, ATƏT-in Lissabon Sammitində dünyanın əksər güc mərkəzlərinin dəstəklədiyi Ermənistan Heydər Əliyev qətiyyətinin qarşısında aciz qalmış, Azərbaycan xalqı ikinci dəfə Heydər Əliyevə etimad göstərmiş, o isə öz siyasi varisini elan edərək xalqımızı İlham Əliyevin ətrafında daha sıx birləşməyə çağırmışdı. Yəni, Qurtuluşumuzdan keçən ilk on il cəmi iki fəsli – qışla yazı əhatə edə bilmişdi.

**Üçüncü fəsil** – yay isə təxminən 17 il çəkdi. Həmin dövr daha çox qızmar yayı xatırladan qaynar tərəqqi, inkişaf mərhələsi kimi yadda qalsa da, eyni zamanda, odlu-atəşli ictimai-siyasi proseslərlə də zəngin oldu. Prezident İlham Əliyevin ardıcıl və prinsipiallıqla həyata keçirdiyi plan, proqram və layihələr Azərbaycanın müasir tarixinə yüzlərlə əlamətdar gün, unudulmaz hadisə və qürurverici faktlar əlavə etdi. Rəsmi Bakı gah beynəlxalq güc mərkəzlərinin (ABŞ – Rusiya və NATO – Rusiya) müzakirələr mərkəzinə çevrildi, gah da sivilizasiyalararası dialoqların keçirildiyi paytaxta. Azərbaycan vətəndaşı gah ölkəmizin BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilməsinə sevindi, gah da dövlətimizin beynəlxalq "Kosmik ailənin" üzvü olmasına. Ölkəmiz gah Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Türk Dövlətləri Təşkilatına çevrilməsi istiqamətində uzaqmənzilli siyasi strategiyanın reallaşdırılması istiqamətində addımlarını sıxlaşdırdı, gah da Qoşulmama Hərəkatına sədrliyi dövründə bu qurumun institusional müasirləşdirilməsini, yeni siyasi güc mərkəzinə çevrilməsini təmin etdi.

*(ardı 5-ci səhifədə)*

## Fransanın məkri sərhəd tanımır

### AZƏRTAC əməkdaşının fəaliyyətinin məhdudlaşdırılmasına cəhd söz azadlığına düşmən münasibətin nümunəsidir

**Fransanın azad sözə qarşı təzyiqləri davam edir. Bu dəfə də təzyiqin hədəfi Azərbaycan jurnalistidir. Parisin sifarişi əsasında AZƏRTAC-ın əməkdaşı Aygün Həsənovanın Almaniyanın Bonn şəhərində keçirilən seminarda iştirakının qarşısını almaq cəhdi qeydə alınıb. Buna nə deyəsən? Azərbaycan Mətbuat Şurasının bəyanatında bildirildiyi kimi, belə hərəkət hüquq normalarını pozmaq, söz və ifadə azadlığını məhdudlaşdırmaq istəyidir. Heç şübhəsiz, bu insident ölkəmizə qarşı aşkar qərəzdən qaynaqlanır.**



Əvvəla, onu deyək ki, A.Həsənovanın Bonn şəhərinə BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyası (UNFCCC) Katibliyinin təşkilatçılığı ilə keçirilən tədbirə qatılması təmin edilib. Çünki media təmsilçisinin çoxgirişli Şengen vizası, seminara dəvət və digər sənədləri qaydasında olub. Nəticədə Azərbaycanın Almaniyadakı səfirliyinin və UNFCCC Katibliyinin səyləri ilə Almaniyanın rəsmi qurumları Fransanın tələbinin əsassız olduğunu görüblər. Ancaq fakt faktlığında qalır.

Bəli, Fransa azad sözə dözümsüz yanaşmasını bir daha ortaya qoydu. Nəzərə alaq ki, belə yanaşmalar əvvəllər də qeydə alınıb. Məsələn, ötən ilin dekabrında Fransa mediasında AZƏRTAC-ın əməkdaşlarına qarşı qarayaxma kampaniyası aparılmışdı. O boyda dövlət olasan, demokratik ənənələrinlə öyünüb döşünə döyəsən, belə yaramaz qərar verəsən! Lakin Parisin rəzil və miskin hərəkətləri bununla bitmir.

Yada salaq ki, haqqında söz açdığımız hadisədən bir həftə əvvəl jurnalist A.Həsənova fransız müstəmləkəsi Yeni Kaledoniyada yerli polisin nalayiq, qəddar rəftarı, qanunsuz davranışı ilə üzləşmişdi. Şengen vizasının olmasına baxmayaraq, ona qarşı əsassız tələblər irəli sürülmüş, həbslə hədələnmiş və təyyarə ilə üçüncü ölkəyə – Sinqapura yola salınmışdır. Ən pisi isə budur ki, bu özbaşınalığı törədənlər Sinqapura da xəbər vermiş və A.Həsənovanı orada da "arzuolunmaz şəxs" kimi təqdim etməyə çalışmışdılar. Əlbəttə, istəklərinə nail ola bilməmişdilər.

*(ardı 3-cü səhifədə)*

# Kim nə dərəcədə haqlıdır: faktlar, arqumentlər...

## İrəvan sülh sazişinin arxasında nələri gizlədir?

**Nədən Ermənistan konstitusiyası Azərbaycanla sülh sazişi bağlamaq üçün, sadəcə, formal deyil, həm də gələcəkdə praktiki çətinliklər yaratmağa qadirdir? Bakı ilə İrəvanın diplomatik münasibətlərdə irəli sürdükləri arqumentlər və əks arqumentlər hansılardır? Son vaxtlar gündəmdən düşməyən həm bu, həm də digər suallar ətrafında tanınmış siyasi icmalçı "Orxan Amaşovun düşüncələri" proqramında geniş və arqumentlərə söykənən maraqlı söhbət açılır. "Düşüncələr"in tərcüməsini qısa ixtisarla "XQ"-nin oxucularının diqqətinə çatdırırıq.**



"Ermənistan konstitusiyasında və digər qanunvericilik aktlarında Azərbaycana qarşı ərazi iddiaları yer alır. Əslində, bu, hamının, o cümlədən Ermənistan siyasi rəhbərliyinin etiraf etdiyi məlum faktdır. Bakı hesab edir ki, bu cür müddəaların olması iki ölkə arasında sülh sazişinin bağlanmasına aşkar maneədir və bu məsələ tez bir zamanda öz həllini tapmalıdır. Bu il yanvarın 18-də baş nazir Nikol Paşinyan belə bir problemin olduğunu etiraf etmişdi: "Yeni geosiyasi və regional reallıqlar ölkənin həm mövcudluğunu, həm də rəqabət qabiliyyətini qorumaq üçün bizdən yeni konstitusiya tələb edir".

*(ardı 6-cı səhifədə)*

## "Azərbaycan Respublikasının Vergi Məcəlləsində, "Sosial sığorta haqqında", "Gömrük tarifi haqqında" və "Reklam haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 19 aprel tarixli 1135-VIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında

# Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Vergi Məcəlləsində, "Sosial sığorta haqqında", "Gömrük tarifi haqqında" və "Reklam haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 19 aprel tarixli 1135-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

**1.** Müəyyən edilsin ki:

1.1. Azərbaycan Respublikası Vergi Məcəlləsinin 102.1.21-ci, 106.1.12-ci, 106.1.13-cü, 164.1.15-ci (birinci halda), 164.1.16-cı (birinci halda), 164.1.28-ci (birinci halda), 199.7-ci, 199.8-ci, 207.3-cü və 207.4-cü maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Məcəllənin 102.1.21-ci, 106.1.12-ci, 106.1.13-cü, 164.1.15-ci, 164.1.16-cı, 164.1.28-ci, 199.7-ci, 199.8-ci, 207.3-cü və 207.4-cü maddələrində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Prezidenti nəzərdə tutulur;

1.3. "Sosial sığorta haqqında" Azərbaycan Respublikası Qanununun 12-ci maddəsində birinci halda nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.4. həmin Qanunun 12-ci maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Prezidenti nəzərdə tutulur;

1.5. "Gömrük tarifi haqqında" Azərbaycan Respublikası Qanununun 20.0.18–20.0.20-ci maddələrində birinci hallarda nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.6. həmin Qanunun 20.0.18–20.0.20-ci maddələrində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Prezidenti nəzərdə tutulur;

1.7. "Reklam haqqında" Azərbaycan Respublikası Qanununun 26.8-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.8. həmin Qanunun 26.8-ci maddəsində "orqan (qurum)" dedikdə sənaye parklarına və sənaye məhəllələrinə münasibətdə Azərbaycan Respublikasının Prezidenti, aqroparklara münasibətdə isə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi nəzərdə tutulur.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti "Azərbaycan Respublikasının Vergi Məcəlləsində, "Sosial sığorta haqqında", "Gömrük tarifi haqqında" və "Reklam haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 19 aprel tarixli 1135-VIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

**3.** "Sosial sığorta haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 7 aprel tarixli 568 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, № 5, maddə 349 (Cild I); Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 13 may tarixli 61 nömrəli Fərmanı) 2.4-1-ci və 2.4-2-ci bəndləri müvafiq olaraq 2.4-2-ci və 2.4-5-ci bəndlər hesab olunsun və aşağıdakı məzmunda 2.4-1-ci bənd əlavə edilsin:

"2.4-1. həmin Qanunun 12-ci maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Prezidenti nəzərdə tutulur;".

**4.** "Azərbaycan Respublikası Vergi Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun və bu Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Vergi Məcəlləsinin tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 30 avqust tarixli 393 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (III kitab), maddə 616 (Cild I); Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 13 may tarixli 61 nömrəli Fərmanı) 1.2-ci bəndinə "102.1.14.15-ci," sözlərindən sonra "102.1.21-ci," sözləri, "102.1.29-cu (birinci halda)," sözlərindən sonra "106.1.12-ci, 106.1.13-cü," sözləri, "160.4-cü," sözlərindən sonra "164.1.15-ci, 164.1.16-cı, 164.1.28-ci," sözləri, "cümlələrində," sözündən sonra "199.7-ci, 199.8-ci," sözləri, "199.16-cı (ikinci halda)," sözlərindən sonra isə "207.3-cü, 207.4-cü," sözləri əlavə edilsin.

**5.** "Gömrük tarifi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 4 iyul tarixli 936 nömrəli Fərmanına (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 7, maddə 801 (Cild I) aşağıdakı məzmunda 3.1-3-cü bənd əlavə edilsin:

"3.1-3. həmin Qanunun 20.0.18–20.0.20-ci maddələrində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Prezidenti nəzərdə tutulur;".

**6.** "Reklam haqqında" Azərbaycan Respublikasının 2015-ci il 15 may tarixli 1281-IVQ nömrəli Qanununun tətbiqi və "Reklam haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 24 noyabr tarixli 644 nömrəli Fərmanının ləğvi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 14 iyul tarixli 554 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 7, maddə 822 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

6.1. 2.1-ci bəndə "34.2-ci" sözlərindən əvvəl "26.8-ci maddəsində," sözləri əlavə edilsin;

6.2. aşağıdakı məzmunda 2.1-1-ci bənd əlavə edilsin:

"2.1-1. həmin Qanunun 26.8-ci maddəsində "orqan (qurum)" dedikdə sənaye parklarına və sənaye məhəllələrinə münasibətdə Azərbaycan Respublikasının Prezidenti, aqroparklara münasibətdə isə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi nəzərdə tutulur;".

**7.** Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 19 dekabr tarixli 1743 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 12 (I kitab), maddə 2311 (Cild I) ilə təsdiq edilmiş "Açıq məkanda reklam yerləşdirilməsinə icazə verilməsi və bu sahədə nəzarətin həyata keçirilməsi Qaydası"nın 1.5-ci bəndinə "kvadratmetrdən" sözündən sonra ", dövlət tərəfindən yaradılan sənaye parklarına, sənaye məhəllələrinə və aqroparklara münasibətdə isə hər birinin ümumi ölçüsü 20 kvadratmetrdən" sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 12 iyun 2024-cü il**

---

## Hacıqabul Sənaye Parkının yaradılması və "Hacıqabul Sənaye Məhəlləsinin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 25 iyul tarixli 3127 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə

# Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, ölkədə qeyri-neft sektorunun davamlı inkişafının təmin edilməsi, sahibkarlığın dəstəklənməsi, müasir texnologiyalara əsaslanan rəqabətqabiliyyətli sənaye müəssisələrinin təşkili və əhalinin istehsal sahəsində məşğulluğunun daha da artırılması məqsədilə **qərara alıram:**

**1.** Hacıqabul rayonunda Hacıqabul Sənaye Məhəlləsinin əsasında Hacıqabul Sənaye Parkı yaradılsın.

**2.** Müəyyən edilsin ki:

2.1. Hacıqabul Sənaye Parkı sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi üçün zəruri infrastrukturu və idarəetmə qurumları olan, müasir texnologiyaların tətbiqi yolu ilə rəqabətqabiliyyətli məhsul istehsalı və xidmətlər göstərilməsi məqsədi ilə istifadə edilən, sahibkarların səmərəli fəaliyyətinə və inkişafına kömək edən ərazidir;

2.2. Hacıqabul Sənaye Parkının fəaliyyətinin təşkili, onun idarə edilməsi və inkişafı ilə bağlı tədbirləri Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin tabeliyində İqtisadi Zonaların İnkişafı Agentliyi həyata keçirir;

2.3. Hacıqabul Sənaye Məhəlləsinin rezidenti olan və bu Fərmanın 4.1-ci bəndinə əsasən müəyyən ediləcək prioritet istiqamətlərə uyğun fəaliyyət göstərən sahibkarlıq subyektləri sənaye parkının rezidenti, digər sahibkarlıq subyektləri isə sənaye parkının qeyri-rezidenti kimi Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 24 aprel tarixli 865 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Sənaye parkları haqqında Nümunəvi Əsasnamə"də nəzərdə tutulmuş qaydada qeydiyyata alınmaqla, Hacıqabul Sənaye Parkının ərazisində fəaliyyətlərini davam etdirirlər;

2.4. Hacıqabul Sənaye Parkının fəaliyyəti Azərbaycan Respublikası Prezidentinin "Hacıqabul Sənaye Məhəlləsinin yaradılması haqqında" 2017-ci il 25 iyul tarixli 3127 nömrəli və "Hacıqabul Sənaye Məhəlləsinin ərazisinin genişləndirilməsi haqqında" 2020-ci il 13 may tarixli 2039 nömrəli sərəncamları ilə Hacıqabul Sənaye Məhəlləsinin fəaliyyəti üçün ayrılmış 60 hektar ərazidə təşkil olunur.

**3.** Azərbaycan Respublikasının Nazirlər Kabineti Hacıqabul Sənaye Parkının ərazisinin genişləndirilməsi məqsədilə altı ay müddətində zəruri tədbirlər görülməsini təmin etsin.

**4.** Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi üç ay müddətində:

4.1. Hacıqabul Sənaye Parkında istehsal və emal olunan sənaye məhsulları, habelə göstərilən xidmətlər üzrə prioritet istiqamətləri müəyyən etsin;

4.2. bu Fərmanın 2.3-cü bəndinə uyğun olaraq Hacıqabul Sənaye Məhəlləsinin rezidenti olan sahibkarlıq subyektlərinin sənaye parkının rezidenti və ya qeyri-rezidenti kimi qeydiyyata alınması ilə bağlı tədbirlər görsün;

4.3. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

**5.** "Hacıqabul Sənaye Məhəlləsinin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 25 iyul tarixli 3127 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 7, maddə 1462 (Cild I) 2-ci hissəsi ləğv edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 12 iyun 2024-cü il**

---

## Azərbaycan Respublikası Prezidentinin "Sənaye məhəllələrinin yaradılması və fəaliyyətinin təşkili haqqında" 2014-cü il 8 oktyabr tarixli 288 nömrəli, "Şərur Sənaye Məhəlləsinin yaradılması və "Sənaye məhəllələrinin yaradılması və fəaliyyətinin təşkili haqqında" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 8 oktyabr tarixli 288 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə" 2019-cu il 13 sentyabr tarixli 831 nömrəli fərmanlarında və "Sabirabad Sənaye Məhəlləsinin yaradılması haqqında" 2017-ci il 27 noyabr tarixli 3407 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə

# Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** "Sənaye məhəllələrinin yaradılması və fəaliyyətinin təşkili haqqında" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 8 oktyabr tarixli 288 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 10, maddə 1173 (Cild I) 3-cü hissəsində "iştirakçılarının" sözü "rezidentlərinin" sözü ilə əvəz edilsin.

**2.** "Şərur Sənaye Məhəlləsinin yaradılması və "Sənaye məhəllələrinin yaradılması və fəaliyyətinin təşkili haqqında" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 8 oktyabr tarixli 288 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 13 sentyabr tarixli 831 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 9, maddə 1490 (Cild I) 4.1-ci bəndində "iştirakçıların" sözü "rezidentlərin" sözü ilə əvəz edilsin.

**3.** "Sabirabad Sənaye Məhəlləsinin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 27 noyabr tarixli 3407 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 11, maddə 2116 (Cild I) 4.1-ci bəndində "iştirakçıların" sözü "rezidentlərin" sözü ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 12 iyun 2024-cü il**

---

## Azərbaycan Respublikası Prezidentinin "İcarəyə verilmiş dövlət əmlakından səmərəli istifadə olunması tədbirləri haqqında" 1997-ci il 6 sentyabr tarixli 629 nömrəli, "Torpaq icarəsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 1999-cu il 12 mart tarixli 116 nömrəli, "Azərbaycan Respublikasının 1999-cu il 25 iyun tarixli Qanunu ilə təsdiq edilmiş Azərbaycan Respublikasının Torpaq Məcəlləsinin icrasının təmin edilməsi barədə" 2000-ci il 6 mart tarixli 291 nömrəli, "Torpaq icarəsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi ilə bağlı əlavə tədbirlər barədə" 2003-cü il 23 oktyabr tarixli 972 nömrəli, "Daşınmaz dövlət əmlakı obyektlərinin müsabiqə əsasında icarəyə verilməsi Qaydaları"nın təsdiq edilməsi barədə" 2010-cu il 22 iyun tarixli 284 nömrəli, "Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin fəaliyyətinin təmin edilməsi və "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi haqqında Əsasnamə"nin təsdiqi və "Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin fəaliyyətinin təmin edilməsi və "Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər barədə" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 28 dekabr tarixli 504 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 20 fevral tarixli 111 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 30 dekabr tarixli 911 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə" 2020-ci il 12 may tarixli 1017 nömrəli və "Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin tabeliyindəki İqtisadi Zonaların İnkişafı Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında" 2021-ci il 21 dekabr tarixli 1506 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə

# Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** "İcarəyə verilmiş dövlət əmlakından səmərəli istifadə olunması tədbirləri haqqında" Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 6 sentyabr tarixli 629 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, № 3, maddə 236 (Cild I) 1-ci hissəsinin birinci abzasında "sənaye, yaxud texnologiya parkları" sözləri "dövlət tərəfindən yaradılan sənaye, yaxud texnologiya parkları, sənaye məhəllələri və aqroparklar" sözləri ilə əvəz edilsin.

**2.** "Torpaq icarəsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 12 mart tarixli 116 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 3, maddə 168 (Cild I) 2.4-cü bəndində "sənaye, yaxud texnologiyalar parkları" sözləri "dövlət tərəfindən yaradılan sənaye, yaxud texnologiyalar parkları, sənaye məhəllələri və aqroparklar" sözləri ilə əvəz edilsin.

**3.** "Azərbaycan Respublikasının 1999-cu il 25 iyun tarixli Qanunu ilə təsdiq edilmiş Azərbaycan Respublikasının Torpaq Məcəlləsinin icrasının təmin edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 6 mart tarixli 291 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 3, maddə 158 (Cild I) 1-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

3.1. dördüncü və on üçüncü abzaslarda "sənaye və yaxud texnologiyalar parkları" sözləri "dövlət tərəfindən yaradılan sənaye, yaxud texnologiyalar parkları, sənaye məhəllələri və aqroparklar" sözləri ilə əvəz edilsin;

3.2. on beşinci abzasda "sənaye, yaxud texnologiyalar parkları" sözləri "dövlət tərəfindən yaradılan sənaye, yaxud texnologiyalar parkları, sənaye məhəllələri və aqroparklar" sözləri ilə əvəz edilsin.

**4.** Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 23 oktyabr tarixli 972 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003, № 10, maddə 577 (Cild I) ilə təsdiq edilmiş "Dövlət və bələdiyyə mülkiyyətində olan torpaqların mülkiyyətə və ya icarəyə verilməsi ilə bağlı torpaq müsabiqələrinin və hərraclarının keçirilməsi Qaydaları"nın 1-ci hissəsində "sənaye, yaxud texnologiya parkları" sözləri "dövlət tərəfindən yaradılan sənaye, yaxud texnologiya parkları, sənaye məhəllələri və aqroparklar" sözləri ilə əvəz edilsin.

**5.** Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 22 iyun tarixli 284 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 6, maddə 499 (Cild I) ilə təsdiq edilmiş "Daşınmaz dövlət əmlakı obyektlərinin müsabiqə əsasında icarəyə verilməsi Qaydaları"nın 1.1-ci bəndində "sənaye, yaxud texnologiya parkları" sözləri "dövlət tərəfindən yaradılan sənaye, yaxud texnologiya parkları, sənaye məhəllələri və aqroparklar" sözləri ilə əvəz edilsin.

**6.** Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 12 may tarixli 1017 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 5, maddə 542 (Cild I) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin Əsasnaməsi"nin 3.0.48-ci yarımbəndində "sənaye, yaxud texnologiya parkları" sözləri "dövlət tərəfindən yaradılan sənaye, yaxud texnologiya parkları, sənaye məhəllələri və aqroparklar" sözləri ilə əvəz edilsin.

**7.** Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 21 dekabr tarixli 1506 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 12, maddə 1371 (Cild I) ilə təsdiq edilmiş "İqtisadi Zonaların İnkişafı Agentliyinin Nizamnaməsi"nin 3.1.6-cı yarımbəndinə "rezidentlərinin" sözündən sonra ", habelə sənaye parklarının qeyri-rezidentlərinin" sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 12 iyun 2024-cü il**

---

## Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 29 dekabr tarixli 434 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Dövlət Neft Fondu haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə

# Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 29 dekabr tarixli 434 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 12, maddə 846 (Cild I) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Dövlət Neft Fondu haqqında Əsasnamə"nin 5.2-ci bəndində aşağıdakı dəyişikliklər edilsin:

1.1. ikinci cümlədə "bir" sözü "iki" sözü ilə əvəz edilsin;

1.2. üçüncü cümlədə "müavini" sözü "müavinləri" sözü ilə, "daşıyır" sözü "daşıyırlar" sözü əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 12 iyun 2024-cü il**

---

# Bakı Dünya Şəhərləri Sammitində

**Sinqapurda 9-cu dəfə keçirilmiş Dünya Şəhərləri Sammitində Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizovun rəhbərliyi ilə nümayəndə heyəti də iştirak edib.**

Bakı Şəhər İcra Hakimiyyətindən XQ-yə bildirilib ki, Banqkok, Qlazqo, Şanxay, Praqa, Rotterdam kimi şəhərlər də daxil olmaqla, ümumilikdə, 87 ölkənin şəhər merlərinin iştirak etdikləri sammitin əsas mövzusu şəhərlərin gələcəyi, yaşana bilən və davamlı şəhərlər olub. Sammit çərçivəsində yaşıl enerjiyə keçid, şəhərlərin daha sağlam olması, davamlı gələcək inkişaf və digər mühüm məsələlər müzakirə edilib.

Forumda çıxış edən Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov tədbir iştirakçılarına Bakı haqqında məlumat verib. O bildirib ki, bu gün Prezident İlham Əliyevin siyasəti nəticəsində Bakı keyfiyyətcə dəyişib və kreativ şəhərə çevrilib. Paytaxtda 400-ə yaxın park salınıb və hazırda 10 yeni meqaparkın tikintisi aparılır.

**XQ**

Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 24 aprel tarixli 865 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Sənaye parkları haqqında Nümunəvi Əsasnamə"də dəyişiklik edilməsi barədə

# Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 24 aprel tarixli 865 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 4, maddə 379 (Cild I) ilə təsdiq edilmiş "Sənaye parkları haqqında Nümunəvi Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

1.1. 1-ci hissə üzrə:

1.1.1. 1.3.2-ci yarımbənd aşağıdakı redaksiyada verilsin:

"1.3.2. sənaye parkının idarəedici təşkilatı (bundan sonra – idarəedici təşkilat) – sənaye parkının fəaliyyətinin təşkilini, idarə olunmasını və inkişafını təmin edən dövlətə məxsus hüquqi şəxs;";

1.1.2. 1.3.3-cü yarımbənddə "səlahiyyətli orqan" sözləri "idarəedici təşkilat" sözləri ilə əvəz edilsin;

1.1.3. 1.3.4-1-ci yarımbəndə "(sahələrinin)" sözündən sonra "və (və ya) tikilinin" sözləri əlavə edilsin və həmin yarımbənddən "operatorla" sözü çıxarılsın;

1.2. 3-cü hissə üzrə:

1.2.1. 3.4.2-ci yarımbənddən "dövlət əhəmiyyətli, beynəlxalq" sözləri çıxarılsın;

1.2.2. aşağıdakı məzmunda 3.8 – 3.10-cu bəndlər əlavə edilsin:

"3.8. İdarəedici təşkilat sənaye parklarının, habelə onların rezidentlərinin və qeyri-rezidentlərinin reyestrini (bundan sonra – reyestr) yaradır, həmin reyestrin aparılmasını və reyestrə daxil edilmiş məlumatların müntəzəm yenilənməsini təmin edir. Reyestrin aparılması qaydasını səlahiyyətli orqan müəyyən edir.

3.9. Sənaye parkının yaradılması barədə qərar qəbul edildikdən sonra 10 (on) iş günündən gec olmayaraq, bu barədə Əsasnamənin 3.10-cu bəndində göstərilən məlumatlar idarəedici təşkilat tərəfindən reyestrə daxil edilir.

3.10. Reyestr informasiya ehtiyatıdır və oraya sənaye parkının yaradılması barədə aktın tarixi, nömrəsi və növü, yaradılmasının məqsədi, fəaliyyət profili və müddəti, ərazisinin ölçüsü, yerləşdiyi inzibati ərazi vahidi, qeydiyyat tarixi və nömrəsi daxil edilir.";

1.3. 4-cü hissə üzrə:

1.3.1. 4.2-ci bənd üzrə:

1.3.1.1. ikinci cümlədə "və operator sənaye parkının fəaliyyətinə görə cavabdehdirlər" sözləri "sənaye parkının fəaliyyətinə görə cavabdehdir" sözləri ilə əvəz edilsin;

1.3.1.2. üçüncü cümlədə ", habelə" sözü "və ya" sözləri ilə əvəz edilsin;

1.3.2. 4.3-cü və 4.8-ci bəndlərin birinci cümlələrində ismin müvafiq hallarında "səlahiyyətli orqan" sözləri ismin müvafiq hallarında "idarəedici təşkilat" sözləri ilə əvəz edilsin;

1.4. 5-ci hissə üzrə:

1.4.1. 5.0.7-ci yarımbənd aşağıdakı redaksiyada verilsin:

"5.0.7. sənaye parkının rezidenti və qeyri-rezidenti ilə bağlanılan sənaye parkının ərazisində dövlət mülkiyyətində olan torpaq sahəsinin və tikilinin icarə müqavilələrinin nümunəvi formasını müəyyən edir;";

1.4.2. aşağıdakı məzmunda 5.0.7-3-cü yarımbənd əlavə edilsin:

"5.0.7-3. operator tərəfindən sənaye parkında həyata keçirilən fəaliyyət haqqında yarımillik hesabatın, habelə operatorun fəaliyyətinin kənar auditor hesabatının idarəedici təşkilata təqdim edilmə qaydasını müəyyən edir;";

1.5. 6-cı hissə aşağıdakı redaksiyada verilsin:

"6. İDARƏEDİCİ TƏŞKİLATIN VƏZİFƏLƏRİ VƏ HÜQUQLARI

6.1. İdarəedici təşkilatın vəzifələri aşağıdakılardır:

6.1.1. sənaye parkının fəaliyyətinin təşkili, idarə olunması və inkişafı ilə bağlı tədbirlər görmək;

6.1.2. sənaye parkının inkişaf konsepsiyasının və əsasnaməsinin layihələrini hazırlamaq, səlahiyyətli orqanla razılaşdırmaqla təsdiq etmək;

6.1.3. sənaye parkının inkişaf konsepsiyasını, yerli və xarici investisiyaların cəlb edilməsi ilə bağlı proqramları həyata keçirmək;

6.1.4. sənaye parkının, onun rezidentlərinin və qeyri-rezidentlərinin reyestrini aparmaq, sənaye parkının rezidentinə qeydiyyat şəhadətnaməsi vermək;

6.1.5. sənaye parkının rezidenti olmaq istəyən hüquqi və fiziki şəxslərlə niyyət razılaşması bağlamaq;

6.1.6. sənaye parkının rezidentləri və qeyri-rezidentləri ilə sahibkarlıq fəaliyyətinin həyata keçirilməsinə dair müqavilə bağlamaq;

6.1.7. sənaye parkının ərazisində dövlət mülkiyyətində olan torpaq sahələrini və (və ya) tikililəri sənaye parkının rezidentlərinə və qeyri-rezidentlərinə icarəyə vermək;

6.1.8. sənaye parkının rezidentlərinin istifadəsində olan torpaq sahələrinin və mülkiyyətində (istifadəsində) olan tikililərin onun yeni rezidentlərinə icarəyə (subicarəyə) verilməsinin sənaye parkının fəaliyyətinə uyğunluğunu müəyyən etmək;

6.1.9. sənaye parkında sahibkarlıq fəaliyyətinin həyata keçirilməsinə dair sənaye parkının rezidentləri və qeyri-rezidentləri ilə bağlanılmış müqavilələrin şərtlərinə əməl olunmasına nəzarət etmək, həmin müqavilələr üzrə aşkar olunmuş pozuntuların aradan qaldırılması və vurulmuş zərərin ödənilməsi ilə bağlı tədbirlər görmək;

6.1.10. səlahiyyətli orqanın müəyyən etdiyi qaydada sənaye parkının rezidentlərinin, habelə qeyri-rezidentlərinin fəaliyyəti haqqında hesabatlar, statistik məlumatlar almaq, sənaye parkının rezidentlərinin fəaliyyətinin təqdim etdikləri investisiya layihəsinə (biznes-plana) uyğunluğunu qiymətləndirmək;

6.1.11. sənaye parkında səlahiyyətli orqanın, habelə digər aidiyyəti dövlət orqanlarının (qurumlarının) səlahiyyətlərinin həyata keçirilməsi üçün şərait yaratmaq;

6.1.12. dövlət orqanları (qurumları) tərəfindən sənaye parkının rezidentlərində və qeyri-rezidentlərində keçirilən yoxlamalarda rezidentlərin və qeyri-rezidentlərin dəvəti ilə iştirak etmək;

6.1.13. sənaye parkının fəaliyyəti və inkişafı barədə yarımillik hesabatları, o cümlədən kənar audit hesabatlarını səlahiyyətli orqana təqdim etmək;

6.1.14. mühasibat uçotu aparmaq və statistik hesabatlar tərtib etmək;

6.1.15. sənaye parkının operatoru seçildiyi halda onunla idarəetmə sazişi bağlamaq və operator tərəfindən idarəetmə sazişindən irəli gələn vəzifələrin icrasına nəzarət etmək;

6.1.16. sənaye parkının rezidentləri və qeyri-rezidentləri, habelə onlarla operator arasında mübahisələrin danışıqlar yolu ilə həllinə kömək etmək;

6.1.17. sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi, bu Əsasnaməyə əməl edilməsi ilə bağlı sənaye parkının rezidentlərinə və qeyri-rezidentlərinə kömək göstərmək;

6.1.18. sənaye parkının hüdudlarında idarəetməni və təsərrüfat fəaliyyətini təşkil etmək;

6.1.19. sənaye parkının infrastrukturuna xidmət göstərmək, onun normal fəaliyyətini təmin etmək, cari və əsaslı təmirini həyata keçirmək;

6.1.20. sənaye parkının rezidentlərinin və qeyri-rezidentlərinin yazılı müraciətləri əsasında onların adından dövlət və yerli özünüidarəetmə orqanları qarşısında təmsilçilik ("bir pəncərə") funksiyasını yerinə yetirmək;

6.1.21. istilik və elektrik enerjisinin, suyun və qazın paylanılması, tullantı sularının axıdılması və məişət tullantılarının yığılması xidmətlərini göstərmək;

6.1.22. Azərbaycan Respublikası Prezidentinin aktları ilə müəyyən edilmiş digər vəzifələri yerinə yetirmək.

6.2. İdarəedici təşkilatın hüquqları aşağıdakılardır:

6.2.1. sənaye parkının fəaliyyətini təşviq etmək, sənaye parkında istehsalın inkişafı üçün investorları cəlb etmək və onlarla danışıqlar aparmaq;

6.2.2. ofis, konsaltinq, laboratoriya müayinəsi, biznes-inkubasiya, treninq, peşə hazırlığı, marketinq, hüquq, logistika, rabitə, mühafizə, ictimai iaşə, təşviqat, xarici iqtisadi əməliyyatlarla bağlı məsləhət xidmətləri və sahibkarlıq fəaliyyətinin səmərəli həyata keçirilməsi üçün qanunla qadağan olunmayan digər xidmətlər göstərilməsini təmin etmək;

6.2.3. sənaye parkının idarə olunması və inkişafı məqsədilə səlahiyyətli orqana təkliflər vermək;

6.2.4. sənaye parkının idarə olunması üçün müsabiqə əsasında operatoru seçmək;

6.2.5. elmi-texniki potensialın inkişafı və gücləndirilməsi məqsədilə yerli və xarici elm və təhsil müəssisələri ilə əməkdaşlıq etmək;

6.2.6. sənaye parkının ərazisində qabaqcıl texnologiyaların, texnika və materialların tətbiqini təmin etmək;

6.2.7. sənaye parkının rezidentləri və qeyri-rezidentləri, habelə onlarla dövlət orqanları (qurumları) və yerli özünüidarəetmə orqanları arasında qarşılıqlı fəaliyyəti əlaqələndirmək;

6.2.8. Azərbaycan Respublikası Prezidentinin aktları ilə müəyyən edilmiş digər hüquqları həyata keçirmək.

6.3. Sənaye parkının idarə olunması üçün müsabiqə əsasında operator seçilə və idarəetmə sazişinə əsasən sənaye parkında idarəetmə və təsərrüfat fəaliyyətinin icrası ilə bağlı bu Əsasnamənin 6-cı hissəsində nəzərdə tutulmuş vəzifələrin və hüquqların (6.1.1-ci, 6.1.2-ci, 6.1.4-cü, 6.1.7-ci, 6.1.8-ci, 6.1.13-cü, 6.1.15-ci, 6.1.16-cı (mübahisə tərəflərindən biri operator olduqda), 6.2.3-cü, 6.2.4-cü və 6.2.7-ci yarımbəndlərdə nəzərdə tutulmuş vəzifələr və hüquqlar istisna olmaqla) həyata keçirilməsi ona həvalə edilə bilər.";

1.6. 7-ci hissə ləğv edilsin;

1.7. 8-ci hissə üzrə:

1.7.1. adında, 8.1-ci bəndin birinci abzasında və 8.6-cı bənddə ismin müvafiq hallarında "Operator" sözü ismin müvafiq hallarında "İdarəedici təşkilat" sözləri ilə əvəz edilsin;

1.7.2. 8.2-ci bənddə "operator" sözü "idarəedici təşkilat" sözləri ilə əvəz edilsin;

1.7.3. 8.5-ci bəndin birinci cümləsinə "sahəsinin" sözündən sonra "və (və ya) tikilinin" sözləri əlavə edilsin;

1.8. 9-cu hissə üzrə:

1.8.1. 9.1-ci, 9.2-ci bəndlərdə və 9.13.1-ci yarımbənddə "operatorla" sözü "idarəedici təşkilatla" sözləri ilə əvəz edilsin;

1.8.2. 9.3-cü bəndin birinci cümləsindən "birbaşa və ya operator vasitəsilə" sözləri çıxarılsın;

1.8.3. 9.10-cu bəndin ikinci cümləsi çıxarılsın;

1.8.4. 9.11-ci bənddə "operatorla" sözü "idarəedici təşkilatla" sözləri ilə, "(sahələrinin) icarə müqaviləsini" sözləri "və (və ya) tikilinin icarə müqavilələrini" sözləri ilə əvəz edilsin, həmin bənddən "idarəedici təşkilatla" sözləri çıxarılsın və həmin bəndə aşağıdakı məzmunda ikinci cümlə əlavə olunsun:

"Bu Əsasnamənin 9.20-ci bəndinə əsasən sənaye parkının rezidentlərinin istifadəsində olan torpaq sahələrini və mülkiyyətində (istifadəsində) olan tikililəri icarəyə (subicarəyə) götürmək istəyən hüquqi və fiziki şəxslər icarə müqaviləsini rezidentlə bağlamalıdırlar.";

1.8.5. 9.12-ci bəndin birinci abzasında "Operatorla" sözü "İdarəedici təşkilatla" sözləri ilə əvəz edilsin;

1.8.6. 9.12.3-cü yarımbənddə, 9.15-ci bəndin birinci cümləsində, 9.16.2-ci, 9.16.3-cü və 9.18.3-cü yarımbəndlərdə ismin müvafiq hallarında "operator" sözü ismin müvafiq hallarında "idarəedici təşkilat" sözləri ilə əvəz edilsin;

1.8.7. 9.17-ci bəndə "sahəsinin" sözündən sonra "və (və ya) tikilinin" sözləri əlavə olunsun və həmin bənddə "müqaviləsinin" sözü "müqavilələrinin" sözü ilə əvəz edilsin;

1.8.8. 9.19-cu bənddən "və sənaye parkının operatoru" sözləri çıxarılsın;

1.8.9. 9.20-ci bəndə "əldə edən" sözlərindən sonra ", habelə sənaye parkının fəaliyyətinə uyğunluğunun müəyyən edilməsi barədə idarəedici təşkilatın rəyi nəzərə alınmaqla onun rezidentinin istifadəsində olan torpaq sahəsini və mülkiyyətində (istifadəsində) olan tikililəri icarəyə (subicarəyə) götürmüş" sözləri əlavə edilsin;

1.9. 10.1.3-cü yarımbəndə "sahəsinin" sözündən sonra "və tikilinin" sözləri əlavə olunsun və həmin bənddə "haqqının" sözü "haqlarının" sözü ilə əvəz edilsin;

1.10. 11-ci hissə üzrə:

1.10.1. adına "sahələrindən" sözündən sonra "və tikililərindən" sözləri əlavə edilsin;

1.10.2. 11.2-ci bəndə "sahələrinin" sözündən sonra "və (və ya) tikililərinin" sözləri əlavə olunsun, həmin bənddə ", habelə" sözü "və" sözü ilə, "müqaviləsi" sözü "müqavilələri" sözü ilə əvəz edilsin;

1.10.3. 11.3-cü bənddə "torpaqlar" sözü "torpaq sahələri və (və ya) tikililər" sözləri ilə, "müqavilənin" sözü "müqavilələrin" sözü ilə əvəz edilsin;

1.10.4. 11.4-cü bənddə ", habelə" sözü "və" sözü ilə əvəz olunsun və həmin bəndə "sahəsinin" sözündən sonra "və tikilinin bu Əsasnamənin 9.20-ci bəndində göstərilən hal istisna olmaqla," sözləri əlavə edilsin;

1.10.5. 11.5-ci bənddə ", habelə" sözü "və" sözü ilə, "icarə müqaviləsinin" sözləri "sahəsinin və (və ya) tikilinin icarə müqavilələrinin, habelə sənaye parkının rezidentinin qeydiyyatının və qeydiyyat şəhadətnaməsinin" sözləri ilə əvəz olunsun və həmin bəndə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Bu Əsasnamənin 9.20-ci bəndinə əsasən bağlanılmış icarə (subicarə) müqaviləsinə xitam verilməsi və ya onun müddətinin bitməsi isə sənaye parkının rezidentinin qeydiyyatının və qeydiyyat şəhadətnaməsinin ləğvi üçün əsasdır.";

1.11. 16.3-cü bənd üzrə:

1.11.1. birinci cümlədən "və operatorunun" sözləri çıxarılsın;

1.11.2. ikinci cümlədə ", habelə" sözü "və" sözü ilə əvəz edilsin.

**2.** Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi bu Fərmandan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 12 iyun 2024-cü il**

# Əli Əsədov Mixail Mişustini Rusiya Günü münasibətilə təbrik edib



**Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov Rusiya Federasiyası Hökumətinin sədri Mixail Mişustinə dövlət bayramı – Rusiya Günü münasibətilə təbrik məktubu göndərib.**

Nazirlər Kabinetinin mətbuat xidmətindən bildirilib ki, məktubda iki ölkənin xalqlarını birləşdirən çoxəsrlik dostluq bağlarının, mehriban qonşuluq və qarşılıqlı anlaşmanın, dərin mədəni və humanitar ənənələrin Azərbaycan–Rusiya qarşılıqlı faydalı əməkdaşlığının və strateji tərəfdaşlığının ardıcıl inkişafının sarsılmaz bünövrəsi olduğu qeyd olunub.

Vurğulanıb ki, iki ölkə arasında iqtisadi-ticari, investisiya, sənaye, nəqliyyat, mədəni-humanitar və bir çox digər sahələrdə genişspektrli konstruktiv ikitərəfli dialoq və səmərəli əməkdaşlıq xüsusi məmnunluq doğurur.

Ə.Əsədov əmin olduğunu bildirib ki, Azərbaycan ilə Rusiya arasında çoxplanlı əməkdaşlıq gələcəkdə də ardıcıl şəkildə inkişaf edəcək, ölkələrimizin və xalqlarımızın maraqları naminə möhkəmlənəcəkdir.

# Fransanın məkri sərhəd tanımır

**(əvvəli 1-ci səhifədə)**

Qeyd edək ki, azərbaycanlı media təmsilçisinin indi Almaniyanın Bonn şəhərində keçirilən seminarda iştirakı kimi, o zaman Yeni Kaledoniyaya səfərində də heç bir yolverilməzlik yox, ciddi ictimai motiv var idi. XXI əsrdə bir ölkə müstəmləkəçilik siyasəti yeridirsə, jurnalist məsələyə maraq göstərməlidir. Eləcə də müstəmləkəçiliklə üzləşmiş xalqın milli azadlıq mübarizəsini işıqlandırmağa çalışmalıdır. Həmin vaxt Azərbaycan Mətbuat Şurası və Medianın İnkişafı Agentliyi hadisə ilə bağlı etiraz bəyanatı yayaraq, məsələyə dünya mediasının diqqətini cəlb etmişdilər.

Bəli, ötən il AZƏRTAC-ın əməkdaşlarına qarşı qarayaxma kampaniyasına rəvac verilməsi etik qaydalara və dəyərlərə zidd davranış idi. Hazırda BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyası Katibliyinin təşkilatçılığı ilə keçirilən tədbirdə iştiraka yol verilməmək cəhdi də Fransanın media dəyərlərinə, azad sözə dözümsüz münasibətidir. Azərbaycan Mətbuat Şurası bəyanatında bildirib ki, Fransanın jurnalist fəaliyyətini məhdudlaşdırmaq cəhdi, eyni zamanda, demokratizmi, bəşəri prinsipləri heçə saymaqdır: "Təəssüf ki, ölkə hakimiyyətində bu barədə düşünən yoxdur".

Əlbəttə, dünyanın media ictimaiyyəti, aparıcı jurnalist təşkilatları AZƏRTAC-ın əməkdaşı Aygün Həsənovaya qarşı yolverilməz hərəkətə biganə qalmamalıdırlar. Mətbuat Şurasının bəyanatında da bununla bağlı motiv var. Şuranın mövqeyi ondan ibarətdir ki, Avropanın mərkəzində jurnalistə qarşı belə siyasi yanaşmanın tətbiqi cəhdinin mənfi presedent yarada bilmə ehtimalı böyükdür: "Ona görə də bu cür halların təkrarlanmaması naminə müqavimət formalaşdırılmalıdır".

Bəs Avropanın və dünyanın mütərəqqi çevrələri duruma, Fransanın söz azadlığına qarşı basqısına sərt münasibət göstərəcəklərmi? Bununla bağlı tutarlı ictimai qınaq formalaşacaqmı? Təəssüf ki, belə bir presedent heç vaxt qeydə alınmayıb. Nə vaxt ki, Avropanın mərkəzində söz azadlığına təzyiq halları baş verir, sanki qurbağa gölünə daş atılır və heç kəs bunu görmür. Azərbaycanda və ya digər ölkələrdə media təmsilçisi təsadüfən insidentlə üzləşdikdə isə məsələ dərhal söz və ifadə azadlığı kontekstində dəyərləndirilir, kimlərsə ortaya düşüb ağzıköpüklü fikirlər səsləndirir, bəyanatlar bir-birini əvəzləyir. Bu cür yanaşma onu göstərir ki, dünyada söz və ifadə azadlığına dair məsələlərin qabardılması siyasi manipulyasiyadan başqa bir şey deyil və ikili standartlar siyasətinin tərkib hissəsidir. Çox təəssüf ki, durumun dəyişəcəyinə də heç bir ümid yoxdur.

***Ə.RÜSTƏMOV***
***XQ***

# AZƏRTAC-ın əməkdaşına qarşı qərəz kəskin pislənib

**Fransa hakimiyyəti Azərbaycana qarşı qərəzli siyasətini ölkəmizin media nümayəndələrinə də tətbiq etməyə başlayıb. AZƏRTAC-ın Almaniyanın Bonn şəhərində keçirilən seminarda iştirak etmək üçün ezam olunan əməkdaşının Şengen ərazisinə girişi iyunun 11-də Fransanın qeyri-qanuni və əsassız sifarişi əsasında bloklanıb.**

BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyası (UNFCCC) Katibliyinin təşkilatçılığı ilə keçirilən tədbirə dünyanın bir çox ölkələrindən jurnalistlər dəvət edilib. Köln/Bonn hava limanında əməkdaşımız Aygün Həsənovaya bildirilib ki, Fransa tərəfindən onun Şengen ərazisinə daxil olması yasaqlanıb.

Fransanın media işçisinə qarşı bu qərəzli hərəkəti səbəbindən AZƏRTAC-ın əməkdaşı bir neçə saat hava limanında saxlanılıb. Lakin Azərbaycanın Almaniyadakı səfirliyi və UNFCCC Katibliyinin məsələyə qarışmasından, eyni zamanda, Almaniyanın rəsmi qurumlarının Fransanın tələbinin əsassız olduğunu yəqin etdikdən sonrajurnalist soydaşımızın bu ölkəyə daxil olmasına icazə verilib.

Jurnalistlərə qarşı Fransanın belə qərəzli hərəkəti ciddi sual doğurur: Fransa niyə COP29 ilində azərbaycanlı jurnalistin media təlimində iştirakına maneə törətməyə çalışır? Fransa nəzərə almalıdır ki, COP29-da iştirak üçün Bakıya çoxlu fransız jurnalistin də gəlməsi gözlənilir. Məgər belə siyasiləşdirilmiş yanaşma onlara da tətbiq olunmalıdır?!

AZƏRTAC əməkdaşları ilə bağlı Fransa hakimiyyətinin növbəti addımını da jurnalist fəaliyyətinə maneə yaratmaq, fikir müxtəlifliyini boğmaq, Azərbaycana qarşı qərəzli mövqe nümayiş etdirmək kimi qiymətləndirir və bunu qəti şəkildə pisləyir.

Xatırladaq ki, bundan əvvəl də Fransa AZƏRTAC-ın jurnalistləri ilə bağlı qərəzli mövqe nümayiş etdirib, onlara qarşı öz mediasında qarayaxma kampaniyası aparıb. Media azadlığı, azad söz, fikir müxtəlifliyi prinsiplərinin "carçısı" olan Fransa hakimiyyətinin bu hərəkəti heç bir məntiqə sığmır.

***

**Azərbaycan Mətbuat Şurasının AZƏRTAC-ın əməkdaşının Bonn şəhərində keçirilən seminarda iştirakına törədilən maneçiliklə bağlı bəyanatında da bu qərəzli hərəkət kəskin pislənib.**

Sənəddə bildirilib: "Fransanın sifarişi səbəbindən meydana çıxan bu insident hüquq normalarını pozmaq, söz və ifadə azadlığını məhdudlaşdırmaq cəhdidir. Əmin olmaq istərdik ki, Avropanın və dünyanın mütərəqqi çevrələrinin səyləri, prinsipial yanaşmaları nəticəsində Fransaya münasibətdə ciddi ictimai qınaq tədbirləri həyata keçiriləcək, ölkə bir daha belə qanunsuz və qərəzli metodlara əl atmağa cəsarət etməyəcək".

***XQ***

# Xarici İşlər Nazirliyinin məlumatı

**Azərbaycan Respublikasının Xarici İşlər naziri Ceyhun Bayramov Ukrayna Bərpa Konfransında iştirakı çərçivəsində Ukraynanın Xarici İşlər naziri Dmitro Kuleba ilə görüşüb.**

XİN-dən XQ-yə bildirilib ki, görüş zamanı Azərbaycan–Ukrayna əməkdaşlıq gündəliyində duran aktual məsələlər, habelə bölgədəki cari vəziyyət müzakirə edilib. Nazir Ceyhun Bayramov ukraynalı həmkarını bölgədəki son vəziyyət barədə məlumatlandırıb.

Ukrayna tərəfi ölkəsinə göstərilən humanitar dəstəyə və bərpa işlərinə görə təşəkkür edib.

Görüş qarşılıqlı maraq doğuran digər ikitərəfli və regional məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

***

Fransanın bəzi şəhərlərində polis zorakılığı və etirazçılara qarşı gözyaşardıcı qazdan istifadə edilməsi bizi narahat edir. Bu barədə Azərbaycan Xarici İşlər Nazirliyi "X" hesabında məlumat yayıb.

Açıqlamada deyilir: "Toplaşmaq və ifadə azadlığı hüququndan istifadə edən dinc etirazçılara qarşı həddindən artıq güc tətbiqi qəbuledilməzdir. Biz Fransa hökumətini təcili olaraq gərginliyi azaltmağa çağırırıq".

***

Azərbaycan Xarici İşlər Nazirliyi Filippini bu ölkənin milli bayramı münasibətilə təbrik edib. Bu barədə də XİN-in "X" sosial şəbəkəsindəki hesabında aşağıdakı paylaşım edilib: "Filippini və bu ölkənin xalqını Milli Gün münasibətilə təbrik edirik!".

***XQ***



# COP29 və Azərbaycanın dünyaya çağırışı

(əvvəli 1-ci səhifədə)

Əlbəttə, sülh həm də etimad mühitinin mövcudluğundan asılıdır. Ona görə də açıqlamada hər iki qurumun ölkələr arasında etimad quruculuğu istiqamətində ciddi addımların atılmasına dair razılıq əldə etdikləri önə çəkilirdi. Sənəddə humanizm dəyərlərini rəhbər tutan Azərbaycanın 32 erməni hərbçini, Ermənistanın isə, öz növbəsində, 2 azərbaycanlı hərbçini azad etməyə razı olduğu vurğulanırdı və bu razılaşma dərhal həyata keçirildi.

Qeyd edək ki, haqqında söz açdığımız birgə açıqlamada Azərbaycan və Ermənistan beynəlxalq ictimaiyyəti iki ölkənin qarşılıqlı etimadının yaradılmasına töhfə verəcək, bütün Cənubi Qafqaz regionuna müsbət təsir göstərəcək səyləri dəstəkləməyə çağırmışdı. Beynəlxalq ictimaiyyətin isə prosesə yanaşma tərzini gördük. Daha çox Bakı–İrəvan sülh razılaşması fonunda qlobal rəqabət amillərinin ön plana çıxdığını hiss etdik. Mövcud xüsusda İrəvanın sənədin məramına zidd davranışları da diqqətimizdən yayınmadı. Ancaq hesab edirik ki, ümumən Azərbaycanın ortaya qoyduğu əzm əməli nəticələrini verdi. Artıq Ermənistanla sərhədlərin delimitasiyası və demarkasiyası ilə bağlı ciddi işlərə start verilib və prosesin dönməz xarakter aldığını söyləmək üçün əsaslar var.

Deməli, hər bir halda sülh məntiqi başlıca yeri tutur. Azərbaycan Prezidentinin “X” sosial şəbəkəsindəki açıqlaması da prinsip etibarilə məhz bu məntiqdən qaynaqlanır. Ancaq H.Hacıyev məsələni daha qlobal miqyasda vurğulayır. Ən əsası isə sülhü geosiyasi rəqabətdən qorumaq amalını hədəf seçir. Prezidentin köməkçisi ölkəmizin təşəbbüsünün Olimpiya atəşkəsindən ilhamlandığını vurğulayır və bütün diqqəti iqlim dəyişikliyi ilə bağlı aktual problemlərin həllinə, ölkələri mövcud istiqamətdə birgə səylərdə birləşdirmək məqsədinə yönəldir.

Bəli, Azərbaycan geosiyasi rəqabət mühitinin ən müxtəlif təzahür formalarını yaxşı görür. Nəzərə alaq ki, bu rəqabət bir çox hallarda bəşəri dəyər və prinsipləri tam arxa plana atır, onları manipulyasiya predmetinə çevirir. Bəzi ölkələr həmin prinsipləri digərlərinə qarşı alət kimi istifadə edirlər. Biz dünyada ikili standartlar siyasətinin var gücü ilə özünü göstərdiyini müşahidə edirik. Ayrı-ayrı dövlətlər onun fəsadlarından sığortalana bilmirlər. Nəticədə xalqlar, sadə insanlar əziyyət çəkir, məhrumiyyətlərlə üzləşir, tələf olurlar. Mövcud xüsusda Rusiya–Ukrayna müharibəsinin son dərəcə ağır nəticələrini vurğulamaq mümkündür. Ancaq onu da görürük ki, bəzi qüvvələr həmin savaş fonunda yenə siyasi spekulyasiyalarından əl çəkmirlər. Bu baxımdan bir neçə gün sonra İsveçrədə, guya, Ukrayna probleminin həllinə dəstək məqsədi ilə keçiriləcəyi bildirilən Qlobal Sülh Sammitini də misal çəkmək mümkündür.

Hazırda elə bir şərait yaranıb ki, nə yayda Parisdə keçiriləcək Olimpiya Oyunlarının, nə də Bakıda noyabrda keçiriləcək İqlim Dəyişikliyi Konfransının ab-havası hiss olunur. Hazırkı durum heç bir müsbət perspektiv vəd etmir. Buna görə dünyaya sülh mesajının verilməsi mütləqdir. Azərbaycan COP29-a evsahibliyini gerçəkləşdirəcək ölkə kimi bu mesajı verir. Deməli, həm də diqqəti iqlim dəyişikliyinin fəsadlarına yönəldir. Nəzərə alaq ki, həmin fəsadlar bəşəriyyəti daha çox təhdid etmək gücünə malikdir. Sual olunur: ayrı-ayrı dövlətlər nə üçün mübarizə aparırlar? Üstünlük əldə etmək, daha geniş imkanlara sahiblənmək üçün. Bir halda ki, qlobal iqlim dəyişikliyi dünyanın düzənini pozmaq kimi güclü təbiətə malikdir, o zaman hazırkı mübarizəyə dəyərmi? Əlbəttə ki, dəyməz. Axı müharibələrlə, qanlı qarşıdurmalarla ətraf mühitə zərər tendensiyasının doğurduğu laqeydlik davam etsə, uğrunda mübarizə aparılan məqsədlər heçə enəcək. İqlim dəyişikliyi hər bir qlobal gücün maraq və mənafeyinin üzərindən xətt çəkəcək. Görəsən, beynəlxalq ictimaiyyət bunu nə dərəcədə düşünür?

Təbii ki, beynəlxalq ictimaiyyət iqlim dəyişikliyinin fəsadlarını nəzəri baxımdan yaxşı dərk edir. Dünya üzrə aparılan müxtəlif hesablamalar var ki, onların nəticələrinə əsasən 30, 40, 50, 100 ildən sonra yer üzündəki həyatın indiki kimi olmayacağını söyləmək mümkündür. Hər kəs bundan söz açır. Ancaq sanki arxayınlıq var. Görünür, kimlərsə, hansısa qlobal güclərsə bu gün üçün yaşamağı üstün tutur, bəşəriyyətin gələcəyi barədə düşünmürlər. Heç şübhəsiz, beləleri COP29-a da yalnız pristij məsələsi kimi baxırlar.

Azərbaycan isə formal görüntü və gündəliklərdən tam uzaq, real siyasət yeridir. Hər zaman da belə olub. Ölkəmizin beynəlxalq miqyasda qaldırdığı bütün təşəbbüslərin arxasında quru söz deyil, gerçəklik dayanır. Prezident İlham Əliyevin çıxışlarında səsləndirdiyi hər bir fikir reallıqla ciddi fiksasiya təbiətinə malikdir. Bir sözlə, Azərbaycan sözü havaya atmır. Ona görə H.Hacıyevin bildirdikləri həm də zamanı boşa verməməklə bağlı çağırışdır. Görünür, o, elə bu səbəbdən obrazlı şəkildə bildirir ki, velosipedi təkrar-təkrar ixtira etməyə ehtiyac yoxdur.

Bəli, COP-lar arasında sinerji və ardıcıllıq yaratmaq son dərəcə vacibdir. Deməli, bu tip konfransların məğzində dayanan məntiq nəsildən-nəsilə ötürülməlidir. Azərbaycan üçün bu ötürmədəki başlıca motiv sülhdür. Ona görə ölkəmiz İqlim Dəyişikliyi Konfransı müddətində dünyada sülh təşəbbüsünü irəli sürür. Eynilə Yay Olimpiya Oyunlarında olduğu kimi. Elə bir sülh ki, səmimiyyətə əsaslansın və onun davamlılıq parametrləri üzərində düşünülsün. Düşünüləcəkmi? Bu, təşəbbüsümüzə dünya dövlətlərinin hansı reaksiyanı göstərəcəyindən, müvafiq surətdə hansı əməli tədbirləri həyata keçirəcəyindən asılıdır. Gözləyək.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# Makron despotizmi

## Fransada insan hüquqlarına həqarət məntiqi



**Avropanın göbəyində – Fransada polis zorakılığı tüğyan edir. Görəsən, beynəlxalq insan hüquqları təşkilatları hara baxırlar? Sualımız ritorikdir, çünki cavab məlumdur. Onlar ölkədə yaşanan dəhşət və məşəqqətləri görməzdən gəlirlər. Axı “fəaliyyət istiqamətləri” başqadır.**

Söhbətimiz beynəlxalq insan hüquqları təşkilatlarının, o cümlədən, işi insan haqlarının qorunması olan beynəlxalq strukturların ikili yanaşması ilə bağlı deyil. Mövzumuz, ümumən, Fransada qeyri-insani rəftar halları barədədir. Əlbəttə, Azərbaycan Xarici İşlər Nazirliyinin məsələyə dair “X” sosial şəbəkəsindəki paylaşımı əsnasında digər məqamlara, haqqında söz açdığımız tendensiyanın hansı nəticələr doğurmaq ehtimalına diqqət yetirəcəyik.

Əvvəla, onu deyək ki, hazırda Fransada yaşananlar bumeranq effektli olaylardır. Ölkə illərlə, hətta əsrlərlə yeritdiyi bu gün də davam etdirdiyi, zülmə və istibdada söykənmiş kolonial siyasətinin təzahür formalarını özündə hiss etməyə başlayıb. Buna, müəyyən mənada, ilahi ədalət də demək mümkündür. Hərçənd, sıravi fransızların bu ədalətin sərt təcəllisi ilə üzləşmələrinin acılarından təəssüflənirik. Azərbaycan XİN-in paylaşımı da, mahiyyətcə, təəssüfdən qaynaqlanır.

Bəli, Fransa vaxtilə koloniyalarda həyata keçirdiyi qeyri-insani davranışları indi öz daxilində yaşamaqdadır. Bu yaşantı ssenarisinin müəllifi isə Prezident Emmanuel Makrondur. Görünür, Makron özünün daxili siyasətindəki səriştəsizliyi sığortalamaq üçün başqa yol tapa bilmir, zora əl atır. Bəlkə də rəhbərlik etdiyi “İntibah” partiyasının Avropa Parlamentinə seçkilərdə uğradığı məğlubiyyətin heyfini sadə insanlardan çıxır. Qeyd edək ki, onun partiyası cəmi 14,7 faiz səs topladığı halda, rəqibi, milliyətçi Marin Le Penin “Milli birliy”i səslərin 31,5 faizinə sahib çıxıb. Həqiqətən, ortada Makronun adına son dərəcə rüsvayçı mənzərə var. Yaxşı olar ki, Fransa prezidenti partiyasını adını dəyişdirib “Tənəzzül” qoysun. Çünki qurumda “İntibah”lıq bir şey qalmayıb.

Makronun sayəsində Fransada demokratiyadan da əsər-əlamət qalmayıb. Şübhəsiz, onun prezidentliyi ölkədə nümayişlər və etirazlar dövrü kimi xatırlanacaq. Bunu tam əminliklə söyləmək mümkündür. Onu da qəti şəkildə demək olar ki, Makron yaşananlardan nəticə çıxarmaq istəmir. Əksinə, öz inadını davam etdirir. AP-yə seçkilərin acı nəticələrindən sonra özü istefa vermək əvəzinə, parlamenti buraxması və növbədənkənar seçkilər təyin etməsi bundan xəbər verir. Yeri gəlmişkən, Fransada seçkilərin birinci turu iyunun 30-na, ikinci tur isə iyulun 7-nə nəzərdə tutulub.

Qeyd edək ki, E.Makron, həmçinin baş nazir Qabriel Attalın rəhbərliyi ilə “İntibah” partiyası hökumətin istefasını da qəbul edib. Ancaq siyasi müşahidəçilər onun prezidentliyinin son aylarını qurban vermək aqibətindən xilas ola bilməyəcəyini vurğulayırlar. Yəni AP müstəvisindəki rüsvayçılığın prezident kürsüsünün itirilməsi ilə nəticələnəcəyini bildirənlər var. Görünür, hazırda Makron bunun qarşısını almaq üçün zor tətbiqinə üstünlük verir.

Azərbaycan XİN-in açıqladığı kimi, Fransanın bəzi şəhərlərində polis zorakılığı və etirazçılara qarşı gözyaşardıcı qazdan istifadə edilməsi narahatlıq doğuran ciddi məqamdır. Makron hakimiyyətdən getməmək üçün sərbəst toplaşmaq və ifadə azadlığı hüququndan istifadə edən dinc etirazçılara qarşı həddindən artıq güc tətbiq edir ki, bu, tam qəbuledilməzdir.

Bəli, bütün bunlar Avropanın göbəyində baş verir. Hesab edirik ki, hazırkı Fransa rəhbərliyi “köhnə qitə”də demokratik dəyərlərə meydan oxuyur. Yazımızın əvvəlində insan hüquqları təşkilatlarının, prioritet vəzifəsi bu sahə olan qurumların məsələyə sərt münasibətinin vacibliyindən söz açmışdıq. Əlavə olaraq onu da bildirək ki, qitə dövlətlərinin özü də duruma həssas yanaşmalıdırlar. Çünki hazırkı Fransa demokratiya adına son dərəcə mənfi presedent yaradır. Bu presedenti görməzdən gəlmək yolverilməzdir. Axı istənilən ambisioz qüvvə hakimiyyətə yiyələnərək, söz və ifadə azadlığına, plüralizmə meydan oxumaq əzmini ortaya qoymaq üçün platformanın mövcudluğunu düşünə bilər. Nəzərə alaq ki, düşünənlər var. Bunu demək üçün AP-yə seçkilərin nəticələrinə diqqət yetirmək kifayətdir. Seçki millətçi partiyaları zirvəyə daşıdı. Vaxtilə nasional-sosializm də eyni formada təşəkkül tapmışdı. 1929-cu il dünya iqtisadi böhranı şəraitində səriştəsiz yanaşmaların nəticəsi idi ki, Avropa cəmiyyətində solçu və ekstremist ideyalar vüsət aldı. Bəşəriyyət bunun sonunun İkinci Dünya müharibəsinin timsalında hansı böyük fəlakəti doğurduğunu çox yaxşı gördü. İndi də görməlidir. Görməyə məhkumdur.

Sonda yenidən Fransa üzərinə qayıdaq. Azərbaycan XİN-in bildirdiyi kimi, ölkənin hökuməti vəziyyəti təcili olaraq de-eskalasiya etməlidir. Hətta bu, prezidentin istefası bahasına olsa belə. Nəzərə alınmalıdır ki, hakimiyyətdən getmək özü də bir siyasi etikadır. Makron isə bundan xalidir. Görünür, o, özünün “bonapartist” ideyalarının təsirindən çıxa bilmir. Napoleon Bonapart vaxtilə necə etirazçılara qarşı top atəşi açırdısa, indi Makron da təxminən eyni cür davranmağı üstün tutur.

***R.ƏVƏZ***
***XQ***

**REPLİKA**

# Akop “Harop”un hayfını sinaqoqdan çıxır?



**Bəri başdan deyək ki, Akop indi özünü erməni adlandıran hayların ənənəvi, çox istifadə edilən adlarından biridir. “Harop” isə 44 günlük müharibədə Ermənistan ordusunu darmadağın edən, erməni dövlətinin belini qıran, hay ideoloqlarının “dilini kəsən” Azərbaycan Ordusunun arsenalında özünəlayiq yer tutmuş İsrail silahının adıdır. Bu pilotsuz uçuş aparatı Ermənistan hərbi sənayesinə necə od qoyubsa, onu təkcə erməni zabitləri və əsgərləri bilirlər.**

Yadımdadır, “Harop” və “Bayraktar” işğal altındakı Azərbaycan ərazilərində dislokasiya olunmuş Ernənistan hərbi birləşmələrini yerlə-yeksan edəndə erməni politoloq və tarixçiləri “Xolokost ( faşistlərin yəhudilərə qarşı törətdikləri soyqırımı– İ.M.) olmayıb!”, “Dünyanı Xolokostla aldatmaq olmaz!” – kimi cəfəng və uydurma bəyanatlar verərək, Təl-Əvivə təzyiq göstərməyə başlamışdılar. Alınmadı. İsrail Azərbaycana silah satmağı dayandırmadı və “Harop” Xocalı qatillərinə, on minlərlə azərbaycanlının qanını içənlərə “qan uddurmaqda” davam etdi. Elə ona görə də, bu qədim Azərbaycan ərazisi olan Ermənistandakı çoxəsrlik tarixə malik yəhudi sinaqoqu hücumlara məruz qalır.

Yeri gəlmişkən, türk xalqlarında “Ərənlər döyüşü üçdən deyiblər” kimi bir məsəl var. Təbii ki, ərən qüdrətli, qoçaq kişi deməkdir. Ermənilərdə həmin qüdrət, qoçaqlıq olmadığına görə onlar döyüşü üç dəfəyə tamamlaya bilmirlər. Yəni ötən ilin oktyabrından bəri bu ölkədəki yəhudi sinaqoqu artıq dördüncü dəfədir ki, hücuma, terrora, təxribata məruz qalır. Lap on dörd dəfə “qaşınsalar”da, xeyri olmayacaq. Ermənistan dövləti Azərbaycan əsgərinin əlindən elə bir sarsıdıcı zərbə alıb ki, onlar indi İsraillə “qoz-qoz” oynamaq iqtidarında deyillər.

Amma, “vərdişə müalicə yoxdur” deyiblər. Kütləvi informasiya vasitələri xəbər verirlər ki, naməlum şəxslər iyunun 11-nə keçən gecə Yerevanda sinaqoqa hücum ediblər. Ermənistanın yəhudi icmasının nümayəndələrinin “Teleqram” kanallarında yaydığı fotoşəkillərdə daşla qırılan pəncərə və şüşə parçaları görünür. Əlavə edilir ki, dini mərkəzə qəsdən ziyan vurmaqla hücum faktı ilə bağlı cinayət işi açılıb.

Beynəlxalq mətbuat yazır ki, İsrail mediası bütün bunlara görə hakimiyyətin reaksiyasının olmamasından narahatdır. Həmin media orqanlarında ravvinlər və israillilərin sosial şəbəkələrdə təhdid olunması halları xatırladılır. Qeyd edilir ki, binaya od vurmağa çalışan canilər hələ də tapılmayıb.

Ermənistan mətbuatı isə bu vandallıq aktı barədə susaraq “İsraillə “Hizbullah” bir-birinin obyektlərini bombalayır” kimi mənbəyi və müəllifinin mövqeyi məlum olmayan xəbərlərlə oxucunun başını qatmaqla məşğuldur. Əslində, onlardan bundan başqa heç nə gözləməyinə dəyməz. Çünki Ermənistanın və ermənilərin konkret mövqeyi heç zaman olmayıb, indi də yoxdur.

***İ. MƏMMƏDCANOĞLU***

# Avantüristlərin “azadlıq nəğmələri”

***Onlar Bakıdan nəyisə tələb etmək haqqını üç il yeddi ay bundan əvvəl itiriblər***



**Radikal sağçıların Avroparlamentə seçkilərdə “parlaq” qələbəsindən sonra daxildə siyasi “hərarəti” kifayət qədər yüksəlmiş qitənin qocaman dövlətlərindən biri də Almaniyadır. İndi Avropanın bu böyük ölkəsi daxili siyasi çəkişmələrlə yanaşı, separatçı hayların iştirakçısı olduğu anti-Azərbaycan mitinqlərinə də evsahibliyi edir.**

Söhbət BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Bonn şəhərində keçirilən sessiyanın iştirakçıları qarşısında alman–erməni şurasının sədri Conatan Şbankenperkin qaldırdığı təxribatçı təşəbbüsdən gedir. Onun başçılıq etdiyi kampaniyada Bakıda, guya, qanunsuz saxlanılan “Artsax”ın hərbi-siyasi rəhbərliyinin və bütün erməni məhbusların sərbəst buraxılması” tələb olunur.

Bu barədə erməni mediasına danışan Conatan Şbankenperk təşkil etdikləri aksiyalar və “gələcək tədbirlər” barədə danışıb: “Biz bu aksiyaları kifayət qədər qısa müddətdə təşkil etdik. İki tədbir keçirdik. Birincisi bazar ertəsi, iclas başlananda oldu. Aksiyaya 20-yə yaxın iştirakçı qoşulub. İkinci aksiya cümə günü, iyunun 7-də baş verdi. Orada 30-a yaxın erməni iştirak edirdi. Biz çox sayda nümayəndə heyəti ilə söhbət edə bildik və onlara Azərbaycanın gördüyü işlər barədə məlumat verdik. 800-ə yaxın vərəqə payladıq və onlardan soruşduq ki, nümayəndə heyətləri bizim tələbimizi qaldıracaqmı? Mitinqdə Azərbaycanda qanunsuz saxlanılan erməni əsirlərin fotoları nümayiş etdirilib”.

Daha sonra ermənipərəst Şbankenperk özü də fərqinə varmadan Bonn sessiyasına gələn xarici nümayəndələr arasında apardıqları işin çox şübhəli və maraqlı xarakterini faş edib: “Biz nümayəndələri bu məsələləri qaldırmağa təşviq etməliyik. Bu, təkcə erməni məsələsi deyil. Bu, ciddi insan haqları məsələsidir. COP29 sammitinin insan haqlarını pozan ölkədə keçirilməsi qəbuledilməzdir”.

Xarici ölkələrin təmsiçilərini hansı formada “təşviq etməyə” hazırlaşdıqlarını açıqlamayan alman–erməni şurası sədrinin buna necə nail olacaqları heç kəsə sirr deyil. Bundan ötrü, onun özü başda olmaqla, anti-Azərbaycan düşərgəsinin haradan idarə olunduğu və hansı qaynaqlardan qidalandığı gün kimi aydındır. Əlbəttə, “mənzil-qərargahları” yaxınlıqdakı Fransada yerləşən erməni lobbi-diaspor sponsorlarından.

Bonnun mərkəzində təşkil etdikləri azsaylı mitinqdə Bakı həbsxanasında cəzasını gözləyən “filantrop Ruben Vardanyan”ın portretini əllərində tutanların buraya hansı marağın hesabına gətirildiklərini də təxmin etmək çətin deyil.

Hayların Avropada kök atmış separatçı-revanşist təmayüllü daşnak tör-töküntülərinin son etiraz aksiyaları olacaq belə nümayişlər yolu ilə daha heç nəyə nail ola bilməyəcəkləri onların özlərinə də aydındır. Sadəcə olaraq, anlamaq istəmədikləri reallıq və həqiqət ondan ibarətdir ki, ayağa qaldırmağa çalışdıqları beynəlxalq ictimaiyyət artıq kimin kim olduğunu dərk edir və o, avantürist hayların və onların züytutanlarının vay-şivəninə deyil, Bakıdan səslənən qlobal çağırışlara reaksiya verir. Vaxtilə Qarabağda dinc əhaliyə, eləcə də hərbçilərimizə qarşı törətdikləri cinayətlərinə görə həbs olunmuş separatçıların azadlığa buraxılması məsələsinə gəldikdə isə, burada hər şey gün kimi aydındır. Azərbaycan hakimiyyəti məhkəmə hökmlərini gözləyən həmin separatçıların sıralarını seyrəltmək deyil, yalnız artırmaq barədə düşünə bilər.

***İmran BƏDİRXANLI***
***XQ***

# Qurtuluşun dörd fəsli

(əvvəli 1-ci səhifədə)

Ancaq bu fəsli odlu-atəşli edən Aprel döyüşləri, Tovuz hadisələri və 44 günlük İkinci Qarabağ müharibəsi bizi Ulu öndərin ruhu önündə daha üzüağ elədi. Heydər Əliyev siyasi kursunun uğurla davam etdirilməsi təkcə işğal altındakı torpaqlarımızın düşmən tapdağından azad edilməsi ilə yadda qalmadı. Azərbaycan Ordusu düşmənin silahlı qüvvələrini darmadağın etdi, Ermənistan iqtisadiyyatı çökdürüldü, işğalçı qoşunların 25 faizi fərarilik etməyi xilas yolu kimi gördü, Xocalı qatilləri rəzil edildi, qədim Azərbaycan torpaqlarında yaradılmış separatçı dövlətin rəhbərləri "özünü byraxıb" döyüş meydanından qaçdı, separatçıların rəhbərlərinin bəzilərinin qulağından tutub Bakıya gətirildi və sair. Bütün bunlar Heydər Əliyev siyasi kursunun qələbəsi idi.

**Qurtuluşumuzun dördüncü fəsli – payız** üzümüzə elə payızda güldü. Biz siyasət meydanında (tarlasında) 1993-cü ilin yayından bəri əkib-becərdiklərimizin məhsulunu 2020-ci ilin payız fəslinin son ayında yığıb-yığışdırmağa başladıq. Düşmən həmin payızda təslimolma sənədinə imza ataraq əsrlərdən bəri yaradılmış miflərin heç-puç olduğunu təsdiq etdi və Azərbaycan o günlərdən etibarən – artıq dörd ilə yaxındır ki, siyasi mübarizənin, diplomatik mücadilənin və hərbi müdaxilənin bar-bəhərini toplamaqla məşğuldur. Həmin bar-bəhərin siyahısına üç böyük hava limanı, "ağıllı" kənd və şəhərlər, misli-bərabəri olmayan bərpa-quruculuq işləri, ucu-bucağı görünməyən yol infrastrukturu, çoxsaylı qayıdış karvanları, Şuşada keçirilən beynəlxalq və yerli tədbirlər, eləcə də Azərbaycan və Türkiyə prezidentlərinin məhz burada imzaladığı Şuşa Bəyannaməsi daxildir. Bütün bunlar xalqımıza nicat, milli dövlətçiliyimizə Qurtuluş bəxş etmiş Ulu öndərin ruhunu nə qədər şad edirsə, bir Allah bilir.

... Moskvada onun siyasi müdrikliyini, idarəetmədəki təcrübəsini, beynəlxalq aləmdəki nüfuzunu, ən başlıcası, Azərbaycan sevgisini və türk təəssübkeşliyini alqışlayanlar da var idi, dəstəkləyənlər də, bundan hürkən, qorxan, narahat olanlar da. Türk kölgəsini qılınclayanlar bu böyük Azərbaycan sərkərdəsinin uzun illər sədaqətlə xidmət etdiyi dövlətin paytaxtında ev dustağı kimi yaşamasına nail olmuşdular. Ancaq unutmuşdular ki, o, Heydər Əliyev idi, onu dustaq kimi saxlamaq mümkün deyildi.

Bəli, Heydər Əliyev Kremlin labirintlərindən sağ-salamat çıxdığı kimi, Mixail Qorbaçovun "məngənəsindən" də böyük ustalıqla qurtararaq, azadlıq eşqi ilə yanan xalqının yanına qayıtmağı bacardı. Ancaq Bakıdakı bədxahlar Heydər Əliyevin kölgəsindən qorxmaqda SSRİ prezidentindən çox da fərqlənmirdilər. Ona görə də Moskvadan Vətənə qayıtmış liderin, təxminən, otuz il çalışdığı, 1969–1982-ci illərdə az qala başdan-başa yenidən qurduğu, abadlaşdırdığı Bakıda yaşamasına imkan vermədilər. Bu, az imiş kimi, Naxçıvanda da onun fiziki cəhətdən yox edilməsinə çalışdılar.

**Sizi əmin edirəm ki, bütün imkanlardan istifadə edib bu böyük vəzifəni, ağır bir yükü aparmağa çalışacağam və bu vəzifənin ləyaqətlə yerinə yetirilməsinə səy edəcəyəm. Bildirmək istəyirəm ki, Azərbaycan Respublikasının bugünkü ağır, mürəkkəb və gərgin vəziyyətini tam məsuliyyətlə dərk edirəm. Bu vəzifəni üzərimə götürərək öz məsuliyyətimi anlayıram və bunların hamısını rəhbər tutaraq əlimdən gələni edəcəyəm.**

**Ulu öndər Heydər Əliyevin Milli Məclisin 15 iyun 1993-cü il tarixli iclasındakı çıxışından**



...Qərəz, Heydər Əliyev Naxçıvan Muxtar Respublikasına rəhbərlik etdiyi qısa müddətdə çox şeyə, xüsusən, muxtar respublikanın torpaqlarına göz dikən düşmənin qarşısını aldı, rus hərbçilərinin muxtar respublikadan çıxarılmasına təmin etdi, Azərbaycanla Türkiyə arasında "Ümid körpüsü" yaradılmasının təşəbbüskarı oldu, şəxsi nüfuzundan istifadə edərək İran İslam Respublikası ilə ticari-iqtisadi münasibətlər yaratdı və nəticədə Naxçıvana qurtuluş, nicat gətirdi. Bütün bunları yaxşı görən və lazımınca qiymətləndirməyi bacaran Azərbaycan ziyalıları Heydər Əliyevin Naxçıvandan Bakıya gəlməsini, problemlər girdabında çapalayan respublikanın xilas edilməsində iştirakını istədilər.

...Gəldi. Onun ölkə paytaxtına 9 iyun 1993-cü il tarixli qayıdışı xalqın sönməkdə olan ümidlərinin üstünə səpələnən yaz yağışı oldusa, Milli Məclisin 15 iyun tarixli sessiyasının qərarı gənc müstəqil dövlətimizin əbədiləşdirilməsi istiqamətində atılan mühüm addımlardan biri kimi yadda qaldı.

Həmin məqamı daha yaddaqalan edən faktlardan biri də o idi ki, cəmi il yarım əvvəl Heydər Əliyevin Bakıda yaşamasına razı olmayan AXC-Müsavat iqtidarı indi acizanə şəkildə xahiş edirdi ki, Ulu öndər gəlib ölkəni vətəndaş müharibəsindən qurtarsın. Deputatlar həmin il iyunun 15-də Heydər Əliyevi Ali Sovetin Sədri seçdilər. Böyük dövlət xadimi adıçəkilən iclasda bu etimada cavab olaraq xatırlatdı ki, Ali Sovetin Sədri kimi Azərbaycan xalqının tarixi nailiyyəti olan Azərbaycan Respublikasının dövlət müstəqilliyini qorumağı, möhkəmləndirməyi, inkişaf etdirməyi özüm üçün ən əsas vəzifələrdən biri hesab edirəm: "Azərbaycan Respublikasının dövlət müstəqilliyi 1918-ci ildə yaranmış ilk Azərbaycan Demokratik Respublikasının ənənələri əsasında, müasir tələblərlə, dünyada gedən proseslərlə bağlı olaraq təmin olunmalıdır. Bu sahədə mən daim çalışacağam və heç kəsin şübhəsi olmasın ki, ömrümün bundan sonrakı hissəsini harada olursa-olsun, yalnız və yalnız Azərbaycan Respublikasının müstəqil dövlət kimi inkişaf etməsinə həsr edəcəyəm. Bununla əlaqədar olaraq bildirmək istəyirəm ki, mənim fikrimcə, Azərbaycan Respublikası bundan sonra onun başına nə gəlirsə-gəlsin, müstəqilliyini itirməyəcək, yenidən heç bir dövlətin tərkibinə daxil olmayacaq, heç bir başqa dövlətin əsarəti altına düşməyəcək". Dedi və etdi. Birmənalı şəkildə söyləyə bilərik ki, Prezident İlham Əliyevin son 21 ildəki bütün uğurlarının təməlində Heydər Əliyev siyasi kursunun sədaqətlə davam etdirilməsi dayanır.

Azərbaycanın 1993–2003-cü illərdəki uğurlarını gözü götürməyənlər deyirdilər ki, Heydər Əliyevin fəxr etdiyi atəşkəs torpaqlarımızın düşmən əlində qalmasına şərait yaratdı. Anlamırdılar ki, həmin atəşkəs Azərbaycan Ordusunun yenidən qurulmasına və möhkəmləndirilməsinə, bugünkü nəticələrin qazanılmasına hazırlıq məqsədi güdürdü. İlham Əliyev Prezident seçiləndə isə "valın o biri üzünü" oxudurdular: " Heydər Əliyevin qaytara bilmədiyi torpaqları İlham Əliyev necə qaytaracaq?" Azərbaycan Prezidenti həmin gerizəkalıların dayaz suallarına sözlə yox, əməllə, konkret nəticələrlə cavab verdi.

Azərbaycan Ordusunun 2020-ci ilin payızındakı uğurlarını gözü götürməyənlər yeni bayatılar quraşdırmağa başlamışdılar: "Biz Xankəndiyə, Xocalıya gedə bilmiriksə, bunun harası Zəfərdir?" Prezident İlham Əliyev sonrakı qətiyyətli addımları ilə Zəfərin nə demək olduğunu da onlara başa saldı. Ancaq cənab Prezident heç bir addımını kiməsə nəyisə başa salmaq üçün deyil, xalqa xidmət, milli dövlətçiliyə sədaqət və Heydər Əliyev siyasi kursunun davam etdirilməsi naminə atır.

Prezident İlham Əliyev ötən il mayın 3-də ADA Universitetinin təşkilatçılığı ilə Şuşada keçirilən, ümummilli lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş "Böyük Avrasiya geosiyasətinin formalaşması: keçmişdən bu günə və gələcəyə" mövzusunda dördüncü beynəlxalq konfransın açılış tədbirində demişdir: "Heydər Əliyev həmişə Azərbaycan xalqının maraqlarını qoruyan bir şəxs olmuşdur və bunu zamana, siyasi vəziyyətə baxmayaraq etmişdir... 10 ildən artıq müddətdə sovet Azərbaycanının rəhbəri olanda və hətta ideoloji əngəllər çərçivəsində o, Azərbaycan xalqının maraqlarını qoruyurdu və milli kimliyimizi saxlaya bilməyimiz üçün əlindən gələni etməyə çalışırdı. Yetmişinci illərdə və səksəninci illərin əvvəlində onun tərəfindən atılmış bir çox addıma nəzər salsaq görərik ki, onlar Azərbaycanın müstəqilliyinə hədəflənmişdir".

Bəli, Ulu öndərin siyasi fəaliyyətinin bütün dövrləri Azərbaycan xalqına və milli dövlətçiliyimizə xidmətlə keçmişdir. Ancaq bu sətirlər Qurtuluşun növbəti ildönümünə həsr edildiyinə görə yazını elə yuxarıda qeyd etdiyimiz arqumentlə yekunlaşdırmaq istəyirəm:

Biz tarixi Qurtuluşun bütün ildönümlərini Ulu öndərin adına layiq uğurlarla qeyd etmişik. Builki ildönümü isə daha möhtəşəm nailiyyətlərlə yadda qalır. Üzün daim ağ olsun, Azərbaycan!

**İttifaq MİRZƏBƏYLİ**

# Yeni tarixi mərhələdə multiregionalizm və milli ideya

**III MƏQALƏ**

## Multiregional kontekst

Dünyanın tanınmış diplomatları və politoloqlarının Yaxın Şərqin, Qafqazın və Mərkəzi Asiyanın coğrafi mövqelərinə görə geosiyasi əhəmiyyəti ilə bağlı qiymətlədirmələri olduqca maraqlıdır. Yaxın Şərq həmişə dünya siyasətinin ən aktual mövzularından biri olmuşdur. Hətta, bu coğrafiyada geosiyasi üstünlüyə malik olan dövlət və ya dövlətlər qrupunun bütövlükdə dünyaya hökm edə biləcəyi fikri mövcuddur.

Müasir politoloji araşdırmalarda Yaxın Şərqin dünya siyasi proseslərinə ciddi təsirindən bəhs edilir. Bu aspektdə də ayrıca, Cənubi Qafqaz və Mərkəzi Asiyaya olan təsirlər analiz olunur. Onu vurğulayaq ki, H.Makkinder Yaxın Şərqi "marjinal region" adlandırmışdı, lakin tarixi proseslər göstərir ki, hazırda bu regionda baş verən geosiyasi, siyasi və hərbi proseslər Qafqaz və Mərkəzi Asiya istiqamətində çox təsirlidir.

Cənubi Qafqaza gəldikdə isə həm H.Makkinder, həm də ondan sonra gələn Qərb politoloqları və diplomatları bu məkanı xüsusi qiymətləndirmişlər. Onlar Cənubi Qafqazı "dünyanın geosiyasi mərkəzləri"ndən biri adlandırmışlar. Z.Bzejinski isə ayrıca Azərbaycanı "Şərqlə Qərb arasında əsas geosiyasi körpü" kimi tərif etmişdir. H.Kissincerin də mövqeyi buna bənzərdir. İndi Qərbdə hazırlanan elə bir geosiyasi konsepsiya yoxdur ki, Cənubi Qafqazı yüksək qiymətləndirməsin. Özü də onların hər birində Cənubi Qafqaz multiregional kontekstdə təqdim edilir.

Mərkəzi Asiyaya gəldikdə isə, indi bu regionda böyük güclərin mübarizəsi yeni kəskinlik və gərginlik səviyyəsinə yüksəlməkdədir. ABŞ–Rusiya–Çin geosiyasi rəqabət üçbucağında proseslər kifayət qədər intensiv gedir. Maraqlıdır ki, bu mübarizədə də Mərkəzi Asiyanın multiregional kontekstdə təqdimatı üstünlük təşkil edir. Həmin region, bir qayda olaraq, Asiya, Qafqaz və Yaxın Şərq qarşılıqlı əlaqəsində nəzərdə tutulur. Eyni zamanda. Qərb geosiyasi məkanı ilə münasibətlər aspektində də Mərkəzi Asiyanın aktuallığı artmışdır.

Belə çıxır ki, həm tarixən, həm də müasir mərhələdə türk dövlətlərinin yerləşdiyi coğrafiya, həmin məkanda aparılan geosiyasət və digər aspektlər nəzəri təlimlərdə multiregional kontekstə malikdir. Bizim baxdığımız politoloji məsələ kontekstində bu o deməkdir ki, indiki mərhələdə Cənubi Qafqazın geosiyasətinə multiregional aspektdən kənar baxmaq bütövlükdə XXI əsrin çağırışlarına uyğun deyildir. Buna görə də TDT özlüyündə türk dövlətlərini əhatə etsə də, geosiyasət, əməkdaşlıq və təhlükəsizlik baxımından multiregional mahiyyətlidir. Bu cür "təbii multiregionallıq" avtomatik olaraq TDT-yə həmin prizmada yanaşmağı tələb edir.




## TDT-nin multiregional özəllikləri

Türk Dövlətləri Təşkilatı haqqında indi çox sayda araşdırmalar aparılır. Onların hər birinin əhəmiyyəti vardır. Bununla yanaşı, TDT-nin multiregional mahiyyəti politoloji aspektdə aydınlaşdırılmalıdır. Həm də milli ideya konteksti onun əsas faktorlarından biri olmalıdır. Səbəbləri aktual və maraqlıdır.

Azərbaycan üçün TDT-nin multiregionallığının mərkəzində Ulu öndərin konseptual müəyyən edərək reallaşdırdığı Naxçıvan sinerjisi–Azərbaycan sinerjisi və ümumtürk sinerjisi transformasiyaları dayanır. Öncədən Azərbaycan dövlətçiliyi müstəqillik aspektində konkret Azərbaycan–Cənubi Qafqaz–Türk dünyası bağlantısı nəzərə alınaraq diqqətdə saxanılmışdır. Bu o deməkdir ki, Azərbaycan Respublikasının müstəqil dövlət kimi inkişafı yalnız milli və ya regional miqyasda deyil, həm də multiregional miqyasda məzmunlaşdırılmışdır. Bu mənada, multiregionallıq faktoru milli ideyada təbii olaraq yer almaqdadır.

Ayrıca, dövlət quruculuğu sinerjisinin transformasiyaları ilə regionlararası əlaqələrin inkişafı arasında başqa aspektdə də bağlantıların qurulması lazım gəlir. Həmin bağlantılar Azərbaycanın hər bir türk dövləti ilə ayrıca və bütövlükdə, TDT daxilində əməkdaşlıq modelinin uyğunlaşdırılmasını təmin etməlidir. Çünki XXI əsrin təcrübəsi göstərir ki, başqa halda əməkdaşlıq qalıcı olmur – hər bir iştirakçının maraqları həm maksimum təmin ediməlidir, həm də onlar arasında qarşılıqlı anlam olmalıdır.

Bu iki səviyyənin real təmin olunması milli ideyanın məzmunu ilə sıx bağlıdır. Məsələn, hər hansı TDT üzvünün milli ideyası digər türk dövlətlərinin milli ideyalarının strateji hədəfləri ilə ziddiyyət təşkil etməməlidir. Əks halda, proses hansısa məqamda qırılacaqdır.

Konkret həyatda milli ideyalar arasında ziddiyyətsiz mühit yaratmaq başqa aktual məsələdir. Deməli, Azərbaycan üçün yeni tarixi mərhələdə milli ideyanın multiregional konteksti ciddi strateji məna kəsb edir. Burada aktual hesab etdiyimiz bir neçə məqamı vurğulamaq olar.

Hər şeydən öncə, regional təşkilatlanma ilə multiregional miqyasda fəaliyyət arasında daxili əlaqələrin əhəmiyyəti artır. Yəni Azərbaycan Cənubi Qafqazın lideri olaraq TDT-də həm də yerləşdiyi regionun maraqlarına uyğun iştirak etməlidir. Buna görə də, məsələn, Qafqaz evi formatının işlək olması lazımdır. Və yaxud "3+3" formatı real təhlükəsizlik platforması kimi fəaliyyət göstərməlidir. Bu növ regional təşkilatlanma iki cəhətdən Azərbaycana TDT-də daha fəal olmağa imkan yaradır.

Birincisi, Azərbaycan hər bir türk dövləti üçün də əhəmiyyəti olan Cənubi Qafqazın sabit, etibarlı və təhlükəsiz məkan olmasını təmin edir. Bu təminat Mərkəzi Asiya ilə Avropa arasında etibarlı geosiyasi körpü rolunu oynamağa ciddi töhfə verər.

İkincisi, Azərbaycan Cənubi Qafqazın lideri kimi, region dövlətlərini əməkdaşlıq və təhlükəsizlik kontekstlərində həm də istiqamətləndirmiş olur. Onlar əmin olurlar ki, türk dövlətləri ilə əməkdaşlıq milli təhlükəsizlikləri və perspektivli qalıcı inkişafları üçün çox vacibdir. Bu faktorun strateji aspektdə çox sayda dövlətin TDT-yə münasibətinin yeniləşməsinə güclü təkan verəcəkdir. Həm də geosiyasi rəqabətin getdikcə gücləndiyi bir mərhələdə TDT-nin şansını daha da artıracaqdır.

Belə çıxır ki, Azərbaycan Prezidentinin postmüharibə dövründə TDT-nin gücləndirilməsi ilə bağlı vurğuladığı fikrin ciddi nəzəri və praktiki əsasları vardır. Söhbət faktiki olaraq müstəqil Azərbaycan dövlətçiliyinin yeni tarixi mərhələdə elə transformasiyasından gedir ki, həm regional, həm də multiregional miqyaslarda Azərbaycan Respublikası dövləti həlledici güclərdən birinə çevrilsin. Əlbəttə, bu, kifayət qədər mürəkkəb və çətin vəzifədir, lakin qarşıya qoyulan istənilən vəzifənin uğurla öhdəsindən gələ bilmək qüdrətini Azərbacyan Prezidenti dəfələrlə sübut etmişdir. Milli ideya kontekstində Azərbaycan multiregionalizminin də uğurlu olacağına şübhə yoxdur. Bu prosesin ilkin əlamətləri artıq özünü göstərir.

Azərbaycan multiregionalizminin siyasi-diplomatik təzahürləri bir neçə faktda ifadəsini tapmışdır. Onlardan birincisi Ermənistanla sülh müqaviləsinin imzalanma prosesinin yeni əlamətləri ilə bağlıdır. Azərbaycan Prezidenti bu məsələni Zəngəzur dəhlizi ilə daha sıx əlaqələndirməyə nail olmuşdur. Bu zaman Zəngəzur dəhlizi Orta dəhlizin mühüm bir punktu statusunda təqdim edilir. Azərbaycan tərəfindən məsələnin qoyuluşu belədir: "Zəngəzur dəhlizi ya açılacaq, ya da mütləq açılacaq"!

Maraqlıdır ki, artıq Qərb və Rusiya da bu gedişatla razılaşırlar. Rusiya xüsusilə Ermənistan rəsmilərinin Zəngəzur dəhlizinə nəzarəti avropalıların edə biləcəyinə eyham vurmasından sonra mövqeyini daha da qətiləşdirmişdir.

ABŞ-yə gəldikdə isə C.Baydenin Azərbaycan Prezidentinə ünvanladığı məktubdan görünür ki, Vaşinqton rəsmi Bakının təşəbbüsünə dəstək verir. Brüsseli də qane etməyən hər hansı məqam yoxdur. Zəngəzur dəhlizinə nəzarət məsələsində Aİ-nin Rusiya ilə ziddiyətini isə onlar özləri həll etməlidirlər. Bu məsələdə Azərbaycan həmişə beynəlxalq hüququn və qarşılıqlı faydalı əməkdaşlığın tərəfdarıdır.

Digər fakt Prezident İlham Əliyevin Misir və sonra Türkiyə səfərlərinin məzmununda ifadə edilmişdir. Azərbaycan Prezidenti multiregional miqyasda Cənubi Qafqazdan tutmuş Fələstinə qədər geniş məkanda olan məsələlərin həllinin aktiv iştirakçısıdır. Türkiyə Prezidentinin azərbaycanlı həmkarını Ankara Hava Limanında qarşılaması və orada müzakirələr aparması İlham Əliyevin xarici siyasətdə multiregionalizmi uğurla reallaşdırmasının təsdiqlərindən biridir. Həmin bağlılıqda Rusiya rəhbərliyinin Azərbaycan və Türkiyə ilə əlaqəli yeni müsbət fikirlər söyləməsini unutmaq olmaz!

Bunlar onu ifadə edir ki, Azərbaycan xarici siyasətdə multiregionalizmi reallaşdırmaq istiqamətində əhəmiyyətli addımlarını atmaqdadır. Bu addımlar Çin, Cənubi Qafqaz, Rusiya, Türkiyə, Yaxın Şərq arasında etibarın, sülhün və əməkdaşlığın inkişafına xidmət edir. Azərbaycan Prezidenti həmin bağlılıqda artıq əsas liderlərdən biri kimi fəaliyyət göstərir. Bu da TDT kontekstində digər bir məsələnin aktuallaşdığını əks etdirir.

Belə görünür ki, Azərbaycanın multiregional siyasəti TDT üçün struktur və funksional aspektlərdə yeni məsələləri aktuallaşdırmışdır. Konkret olaraq, TDT stukrutlaşmasının yeni səviyyəsinə keçməlidir. Burada çevik, aktiv və geniş funksional imkanlara malik olmaq şərtləri mütləq ödənməlidir. Çünki Azərbaycan multiregionalizmi indi elə səviyyədədir ki, hər bir türk dövlətinin də xarici siyasətdə fəal olmasını tələb edir. Söhbət, bütövlükdə, Türk dünyasının sabitliyi, təhlükəsizliyi və əməkdaşlığından gedirsə, başqa yol yoxdur. Həm türk dövlətləri ayrıca həm də bir təşkilat olaraq TDT bu tələblər səviyyəsində fəaliyyət göstərməlidir. Buna görə də yaxın perspektivdə TDT-də strukturlaşma və funksionallaşmada yenilikləri gözləmək olar.

Bu da, öz növbəsində, milli ideyada yeni məzmun çalarlarının aydınlaşa bilməsini mümkün saymağa imkan verir. TDT multiregional təşkilat kimi özünün yeni səviyyəsinə yüksəlsə, sonrakı mərhələdə qlobal miqyasda türk dövlətlərinin rolunun artması təmin olunacaqdır. Təbii ki, bu proses konkret dinamikaya malikdir və hadisələri qabaqlamaq olmaz.

Lakin indidən aydındır ki, TDT-nin multiregional mahiyyətli təşkilat kimi yeni təşkilatlanma səviyyəsinə yüksəlməsi ilə başqa bir təşkilatın – Qoşulamama Hərəkatının regionlararası kontekstdə fəaliyyətinin əhəmiyyəti çoxalacaqdır. Azərbaycan üçün məsələ həm də ona görə əhəmiyyətlidir ki, ölkəmiz bu təşkilata sədrliyi müddətində ciddi uğurlar qazanmışdır. Hazırda məhz Qoşulmama Hərəkatı daxilində Azəraycanın yeni müstəmləkəçiliyə və ksenofobiyaya qarşı mübarizə təşəbbüsü ciddi dəstək görür. Həmin kontesktdə Qoşulmama Hərəkatının TDT ilə münasibətləri məsələsi daha da aktuallaşır.

**(ardı var)**

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

# İrəvanda ara qarışdı

(əvvəli 1-ci səhifədə)

Günortadan sonra vətəndaşlar keşişin çağırışı ilə İrəvanın mərkəzində, Baqramyan prospektində, Ermənistan parlamentinin binası yaxınlığında toplaşmağa başlayıblar. Eyni vaxtda qanunverici orqanın binasına qalxan və yüzlərlə dəbilqəli polis gəlib. Polislər özləri ilə parlament binasına tikanlı məftillər də gətiriblər.

Radikalların parlament binası yaxınlığına toplaşmaları təsadüfi deyil. Məsələ ondadır ki, dünən saat 16:30-da parlamentdə baş nazir Nikol Paşinyanın iştirak edəcəyi hökumət saatı keçiriləcəkdi. Paşinyan səhər saatlarından etibarən Ermənistan Respublikasının 2023-cü il dövlət büdcəsinin icrasına dair illik hesabatın müzakirə olunduğu iclas parlamentdə idi.

Baş nazirin parlamentə gəlişi səbəbindən Ermənistan parlamentində təhlükəsizlik tədbirləri gücləndirilib. "Nyus.am" xəbər verir ki, təhlükəsizlik xidmətinin əməkdaşları həm deputat yerlərini yoxlayıb, həm də tribuna üzərindəki su şüşələrini toplayıblar. Bundan başqa, onlar parlamentdəki stulları da diqqətlə yoxlayıblar. Jurnalistlərə isə iclas başlananadək zala buraxılmayacaqları deyilib.

Ermənistan milli təhlükəsizlik xidməti isə "Vətən naminə Tavuş" hərəkatının tərəfdarlarına xəbərdarlıq edib. Xidmət hərəkatın tərəfdarlarını qanunvericiliyin tələblərinə riayət etməyə və ictimai asayişin pozulmasına yol verməməyə çağırıb. Bu barədə çağırış qurumun saytında yerləşdirilib. Məlumatda istənilən qanun pozuntusunun qarşısının bütün qanuni üsullardan istifadə etməklə alınacağı bildirilib.

Paşinyan özü isə etiraz aksiyaları fonunda müxalifətin parlament binasının qarşısında təxribat törədəcəyini istisna etməyib. Hökumət başçısı jurnalistlərə açıqlamasında təhlükəsizlik tədbirlərini məhz bununla əsaslandırıb: "Əgər polis və milli təhlükəsizlik xidmətinin əməkdaşları ərazidə təhlükəsizlik tədbirlərini gücləndirirsə, deməli onların əlində bəzi qrupların burada təxribat törədəcəyinə dair informasiya var".

Baş nazir parlamentin binası qarşısına çoxsaylı polis qüvvələrinin toplaşması ilə bağlı açıqlamasında isə bunun dövlət binalarının, eləcə də dinc toplantıların iştirakçılarının hüquqlarının qorunması üçün adi prosedur olduğunu deyib.

Nikol onu da bildirib ki, erməni xalqı hökuməti dəyişmək istəsə, bunu edəcək: "Görünür, müxalifət özü hökumətin istefası ilə bağlı çağırışın müzakirəsində iştirak etməyib".

"Vətən naminə Tavuş" hərəkatının nümayəndəsi, "Daşnaksütyun" partiyasının və Robert Koçaryanın parlamentdəki "Hayastan" fraksiyasının üzvü, son günlərdə xeyli canfəşanlıq edən Qarnik Danielyan isə dünən jurnalistlərlə söhbətində deyib: "Polis canlı yayımları izləyir və etirazların qarşısını alır. Hakimiyyət böyük qüvvə cəmləşdirib və bizim planlarımızı pozmağa çalışır. Onları hətta, bizə düşmən olan dövlətlər də dəstəkləyirlər (?), təəssüf ki, onların burada agentura şəbəkəsi var".

Günortadan sonra Ermənistan polisi "Vətən naminə Tavuş"un parlament binasının qarşısındakı aksiyasına toplaşanları saxlamağa başlayıb. İrəvan polisi 42 nəfərin saxlanıldığını açıqlayıb. Onlar polisin qanuni tələblərinə tabe olmamaqda təqsirləndirilirlər.



Radikallara Ermənistan cəmiyyətinin böyük əksəriyyətinin dəstək verməməsinə baxmayaraq, onların aksiyalarının intensivliyinin artması hakimiyyətə istəməz çətinlik törədir. Bir sıra xarici ekspertlər hesab edirlər ki, xarici tərəfdaşları Paşinyana dəstək mesajları verməlidirlər. Məsələn, Xarici Əlaqələr üzrə Avropa Şurasının (ECFR) "Genişlənmiş Avropa" proqramının direktoru Mari Dyumulenin fikrincə, Paşinyan Avropa İttifaqının (Aİ) dəstəyi olmadan, necə deyərlər, sağ qala bilməz.

Dyumulen hesab edir ki, Aİ öz mövqelərini gücləndirmək üçün Nikol Paşinyan hökumətinə açıq dəstək siqnalları göndərməlidir: "Paşinyan erməni cəmiyyəti arasında populyar olmayan kompromislərə getməli oldu. Nə qədər ki, İrəvanın Bakı ilə danışıqlarda mövqeyi möhkəmlənməyib, sabitliyi pozan etiraz aksiyaları daha da güclənə və zorakılığa çevrilə bilər. Bu, Paşinyanın daxili islahat gündəmini həyata keçirmək və Azərbaycanla sülh müqaviləsi üzrə danışıqları davam etdirmək imkanlarına xələl gətirəcək".

Onun sözlərinə görə, erməni biznesi və sənayesi üçün nəzərdə tutulan 270 milyon avroluq proqram düzgün istiqamətdə atılan addımdır, lakin Macarıstan Aİ-nin Ermənistana öldürücü olmayan silahların tədarükü üçün Avropa Sülh Fondundan istifadə etmək səylərini əngəlləyib: "Avropalı siyasətçilər Azərbaycanla münasibətlərdəki fikir ayrılıqlarını aradan qaldırmağa çalışmalıdırlar. Azərbaycan Aİ-nin bir sıra üzv dövlətlərinin mühüm ticarət və enerji tərəfdaşıdır və "Orta dəhliz" təşəbbüsündə mühüm "oyunçu"dur. Eyni zamanda, Aİ Azərbaycana qarşı təsir vasitələrindən, o cümlədən, Bakıda keçiriləcək BMT-nin iqlim dəyişikliyi konfransına (COP29) hazırlıq zamanı, danışıqlarda daha balanslı vəziyyətə nail olmağa çalışmaqdan çəkinməlidir ki, bu da Ermənistana daha güclü qonşusu ilə təkbətək danışıq aparmağa imkan verəcək".

Bu arada "Armenian Report" saytında yerləşdirilmiş "Parlament müxalifəti və seçki kabusu" sərlövhəli analitik yazı diqqəti cəlb edir. Qeyd edilir ki, son günlər ölkədə növbədənkənar parlament seçkiləri mövzusu aktuallaşıb. Bəzi media orqanları isə N.Paşinyanın özünün bu il növbədənkənar parlament seçkiləri keçirməyi planlaşdırdığını və müvafiq qərarın bir neçə gün əvvəl hakim "Mülki müqavilə" partiyasının iclası zamanı verildiyini yazmaqla yanan ocağa yağ tökürlər: "Qəribədir, həmin media orqanları hökumətdaxili mənbələrinə istinadən izah ediblər ki, Paşinyan bununla müxalifət partiyalarının parlamentdəki yerlərinin sayını azaltmaq istəyir və növbədənkənar seçkilər, guya, siyasi meydanı gözlənilməz şəkildə ələ keçirəcək və yeni müxalifət qüvvəsinin yetişməsinə imkan verməyəcək. Lakin parlamentin vitse-spikeri Ruben Rubinyan iyunun 11-də jurnalistlərə bildirib ki, Ermənistan seçki mexanizminin olduğu demokratik ölkədir. Sivil dünya seçkiləri ona görə icad edib ki, insanlar küçələrə çıxmasınlar və kimsə soruşmasın ki, hakimiyyəti dəyişmək üçün nə qədər adam kifayətdir. İnsanlar sivil şəkildə seçki məntəqələrinə gedib, səs versinlər və buna uyğun hakimiyyət formalaşsın. Rubinyan onu da deyib ki, 2018-ci ildən bəri keçirilən heç bir seçki şəffaflıq və ədalətlilik baxımından mübahisələndirilməyib".

Yazıda bildirilir ki, bir neçə gün əvvəl səhiyyə naziri Anait Avanesyan da dolayısı ilə hakimiyyətin yeni seçkilər planlaşdırmadığını təsdiqləyib. "Seçkilər xalqın hakimiyyətin uğur qazanıb-qazanmadığını dəyərləndirdiyi mexanizmdir. 2026-cı il seçkiləri gələcək və xalqımız öz qiymətini verəcək" – deyə Avanesyan qeyd edib.

Lakin növbədənkənar seçkilərlə bağlı mətbuatda dolaşan şayiələr müxalifəti çaşdırıb və radikallar dərhal absurd tələblər irəli sürməyə başlayıblar. Deyiblər ki, Paşinyan seçki dövründə baş nazir vəzifəsinin icraçısı kimi qalmasa, bu seçkilərdə iştirak etməyə hazırdırlar. Bu barədə Koçaryanın "Ermənistan" fraksiyasının katibi Artsvik Minasyan jurnalistlərlə söhbətində bildirib: "Nikol Paşinyan istefa verdiyini və baş nazir səlahiyyətlərini icra etməyəcəyini bildirməlidir".

Qeyd olunub ki, bu, kifayət qədər absurd tələbdir: "Bu, şübhəsiz ki, bir tərəfdən müxalifətin yeni seçkilərdən qorxduğunu göstərir, digər tərəfdən də cəmiyyəti müxalifətin mandatlardan möhkəm yapışdığına inandırır. Və həqiqətən də belədir. Baxın, 2020-ci ildən bəri Koçaryan, Sarkisyan və erməni apostol kilsəsinin Paşinyanı küçə etirazları ilə devirmək cəhdləri uğursuz nəticələnib. Parlament müxalifəti də hökumətə impiçment elan etmək cəhdlərində uğursuzluğa düçar oldu. Onların bütün hərəkətləri sıfır nəticə verdi. Bu, başa düşüləndir – ölkədə indiki hakimiyyəti nəinki istefaya, heç müxalifətlə dialoqa getməyə məcbur edəcək güclü ictimai təzyiq yoxdur. Robik, Serjik və kilsə bunu başa düşürlər. Onlar çox yaxşı xatırlayırlar ki, 2021-ci ilin iyununda keçirilən sonuncu növbədənkənar seçkilərdə cəmi 36 mandat qazana bildilər. Paşinyanın partiyası isə 44 günlük müharibədə məğlubiyyətdən sonra belə, 54 faiz səs və ya parlamentdə 72 yer qazandı. Buna müvafiq olaraq, Paşinyan parlamentdə istənilən qanunu qəbul edə bilər və heç bir şəkildə öz hərəkətlərini məhdudlaşdırmır, birləşmiş müxalifət isə hakimiyyətə təsir etmək üçün heç bir alətə malik deyil".

Müəllif onu olduğunu bildirir ki, əgər gələn bazar günü növbədənkənar seçkilər keçirilsə, "Ermənistan" və "Şərəfim var" daha az səs alacaq.

Onu da bildirək ki, erməni apostol kilsəsinin Şirak yeparxiyasının arxiyepiskopu Mikael Acapaxyan dünən maraqlı açıqlama ilə çıxış edib. O, Ermənistandakı etiraz aksiyalarını kilsənin deyil, Baqrat "srbazan"ın hərəkatı adlandırıb: "Bu hərəkatı bəzi din xadimləri dəstəkləyir, bəziləri bitərəf qalır, bəziləri isə xoş qarşılamır. Deməli, bu, kilsənin hərəkatı deyil".

Ancaq Paşinyana yaxın media orqanları bunu blef kimi qiymətləndirirlər. Onlar qeyd edirlər ki, gözlənildiyi kimi, Baqratın "siyasi ölümündən" bir neçə saat əvvəl kilsə "srbazan"la əlaqələri kəsməyə çalışır. II Qareginin və kilsənin hərəkata heç bir aidiyyəti olmadığını iddia edir və bununla da bütün məsuliyyəti Baqratın üzərinə atmağa çalışırlar. Bu blef, əlbəttə ki, keçməyəcək. İstər II Qaregin, istərsə də bu prosesi təhrik edən digər qondarma ruhanilər bişirdikləri "sıyığı" son qaşığınadək yemək məcburiyyətində qalacaqlar. Baqratdan imtina onları xilas etməyəcək.

Axşama doğru İrəvanın mərkəzindəki Baqramyan prospekti ilə Dəmirçyan küçəsinin kəsişməsində vəziyyət gərginləşib. Parlamentin binası qarşısında polislə etirazçılar arasında qarşıdurma yaşanıb. Keşişin tərəfdarları qanunverici orqanın binası yaxınlığında polislərin müdafiə səddini yarmağa çalışıblar. Polis isə etirazçıları xüsusi vasitələrlə və fiziki gücün tətbiqi ilə hədələyib. Onlar qadın və uşaqları ərazini tərk etməyə çağırıblar, çünki xüsusi vasitələrdən istifadə oluna bilər. Bu zaman etirazçılar asayiş keşikçilərinə butulka atıblar. Polis rezin dəyənəklərdən istifadə edib. Baqrat etirazçıları parlamentin binasına giriş-çıxışı bağlamağa çağırıb ki, baş nazir oranı tərk edə bilməsin.

Buna paralel olaraq parlament binası daxilində də vəziyyət gərginləşib. Baş nazir müxalifət deputatlarına cavab verərkən qışqırmağa başlayıb, qollarını yelləyərək bəyan edib ki, müxalifətin məqsədi Ermənistanı yeparxiyaya çevirməkdir. "Sizin üçün Qarabağ əhalisi mitinqlər üçün materialdır" – deyə Paşinyan əsəbi şəkildə bildirib. Onun bu cavabı hakim fraksiyanın deputatları tərəfindən alqışla qarşılanıb.

Ermənistan paytaxtında gərginlik günün sonunadək davam edib.

*Səxavət HƏMİD*
*XQ*

# Kim nə dərəcədə haqlıdır: faktlar, arqumentlər...

(əvvəli 1-ci səhifədə)

Bundan bir qədər sonra, yanvarın 31-də Ermənistanın İctimai radiosuna müsahibəsində Paşinyan vəziyyətin ağırlığını metaforik formada izah edərək söyləmişdi ki, mövcud konstitusiya qırmızı paltar geyinərək "düşmən qonşuları", yəni Azərbaycan və Türkiyəni təhrik etmək kimidir. Xatırladaq ki, Ermənistanın 1990-cı ildə qəbul etdiyi Müstəqillik bəyannaməsində Ankaraya qarşı ərazi iddiaları barədə müddəa var. Bütün bunlara baxmayaraq, İrəvanın bu məsələ ilə bağlı rəsmi mövqeyi konstitusiyasındakı "miatsum" müddəasının ləğvi prosesini sürətləndirmək deyil, onu bir qədər ləngitmək və ikitərəfli danışıqlarda təsirini azaltmaq yolunu tutub.

Beləliklə, Ermənistanın dedikləri dörd "arqument"ə əsaslanır.

**Birinci arqument:** konstitusiyaya dəyişiklik və əlavələr etmək və ya yeni konstitusiyanın qəbulu ölkənin daxili işlərinə aiddir. İlkin ideya 2018-ci ildə yaranıb, amma yaranmış şəraitə görə, onun həyata keçirilməsi üçün heç bir real addım atılmayıb.

**İkinci arqument:** bu məsələ Azərbaycan–Ermənistan sülh prosesinin tərkib hissəsi deyil və Bakının bununla bağlı tələbləri İrəvanın daxili işlərinə müdaxilədir.

**Üçüncü arqument:** İrəvan iddia edir ki, ölkələr sülh müqaviləsinin mətnini razılaşdırdıqlarına görə, tərəflərdən heç biri saziş üzrə öhdəlikləri ləğv etmək üçün özünün daxili qanunvericiliyinə müraciət edə bilməz və Bakının belə bir tələbi lüzumsuz hesab olunur.

**Dördüncü arqument:** Ermənistan rəhbərliyi bu yaxınlarda yeni əks-arqumentlə çıxış edib. Rəsmi İrəvanın iddiasına görə, Azərbaycan Konstitusiyasında da qonşusuna qarşı ərazi iddiaları var. Aydın məsələdir ki, Azərbaycanın bütün bu "arqumentlər"ə tutarlı cavabları var. Gəlin onları bir-bir nəzərdən keçirək.

**Birincisi,** Ermənistan konstitusiyası, prinsip etibarı ilə, onun daxili işidir. Amma əgər bir ölkənin qanunvericiliyində qonşusuna qarşı ərazi iddiaları olduqda, sonuncunun həmin müddəaların aradan qaldırılmasını tələb etmək hüququ var. Ələlxüsus da, bu iki ölkə uzunömürlü münaqişəyə son qoyacaq sülh müqaviləsini imzalamaq niyyətindədirsə, tərəflər ərazi bütövlüyü və suverenliyinin qarşılıqlı tanınması prinsipinə əməl etməlidirlər.

**İkincisi,** Ermənistanda konstitusiyaya dəyişikliklə bağlı referendumun necə keçiriləcəyi Bakını maraqlandırmır. Əsas odur ki, onun qanunvericiliyində Azərbaycanın suverenliyinə kölgə sala biləcək heç nə qalmasın.

**Üçüncüsü,** sülh sazişinin mətninə daxili qanunvericiliyə istinadın göstərilmədiyi bəndin daxil edilməsi vacibdir, fəqət, bu, kifayət deyil.

Həqiqətən də, Müqavilələr Hüququ haqqında Vyana Konvensiyasının 27-ci maddəsində deyilir ki, "tərəflərdən biri müqaviləni yerinə yetirməməsi üçün əsas kimi öz daxili qanunvericiliyinin müddəalarına istinad edə bilməz".

***

Yuxarıda deyilənlərə əsaslanaraq belə bir nəticəyə gəlmək olar ki, müqavilənin ratifikasiyasından sonra bu məsələyə son qoyulmalıdır. İntəhası, məsələ göründüyü qədər sadə deyil. Gəlin, sülhə mümkün maneələrə baxaq. Əvvəla, Ermənistanda sülh sazişinin ratifikasiyasında ortaya problem çıxa bilər. Bu ölkənin konstitusiyasının 116-cı maddəsində deyilir ki, "Konstitusiyaya zidd olan beynəlxalq müqavilələr ratifikasiya edilə bilməz". Fərz edək ki, İrəvan bu maneəni də dəf edir, yəni, Konstitusiya Məhkəməsinin hakimləri 1990-cı il Müstəqillik bəyannaməsinin müddəalarına baxmayaraq, sazişi imzalayır, parlament isə ratifikasiyanı başa çatdırır.

Bu halda, Paşinyan və ya onun yerini tutanlar belə bir razılaşmanın Ermənistan konstitusiyasına zidd olduğunu şübhə altına ala bilərmi? Cavab budur ki, bəli, onlar bunu edə bilərlər. Çünki hayların Qarabağ məsələsində üç onillik "zehni gimnastika"sını və Alma-Ata Bəyannaməsi ilə saxtakarlıqlarını nəzərə alsaq, heç nəyi istisna etmək olmaz.

Həmin Vyana Konvensiyasının 46.1-ci maddəsində deyilir: "Dövlət müqavilənin bağlanmasına razılığını daxili qanunvericiliyin müqavilələr bağlamaq səlahiyyəti ilə bağlı müddəasının pozulması ilə ifadə edilməsi faktını etibarsızlığı kimi əsaslandıra bilməz". Gələcəkdə Paşinyanı əvəz edən kimsə Ermənistan hökumətinin müqaviləyə əməl etməyə razılaşmaqla bəzi daxili qaydaların açıq-aşkar pozulduğunu iddia edə bilərmi? Xüsusilə onu da nəzərə alsaq ki, hazırda müxalifətdə olanların çoxu Paşinyanın "təslim aktı"nı imzalamaq hüququna malik olmadığını iddia edir.



Əslində, Vyana Konvensiyasında revanşistlərin sülh müqaviləsinin etibarlılığını şübhə altına almaq üçün arxalana biləcəyi digər maddələr də var. Məsələn, 50-ci maddədə deyilir: "Əgər dövlətin müqavilə ilə bağlı razılığının olması danışıqlarda iştirak edən digər dövlət tərəfindən onun nümayəndəsinin birbaşa və ya dolayı yolla rüşvət alması nəticəsində ifadə edilibsə, onda birinci dövlətin bu cür rüşvətxorluğu müqavilə üzrə razılaşmanın etibarsızlığı üçün əsas kimi göstərilir". Sözümüzün canı ondan ibarətdir ki, hazırda Nikol Paşinyanın daxili bədxahlarının onu təhqiramiz şəkildə "türk nökəri" adlandırmasını, legitimliyini şübhə altına almasını və Ermənistanı "qeyri-qanuni yollarla satmaq niyyətində olan xain" deməsini nəzərə alsaq, müxalifət nəyəsə nail ola bilməzmi? İndiki hakimiyyəti devirəndən və ya onu seçkilərdə əvəz edəndən sonra həmin qüvvələr hansısa uydurma bəhanələrlə Azərbaycanla bağlanmış sülh müqaviləsinin etibarlılığını şübhə altına almazmı? Bunlar nəzərə alınması vacib sayılan suallardır.

Qoyduğumuz sualların cavabı budur ki, heç nəyi istisna edə bilmərik. Doğrudan da, əgər İrəvan Bakı ilə bu cür davranmaq qərarına gələrsə, o zaman beynəlxalq ictimaiyyətin gözündə səfeh və son dərəcə ağılsız vəziyyətə düşəcək. Belə bir "strateji kurs" bu ölkənin, Paşinyanın hakimiyyəti dövrü daxil olmaqla, son 30 ildə yürütdüyü avantürist xarici siyasət proqramı olub.

***

Rəsmi İrəvanın ölkə qanunvericiliyindən irəli gələn problemlərin tez bir zamanda həll edilməsində barışmazlığının dördüncü elementi xarici işlər naziri Ararat Mirzoyan bu yaxınlarda səsləndirdiyi "Azərbaycan Konstitusiyasında Ermənistana bağlı ərazi iddiaları təşkil edə biləcək müddəalar var" tezisidir.

Bu barədə artıq kifayət qədər şərh və açıqlamalar səsləndiyinə görə qısaca onu deyək ki, Ermənistan ikitərəfli danışıqlarda bir sıra səbəblərdən, o cümlədən, inandırıcı görünmək üçün özünün konstitusiyası ilə Azərbaycan Konstitusiyası arasında "ekvivalentlik" yaratmağa çalışır. Amma məsələ burasındadır ki, Azərbaycan Konstitusiyasında "miatsum"un ekvivalenti yoxdur. Həm də bizim qanunvericilikdə dünyanın heç bir dövlətinə, o cümlədən, Ermənistana qarşı ərazi iddialarını uzaqdan belə xatırladan müddəalar mövcud deyil.

Ermənistan Azərbaycan Respublikasının "Dövlət Müstəqilliyinin bərpası haqqında" Konstitusiya Aktının 2-ci maddəsinə əsasən müasir Azərbaycanın müstəqilliyini tanıdığını bildirib. 1918–1920-ci illərdə mövcud olmuş Azərbaycan Xalq Cümhuriyyətinin (AXC) varisi olsa da, bu gün Bakı keçmiş AXC-nin 114 min kvadratkilometr ərazisinə bütünlüklə iddia edə bilər. Hüquqi arqumentə və Azərbaycan Konstitusiyasında sülh müqaviləsinin bağlanmasına mane olan hər hansı bir şeyin olub-olmaması sualına gəlincə, bu iddia tamamilə əsassızdır. Bakı heç vaxt Konstitusiya Aktının yuxarıda qeyd olunan müddəasının belə şərh edilməsinə əsas verən hər hansı qanunvericilik aktı qəbul etməyib.

***

Bu gün Azərbaycanın Ermənistana qarşı heç bir ərazi iddiası irəli sürmədiyini söyləmək olar. Son üç onillikdə Ermənistan öz konstitusiyasına əsaslanan konkret qanunvericilik aktları qəbul edib ki, bunlardan ən diqqət çəkəni 1992-ci il parlament qərarı olub. Milli məhkəmələr tərəfindən sonradan istinad edilən bütün bu aktlar və rəsmi yazışmalar birlikdə Ermənistanın öz qanunvericiliyi çərçivəsində Qarabağı Azərbaycanın tərkib hissəsi kimi tanımadığını ən bariz şəkildə göstərir. Bu, aydındır. Azərbaycan hazırda həmin qeyri-müəyyənliyin aradan qaldırılmasını tələb edir. Ermənistanın bunu təmin edə bilmədiyi və ya qərar qəbul etmək istəmədiyi daxili problemidir. İrəvan iddia edir ki, bütün bu əlavə və düzəlişlər üçün ümumxalq referendumu tələb olunacaq və bu, müəyyən vaxt aparacaq. Biz onu da başa düşürük ki, elektoratın referendumda Paşinyanın tərəfini tutacağına heç bir zəmanət yoxdur. Ona görə də İrəvan konstitusiya maneələrini dəf etmədən, ən azı, hansısa sövdələşməyə hazır olduğunu nümayiş etdirməkdən çəkinir. Üstəlik, əgər Hayastan elektoratı "miatsum"la qəti şəkildə vidalaşmağa hələ hazır deyilsə, bəlkə də gözləməyə, Paşinyana cəmiyyəti davamlı və uzunmüddətli sülhə hazırlayaraq bütün prosedurlardan keçmək imkanı verməyə dəyər? Bəs, görünən bu qəribə tələskənliyin arxasında nə dayanır? Maraqlı sualdır. Azərbaycan XİN bu yaxınlarda bəyan etdi ki, Ermənistanın gizli gündəliyi var. Yuxarıda təsvir etdiyimiz siyasi mənzərəyə əsasən, belə bir gizli plan, həqiqətən də, ola bilər".

*Təqdim etdi:*
*İ.HƏSƏNQALA*

# Azərbaycan qlobal enerji təhlükəsizliyinə önəmli töhfə verir

## “Mavi yanacağ”ın Avropaya ixracı 10 faizdən çox artıb

**Cari ilin 5 ayı ərzində respublikamızda 3,5 faiz artımla 20,9 milyard kubmetr “mavi yanacaq” hasil edilib. Ümumi hasilatın 5,4 milyard kubmetri “Azəri–Çıraq–Günəşli”, 11,6 milyard kubmetri “Şahdəniz”, 0,65 milyard kubmetri “Abşeron” və 3,2 milyard kubmetri SOCAR-ın payına düşüb.**

Energetika Nazirliyindən aldığımız məlumatda bildirilir ki, cari ilin 5 ayı ərzində xaricə qaz satışı 10,6 milyard kubmetr təşkil edib. Bu, ötən ilin müvafiq dövrü ilə müqayisədə 3,4 faiz çoxdur. Avropaya 5,3 milyard kubmetr, Türkiyəyə 4,1 milyard kubmetr, Gürcüstana isə 1,2 milyard kubmetr qaz satılıb. Türkiyəyə TANAP-la bu müddətdə 2,3 milyard kubmetr qaz nəql olunub.

“Azəri–Çıraq–Günəşli” (AÇG) və “Şahdəniz” yataqları istismara veriləndən cari il iyunun 1-dək “Azəri–Çıraq–Günəşli”dən 221,8 milyard kubmetr, “Şahdəniz”dən isə 220,6 milyard kubmetr qaz hasil edilib. Bu dövrdə “Şahdəniz” yatağından hasil edilən qazın 157 milyard kubmetri ixraca yönəldilib.

AÇG yatağının fəaliyyətinə gəldikdə isə onu deyə bilərik ki, ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə 1994-cü il sentyabrın 20-də Azərbaycanın XX əsr tarixində siyasi, iqtisadi və strateji əhəmiyyətinə görə ən mühüm müqavilələrdən biri – Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən “Azəri”, “Çıraq” neft yataqlarının və “Günəşli” neft yatağının bir hissəsinin müştərək işlənməsi və hasilatın pay bölgüsü haqqında sazişlə – “Əsrin müqaviləsi” ilə dövlətimizin yeni neft siyasətinin təməli qoyulub. Bundan 23 il sonra, 2017-ci il sentyabrın 14-də isə həmin yataqların birgə istismarına və hasilatın pay bölgüsünə dair yeni saziş imzalanıb. Bu sazişlə yataqların 2049-cu ilin sonunadək işlənməsi nəzərdə tutulub.

Dəyəri 7,4 milyard dollar olan “Əsrin müqaviləsi”nə dünyanın 7 ölkəsini (Azərbaycan, ABŞ, Böyük Britaniya, Rusiya, Türkiyə, Norveç və Səudiyyə Ərəbistanı) təmsil edən 11 beynəlxalq neft şirkəti (Amoco, BP, McDermott, UNOCAL, ARDNŞ, Lukoil, Statoil, Türkiyə Petrolları, Pennzoil, Ramco, Delta) qoşulub. Həmin şirkətlər tərəfindən qısa bir vaxt ərzində işçi strukturlar – Rəhbər Komitə, Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti (ABƏŞ) və Məsləhət Şurası yaradılıb. Saziş 1994-cü il dekabrın 12-də Azərbaycan parlamentində ratifikasiya olunub. Yeri gəlmişkən, “Əsrin müqaviləsi”ndən sonra 19 ölkəni təmsil edən 41 neft şirkəti ilə daha 26 saziş imzalanıb.

İlkin hesablamalara görə, “Azəri”, “Çıraq” yataqlarının və “Günəşli” yatağının dərinlikdə yerləşən hissəsində çıxarıla bilən neft ehtiyatı 511 milyon ton olsa da, sonralar yeni qiymətləndirmələrə əsasən, neft ehtiyatı 1,072 milyard ton həcmində müəyyənləşdirilib.

2017-ci il sentyabrın 14-də Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə Bakıda Xəzər dənizinin Azərbaycan sektorundakı “Azəri”, “Çıraq” yataqlarının və “Günəşli” yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və neft hasilatının pay bölgüsü haqqında düzəliş edilib və yenidən tərtib olunmuş sazişin imzalanması mərasimi keçirilib. Saziş Azərbaycan Hökumətinin, SOCAR-ın, BP, “Chevron”, “Inpex”, “Statoil”, “ExxonMobil”, “TP”, “Itochu” və “ONGC Videsh” şirkətlərinin rəsmiləri tərəfindən imzalanıb. Sənədə əsasən BP layihənin operatoru olaraq qalıb. Saziş Milli Məclis tərəfindən həmin ilin oktyabrın 31-də ratifikasiya olunub. Beləliklə, həmin tarix ölkəmizin həyatına çox əlamətdar bir gün kimi yazılıb, “Azəri–Çıraq–Günəşli” nəhəng neft yatağının işlənilməsində yeni dövr başlanılıb.

Sazişin bir hissəsi olaraq SOCAR-ın “Azəri–Çıraq–Günəşli” yatağındakı iştirak payı 11,65 faizdən 25 faizə qaldırılıb və beynəlxalq tərəfdaş şirkətlərin Dövlət Neft Fonduna 3,6 milyard dollar bonus ödəyəcəkləri qərara alınıb. Azərbaycana çatacaq mənfəət neftinin səviyyəsinin isə 75 faiz təşkil edəcəyi nəzərdə tutulub. Bununla da ölkəmizin ümumi mənfəət göstəricisi 89,1 faiz hesablanıb ki, bu da gələcəkdə yeni strateji layihələrə başlamağa zəmin yaratmaq demək idi.

“BP-Azərbaycan” şirkətinin məlumatına görə, 2024-cü ilin birinci rübündə isə “Şahdəniz” layihəsinin əməliyyat tədbirlərinə 719 milyon dollar, əsaslı məsrəflərinə isə 201 milyon dollar xərclənib. Həmin vəsaitin isə böyük əksəriyyəti hazırda fəal işlənmə mərhələsində olan “Şahdəniz-2” layihəsinə sərf olunub.

Məlumatda bildirilir ki, həmin dövr ərzində qazın “Şahdəniz” yatağından Azərbaycan (“Azərkontrakt” ASC-yə), Gürcüstan (GOGC şirkətinə) və Türkiyə (BOTAŞ şirkətinə) bazarlarına, çoxsaylı obyektlər üçün BTC şirkətinə, eləcə də Avropadakı alıcılara çatdırılması davam etdirilib.

Zəngin qaz və kondensat ehtiyatlarına görə seçilən “Şahdəniz” yatağında ötən müddətdə iki hasilat platforması quraşdırılaraq istismara verilib. Hazırda həmin qurğuların gündəlik hasilat gücü təxminən 79,5 milyon (ildə 29 milyard kubmetr) kubmetr təşkil edir. Bu ilin birinci rübündə “Şahdəniz Alfa” və “Şahdəniz Bravo” adlı platformalardan, ümumilikdə, təqribən 7 milyard kubmetr qaz və 1 milyon ton kondensat çıxarılıb.

Məlum olduğu kimi, layihə səhmdarlarının yekdil qərarına əsasən, “Şahdəniz” yatağının bir neçə mərhələdə işlənməsi qərara alınıb. Xatırladaq ki, birinci işlənmə mərhələsi çərçivəsində tikinti-quraşdırma işlərinə 2003-cü ilin əvvəllərində, hasilata isə 2006-cı ilin sonlarında başlanılıb.



Yatağın ikinci işlənmə mərhələsi isə genişliyi və əhatəliyi baxımından seçilir. Belə ki, hazırda “Şahdəniz-2” layihəsi çərçivəsində ilk dəfə olaraq Xəzər dənizində yatağın sualtı işlənməsi texnologiyası tətbiq olunur ki, bu da BP şirkətinin dünya üzrə operatoru olduğu ən iri sualtı infrasrukturdur. Təxminən 28 milyard ABŞ dolları həcmində investisiya qoyulmuş bu layihə, ümumilikdə, planlaşdırılmış ən azı 26 sualtı quyudan, bir-birinə körpü ilə birləşdirilmiş iki platformadan, 500 kilometr uzunluğunda sualtı boru kəmərləri və axın xətlərindən, Səngəçal terminalında əsaslı genişləndirmə işlərindən ibarətdir. Layihənin detallarına, həmçinin Azərbaycan ərazisində 428 kilometr, Gürcüstan ərazisində isə 59 kilometr uzunluğunda yeni boru kəmərləri və iki yeni kompressor stansiyası, eləcə də Cənubi Qafqaz boru kəmərinin (CQBK) genişləndirilməsi daxildir.

“Şahdəniz” yatağının ikinci işlənmə mərhələsində qaz hasilatına 2018-ci ilin iyul ayının 30-da başlanılıb. Həmin gün yatağın şimal cinahındakı “SDC03Z” quyusunun istismara verilməsi ilə “Şahdəniz Bravo” platformasından ilk qaz əldə olunub. Sonrakı illərdə yeni quyuların istismara daxil edilməsi ilə hasilatda artım başlanıb. 2022-ci ildə isə “Şahdəniz-2” layihəsi çərçivəsində daha bir uğura imza atan konsorsium iştirakçıları tərəfindən yatağın qərb-cənub cinahı da işlənməyə daxil edilib.

Azərbaycanda hasil edilən qaz həcminin bundan sonra da artacağı gözlənilir. Bu, “Abşeron” yatağında qaz hasilatının 2024-cü ilin sonuna kimi pik həddə çatacağı proqnozuna əsaslanır. SOCAR-dan məlumatına görə, Xəzər dənizindəki “Abşeron” yatağından cari il ərzində qaz hasilatının 1,5 milyard kubmetr və 523 min ton kondensat hasil ediləcəyi gözlənilir. Ümumilikdə, bu yataqdan hasilat başlanandan bu il mayın 1-nə kimi 1,2 milyard kubmetr qaz və 484 min ton kondensat hasil edilib.

Energetika Nazirliyinin məlumatında isə bildirilir ki, 2023-cü ildə “Abşeron” yatağından 0,8 milyard kubmetr təbii qaz və 0,3 milyon ton kondensat hasil edilib. Belə ki, 2024-cü ildə bu yataqdan qaz hasilatı 87,5 faiz, kondensat hasilatı 74,3 faiz artacaq.

Qeyd edək ki, 2023-cü il iyulun 10-da “TotalEnergies” və Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) tərəfindən “Abşeron” yatağının işlənməsinin birinci mərhələsi çərçivəsində qaz və kondensat hasilatına başladığını elan edilib. Qaz Azərbaycanın daxili bazarı üçün nəzərdə tutulub. Xatırladaq ki, ilkin mərhələdə yataqdan ildə təxminən 1,5 milyard kubmetr, gələcəkdə isə 5 milyard kubmetr təbii qaz hasil ediləcək.

Qeyd edək ki, “Abşeron” yatağı Azərbaycan geoloqları tərəfindən 1960-cı illərdə kəşf edilib. Yataqda qaz həcminin 350 milyard kubmetr olduğu bildirilir. Bu, Xəzər dənizində “Şahdəniz” yatağından sonra ikinci ən böyük qaz yatağıdır.

Sonda xatırladaq ki, ölkənin qaz hasilatında artım qeydə alınması “mavi yanacağ”ın Avropaya ixracına müsbət təsir göstərib. Energetika Nazirliyinin operativ məlumatına görə, cari ilin yanvar-may aylarında ölkəmiz Avropaya 5,3 milyard kubmetr təbii qaz (2023-cü ilin eyni dövrü ilə müqayisədə 0,5 milyard kubmetr və ya 10,4 faiz çox) ixrac edib. Ümumilikdə isə ötən 5 ay ərzində Azərbaycandan xaricə qaz satışı 10,6 milyard kubmetrə (ötən ilin müvafiq dövrü ilə müqayisədə 3,4 faiz çox) çatıb.

Qeyd edək ki, hazırda Azərbaycan qazının Avropanın cənubuna nəql olunduğu Cənub Qaz Dəhlizinin Avropa hissəsi olan Trans-Adriatik Qaz Boru Kəmərinin (TAP) ötürücülük qabiliyyəti ildə 12 milyard kubmetrə yüksəlib.

TAP-ın tikintisi 2020-ci ilin oktyabrında başa çatıb. Kəmərin ümumi uzunluğu 878 kilometrdir ki, bunun da 550 kilometri Yunanıstanın şimal hissəsindən, 215 kilometri Albaniya ərazisindən, 105 kilometri Adriatik dənizinin dibi ilə, 8 kilometri isə İtaliya ərazisindən keçir.

Azərbaycan qazının TAP vasitəsilə İtaliya, Yunanıstan və Bolqarıstandakı istehlakçılara tədarükü 2020-ci il dekabrın 31-dən başlayıb.

# 5 ayda 74 milyon manat ƏDV qaytarılıb

**2024-cü ilin yanvar–may ayları ərzində pərakəndə ticarət və iaşə obyektlərindən alınmış mallara (neft və qaz məhsulları, avtomobillər, alkoqollu içkilər və tütün məmulatları istisna olmaqla), eləcə də səhiyyə müəssisələri və özəl tibbi praktika ilə məşğul olan fiziki şəxslər tərəfindən göstərilən xidmətlərə görə ödənilmiş ƏDV-nin 74 milyon manatı fiziki şəxs olan istehlakçılara geri qaytarılıb.**

Dövlət Vergi Xidmətinin yaydığı məlumatda bildirilir ki, “ƏDV geri al” layihəsinin reallaşdırılması nəticəsində pərakəndə ticarət, iaşə və tibb xidmətləri sahələrində nağdsız ödəmələrin xüsusi çəkisi əhəmiyyətli şəkildə yüksəlib.

Bundan başqa, ölkə ərazisində bina tikintisi fəaliyyəti ilə məşğul olan şəxslərdən nağdsız qaydada alınmış yaşayış və qeyri-yaşayış sahələrinə görə ödənilmiş ƏDV-nin “ƏDV geri al” layihəsi çərçivəsində qaytarılan həcmi yanvar-may aylarında 8 milyon 169,2 milyon manat təşkil edib.



# SOCAR – 601 yanacaqdoldurma məntəqəsi

**SOCAR indiyədək Azərbaycanda və xarici ölkələrdə “SOCAR” brendi ilə 601 yanacaqdoldurma məntəqəsi açıb.**




SOCAR-dan verilən məlumata əsasən, respublikamızda Dövlət Neft Şirkətinin 60 yanacaqdoldurma məntəqəsi və 13 neft bazası var. Qalan 541 yanacaqdoldurma məntəqəsi isə 6 ölkədə fəaliyyət göstərir. Eyni zamanda, Gürcüstanda “SOCAR” brendi ilə istifadədə olan 107 yanacaqdoldurma məntəqəsinin 15-də elektromobillər üçün enerji doldurma məntəqələri var. Şirkət Türkiyədə 14, Ukraynada 56, Rumıniyada 75 yanacaqdoldurma məntəqəsi açıb.

İsveçrə və Avstriyada “SOCAR” brendi altında 289 yanacaqdoldurma məntəqəsi və 8 elektromobil enerji doldurma məntəqəsi fəaliyyət göstərir.

# 3 ölkənin birgə dəmir yolu müəssisəsi yaradılır

**Yaxın günlərdə Azərbaycan, Gürcüstan və Qazaxıstan dəmir yollarının birgə müəssisəsi açılacaq. “Azərbaycan Dəmir Yolları”, “Qazaxıstan Dəmir Yolları Milli Şirkəti” və “Gürcüstan Dəmir Yolları”nın birgə yaratdığı “Middle Corridor Multimodal Ltd.” şirkəti artıq fəaliyyətə başlamaq üzrədir.**

ADY-nin kommersiya departamentinin müdiri Məmməd Həmidov mediaya məlumatında “Translogistica Caspian” sərgisi çərçivəsində keçirilən “Orta Dəhliz: perspektivlər və çağırışlar” adlı panel müzakirələrində bildirib ki, müəssisənin fəaliyyəti nəticəsində 2025-ci ilin əvvəlinə yük axınının yaranacağı gözlənilir: “Orta Dəhlizdə multimodal xidmətin inkişafı üçün 3 ölkənin dəmiryolçuları səylərini birləşdiriblər. Bu fəaliyyət “bir pəncərə” prinsipi ilə xidmətlərin göstərilməsinə şərait yaradacaq. Həmçinin yüklərin çatdırılma müddətinə zəmanət veriləcək”.

Xatırladaq ki, Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu Çin, Qazaxıstan, Xəzər dənizi, Azərbaycan, Gürcüstan ərazisindən keçərək Türkiyə və Avropa ölkələrinə qədər uzanan beynəlxalq nəqliyyat dəhlizidir.

**Taxıl biçini**

# Torpağa düşməsin havayı bir dən...

**Kənd Təsərrüfatı Nazirliyində taxıl biçininin təşkili ilə bağlı yaradılmış operativ qərargahın yaydığı məlumata görə, ölkəmizin payızlıq əkin sahələrinin 13 faizində biçin başa çatıb.**



Məlumata görə, bu günə qədər 131 min 814 hektar sahədə biçin aparılıb. Sahələrdən 373 min 897 ton arpa, 7 min 905 ton buğda yığılıb. Arpa sahələrinin 31 faizində, buğda sahələrinin isə 0,4 faizində biçin yekunlaşıb. Hazırda orta məhsuldarlıq arpa üzrə 28,9 sentner, buğda üzrə isə 31,8 sentner təşkil edir.

İyunun 11-də respublika üzrə biçin prosesində 1203 kombayn iştirak edib. Bunlardan 674 kombayn fiziki və hüquqi şəxslərin özəl mülkiyyətində olan kombaynlardır. “Aqroservis” ASC taxıl biçininə 529 kombayn cəlb edib. Ümumilikdə “Aqroservis” bu mövsüm taxıl biçininə 656 kombayn cəlb etməyi planlaşdırır. Kütləvi biçin prosesində 1803 kombaynın iştirak edəcəyi gözlənilir.

“Aqroservis”in kombaynları dislokasiya planı üzrə ilkin mərhələdə 5 hektaradək olan kiçik sahələrdə biçin aparır. Sosial biçin prosesi növbəlilik prinsipi əsasında həyata keçirilir.

Respublikanın ən iri taxılçılıq rayonlarından olan Şəkidə də arpa biçininə başlanılıb. Rayonun Şorsu, Kiçik Dəhnə, Böyük Dəhnə, Şəkikənd, Cumakənd, Suçma və digər kəndlərin ərazilərindəki təsərrüfatlarda ilk günlər 2 min 768 hektar sahənin arpası biçilib, 7 min 225 ton məhsul tədarük olunub. Hər hektardan orta məhsuldarlıq 26,1 sentnerə çatdırılıb.

Kənd Təsərrüfatı Nazirliyinin məlumatına əsasən, cari mövsümdə Şəkidə 58 min 236,1 hektar taxıl sahəsinin məhsulunun biçilməsi nəzərdə tutulur. Taxıl əkinlərinin 24 min 63,7 hektarını buğda, 34 min 172,4 hektarını dən üçün arpa sahələri təşkil edir. Taxıl biçininin mütəşəkkil şəkildə keçirilməsini təmin etmək üçün Şəki Dövlət Aqrar İnkişaf Mərkəzində xüsusi qərargah da yaradılıb, tədbirlər planı təsdiq olunub. Ümumilikdə, biçin kampaniyasına 112 ədəd taxılbiçən kombayn, 90 ədəd küləşpresləyən aqreqat, 334 ədəd şum traktoru, 150-dən çox yük maşını, 100-dək traktor yedəyi və digər texnikalar, həmçinin yanğınsöndürən və su maşınları cəlb olunub. Kampaniya dövründə ehtiyac yaranarsa, biçini başa çatdırmış rayonlardan 50-dən çox kombaynın dislokasiya olunması da nəzərdə tutulub.

Yeri gəlmişkən, ölkədə əvvəlki dövrlərdə olduğu kimi, cari mövsümdə də taxıl biçininə ciddi hazırlıq işləri görülüb. Kənd Təsərrüfatı Nazirliyinə məxsus “Aqroservis” ASC tərəfindən mexanizatorlarla görüşlər təşkil edilib. İlk görüş Yevlax və Şəki rayonlarında keçirilib. Tədbirdə cari ildə taxıl biçinini itkisiz və mütəşəkkil həyata keçirmək üçün zəruri tapşırıqlar verilib. Görüşlərdə biçin zamanı qarşıya çıxa biləcək çətinliklər, onların həlli yolları müzakirə edilib və mexanizatorların təklifləri dinlənilib.

Ənənəvi təlimlərin əsas məqsədi taxıl biçininin itkisiz və mütəşəkkil həyata keçirilməsi, mexanizatorlar tərəfindən texnikaların idarə edilməsi, kombaynlara texniki xidmətin göstərilməsi, istismar zamanı baş verə biləcək nasazlıqların aradan qaldırılması və təhlükəsizlik qaydalarına düzgün riayət olunması ilə bağlı onların bilik və bacarıqlarının artırılması olub.

Qeyd edək ki, ötən 20 il ərzində ölkədə taxılçılığın inkişafı diqqət mərkəzində saxlanılıb. Bu sahədə mühüm islahatlar həyata keçirilib. Əhalinin ərzaq təhlükəsizliyinin təminatında əsas strateji sahə olan taxılçılığın, o cümlədən buğda istehsalının sürətli inkişafı ilə əlaqədar müxtəlif normativ-hüquqi aktlar imzalanıb, bu məsələyə dövlət proqramları və hökumət strategiyalarında da geniş yer verilib. Eyni zamanda, Prezident İlham Əliyevin 2021-ci il 7 oktyabr tarixli fərmanı əsasında Dövlət Ehtiyatları Agentliyi publik hüquqi şəxsi yaradılıb. Bu quruma ölkəni strateji əhəmiyyətli mallarla, o cümlədən ərzaqlıq buğda ilə təchizatının dayanıqlılığını gerçəkləşdirmək və daxili bazarda qısamüddətli kəskin qiymət dəyişmələrinin qarşısını almaq istiqamətində mühüm vəzifələr tapşırılıb.

Bütün bunlarla bərabər, respublikada ərzaqlıq buğda ilə özünütəminetmə səviyyəsinin yüksəldilməsi, habelə ərzaqlıq buğda istehsalının təşkili məqsədilə dövlət başçısının müvafiq fərmanına əsasən, ərzaqlıq buğdaya 2023-cü ildən etibarən 5 il müddətində məhsul subsidiyasının verilməsinə başlanılıb.

Aqrar sığorta sisteminin təşkili, inkişafı və dayanıqlılığının təmin edilməsi məqsədilə 2019-cu ildə Prezident İlham Əliyevin müvafiq fərmanı ilə Aqrar Sığorta Fondu təsis edilib və “Aqrar sığorta haqqında” Qanun qəbul olunub. Bununla da taxılçılıq məhsullarının sığortalanmasına başlanılıb.

İşğaldan azad edilən Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarına məxsus ərazilərin əkin dövriyyəsinə cəlb edilməsi məsələsinə də xüsusi önəm verilib. Vətən müharibəsi parlaq qələbəmizlə başa çatandan sonra Prezident İlham Əliyevin ilk tapşırıqlarından biri məhz düşməndən təmizlənən torpaqlarda kənd təsərrüfatının inkişaf etdirilməsi olub. Bunun üçün 200 min hektardan çox torpaq sahəsinin əkin üçün istifadə ediləcəyi nəzərdə tutulub.

*Hazırladılar:*
*Vaqif BAYRAMOV,*
*Mirbağır YAQUBZADƏ*
*XQ*



# Milli Məclisin Sədri Belarusdakı səfirliyimizdə

**Milli Məclisin Sədri Sahibə Qafarova Belarus Respublikasına rəsmi səfəri çərçivəsində Azərbaycanın bu ölkədəki səfirliyində olub.**

Parlamentin mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən redaksiyamıza bildirilib ki, Sahibə Qafarova və parlament nümayəndə heyətinin üzvləri əvvəlcə səfirlikdə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin büstünün önünə gül dəstələri düzüblər.

Sonra Sahibə Qafarova səfirliyin əməkdaşları ilə diplomatik nümayəndəliyimizin fəaliyyəti barədə söhbət edib, onlar üçün yaradılmış şəraitlə tanış olub.

**XQ**

# “Sahillər təmiz qalsın”



**IDEA İctimai Birliyinin təşəbbüsü ilə “Yaşıl dünya naminə həmrəylik ili” çərçivəsində çimərlik mövsümünün başlanması ilə əlaqədar ənənəvi sahilyanı təmizlik aksiyası keçirilib.**

İyunun 12-də Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Milli Olimpiya Komitəsi, Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqı, “Təmiz Şəhər” ASC-nin birgə təşkilatçılığı ilə keçirilən aksiya Ümumdünya Ətraf Mühitin Mühafizəsi Gününə həsr olunub.

Şüvəlan qəsəbəsindəki ictimai çimərlikdə təşkil olunmuş təmizlik aksiyasında 200 könüllü gəncin və Milli Olimpiya Komitəsinin atletlərinin iştirakı ilə 2 tona yaxın tullantı toplanılaraq Balaxanı bərk məişət tullantılarının çeşidlənməsi zavoduna təhvil verilib.

Təmizlik aksiyasının keçirilməsində məqsəd dəniz sahillərində təmizliyə riayət olunmasını təbliğ etmək, sahilyanı ərazilərin məişət tullantıları ilə zibillənməsinin qarşısını almaq və gəncləri dəniz ətraf mühitinin mühafizəsi sahəsində mübarizəyə cəlb etməkdir.

IDEA İctimai Birliyi yerli və beynəlxalq tərəfdaşlarla birgə mütəmadi olaraq Azərbaycan və regionun su bioresurslarının qorunub saxlanılması, artırılması və mühafizəsi məqsədilə Xəzər sahillərində, Kür və digər çaylarda təmizlik aksiyaları təşkil edir.

**XQ**

# Bonnda COP29 təqdimatı



**İyunun 12-də Bonn şəhərində BMT-nin İqlim Dəyişmələri Konfransı çərçivəsində COP29 Sədrliyi Fəaliyyət Gündəliyinə daxil olan bəzi təşəbbüslərin təqdimatını keçirib.**

Mərasimdə açılış nitqi ilə çıxış edən xarici işlər nazirinin müavini Yalçın Rəfiyev bu həftənin əvvəlində keçirilmiş COP29 Sədrliyinin vizyon və strategiyası üzrə qeyri-rəsmi məsləhətləşmələrdə iştiraklarına görə nümayəndələrə təşəkkürünü bildirib. O, COP29-un sədrlik təşəbbüslərinin məqsədinin iqlimlə bağlı fəaliyyətlərin inkişafından və vətəndaş fəallığının təşviqindən ibarət olduğunu bildirib.

Nazir müavini qeyd edib ki, COP29-un sədrlik təşəbbüsləri rəsmi danışıqlardan kənarda yaşıl dünya üçün əsl həmrəyliyi gücləndirir. Builki sədrlik təşəbbüsləri əvvəllər başlamış təşəbbüslərin dəyərli mirasına əsaslanır. Sədrlik ümumi məqsədlərimiz üçün bütün səyləri səfərbər etmək üçün təşəbbüslər, maraqlı tərəflər arasında uyğunluq və sinerji yaratmağı hədəfləyir.

Sonra əsas prioritet sahələr üzrə seçilmiş sədrlik təşəbbüsləri təqdim edilib.

**XQ**

# Azərbaycan–Gürcüstan dini əməkdaşlığı

**İyunun 12-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Ramin Məmmədovun rəhbərlik etdiyi nümayəndə heyəti Gürcüstan Patriarxlığında görüş keçirib.**

Bütün Gürcüstan Katalikos-Patriarxının xorepiskopu, mitropolit Teodor ilə görüş zamanı Dövlət Komitəsinin sədri Ramin Məmmədov ölkələrimiz arasındakı dostluq və əməkdaşlıq münasibətlərinə diqqət çəkərək dinlərarası və mədəniyyətlərarası dialoqun əhəmiyyətini vurğulayıb.

Qarşılıqlı əlaqələrin bütün sahələrdə uğurla inkişaf etdiyini deyən mitropolit Teodor bu səfərin əməkdaşlığın daha da dərinləşməsinə xidmət göstərəcəyinə əminliyini bildirib.

Görüşdə din sahəsində əlaqələrin genişləndirilməsi ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Azərbaycan nümayəndə heyəti Tbilisidəki Cümə məscidində də olub. Dövlət Komitəsinin sədri Ramin Məmmədov, Azərbaycanın Gürcüstandakı səfiri Faiq Quliyev və nümayəndə heyətinin üzvləri Gürcüstan Müsəlmanlar İdarəsinin din xadimləri ilə görüşüb, məscidə Azərbaycan dilində nəşr olunmuş “Qurani-Kərim” hədiyyə ediblər.

**XQ**

# Latviyanın Baş prokuroru Azərbaycanda

**Baş prokuror Kamran Əliyevin dəvəti ilə Latviya Respublikasının Baş prokuroru Yuris Stukansın rəhbərlik etdiyi nümayəndə heyəti ölkəmizə işgüzar səfərə gəlib.**



Qonaqları səmimi salamlayan Baş prokuror ölkələrimiz arasında tarixən mövcud olan əlaqələrin uğurla inkişaf etdiyini qeyd edərək hüquqi əməkdaşlığın genişlənməsinin vacibliyini vurğulayıb.

Dəvətə və səmimi qəbula görə təşəkkürünü bildirən Yuris Stukans ölkəmizin dinamik inkişafının canlı şahidi olmaqdan məmnunluğunu bildirib. Qonaq prokurorluq orqanlarımız arasında əlaqələrin inkişaf etdirilməsində maraqlı olduqlarını qeyd edib.

Tərəflər ölkələrimizin tərəfdar çıxdığı beynəlxalq konvensiyalar və təşkilatlar, o cümlədən Avrocast və Beynəlxalq Prokurorlar Assosiasiyası çərçivəsində cinayətkarlığa qarşı mübarizədə hüquq mühafizə orqanlarımız arasında əməkdaşlığın müvəffəqiyyətlə həyata keçirildiyini vurğulayıb.

Görüşdə tərəfləri maraqlandıran bir sıra məsələlər, eləcə də yaxın gələcəkdə Anlaşma Memorandumunun imzalanması müzakirə olunub.

**XQ**

# Azərbaycan–Gürcüstan hərbi informasiya mübadiləsi




**Bakıda Müdafiə Nazirliyinin Şəxsi Heyət Baş İdarəsinin mətbuat xidmətinin və Gürcüstan Müdafiə Nazirliyinin strateji kommunikasiyalar və ictimaiyyətlə əlaqələr departamentinin nümayəndələri arasında görüş keçirilib.**

Nazirliyin mətbuat xidmətindən verilən məlumata görə, görüşdə müdafiə naziri general-polkovnik Zakir Həsənovun müvafiq qərarı ilə təsdiq edilmiş Müdafiə Nazirliyinin Kommunikasiya Strategiyası ilə bağlı ətraflı məlumat verilib, Azərbaycan Ordusunun Qələbəsi ilə nəticələnən 44 günlük Vətən müharibəsi və sonrakı hərbi əməliyyatlar zamanı dezinformasiyalara qarşı aparılan mübarizə tədbirlərindən danışılıb.

Sonra nümayəndə heyətinə Müdafiə Nazirliyi tərəfindən kommunikasiya, o cümlədən media və ictimaiyyətlə əlaqələr sahəsində görülən işlərə bağlı brifinq təqdim edilib.

Görüşdə, həmçinin hər iki ölkə ordusunda strateji kommunikasiya işinin təşkilinə dair ətraflı fikir mübadiləsi aparılıb, hərbi informasiya sahəsində birgə əməkdaşlığın inkişaf perspektivləri müzakirə edilib.

**XQ**

# “Qafqaz qartalı-2024” təlimi başa çatıb

**“Qafqaz Qartalı-2024” beynəlxalq təliminin bağlanışına həsr olunmuş təntənəli mərasim keçirilib.**



Mərasimdə çıxış edənlər keçirilən təlimlərin 3 ölkənin hərbi qulluqçuları arasında təcrübə mübadiləsinin aparılmasına, döyüş hazırlığının yüksəldilməsinə töhfə verdiyini bildirib. Qeyd olunub ki, təlim müddətində xüsusi təyinatlılar qarşıya qoyulan tapşırıqların öhdəsindən layiqincə gəlməyi bacarıb, təlim dostluq, yoldaşlıq və qardaşlıq şəraitində keçirilib.

Sonra təlim zamanı fərqlənmiş hərbi qulluqçulara xatirə hədiyyələri təqdim olunub.

Mərasim təntənəli konsert proqramı ilə başa çatıb.

**XQ**

## Sosial xəbərlər

### DSMF-in “Sosial tərəfdaş” layihəsi

**Dövlət Sosial Müdafiə Fondunun (DSMF) ötən ilin sonlarından icrasına başladığı “Sosial tərəfdaş” layihəsinə artıq 2 minədək xidmət şəbəkəsi olan 200-dən çox şirkət qoşulub.**




Korporativ sosial məsuliyyət nümunəsi olan və bütün bölgələri əhatə edən layihə DSMF-dən pensiya, müavinət, təqaüd, ünvanlı sosial yardım və kompensasiya alan şəxslərə dəstək məqsədi daşıyır.

Onlar layihənin iştirakçısı olan şirkətlərə aid məhsulları alarkən və ya xidmətlərindən istifadə edərkən pensiya və digər sosial ödəniş aldıqları bank kartları ilə nağdsız ödəniş həyata keçirdikdə avtomatik olaraq 2–30 faiz arası endirim tətbiq olunur. Ötən dövrdə həmin şəxslər layihə üzrə nağdsız qaydada ödəniş etdikləri artıq 450 minədək alış-veriş və ya xidmətlərdən istifadə zamanı endirim əldə ediblər.

Layihəyə qoşulan şirkətlər, onların endirim faizləri və yerləşdiyi ünvanlarla DSMF-nin saytındakı (dsmf.gov.az) “Sosial tərəfdaş” bölməsindən məlumat almaq olar.

### Zorakılıq qurbanlarına reabilitasiya xidməti

**Sosial Xidmətlər Agentliyinin müvafiq müəssisəsində fəaliyyət göstərən məişət zorakılığından zərər çəkmiş şəxslərin sosial reabilitasiyası şöbəsində hazırda 15 nəfər şəxsə xidmət göstərilir. Onlardan 8 nəfəri uşaqlardır.**

Fərdi iş planı üzrə və digər aidiyyəti qurumlarla qarşılıqlı əməkdaşlıq şəraitində onların sosial reabilitasiyası və statuslarının bərpası istiqamətində işlər aparılır.

2021-ci ildə fəaliyyətə başlayan şöbədə müasir tələbələrə uyğun şərait yaradılıb. Həmin şəxslərin ilkin tibbi müayinəsi, psixoloji-emosional vəziyyətinin qiymətləndirilməsi, hüquqlarının müdafiəsi, onların mədəni-asudə vaxtının təşkili və s. üçün tədbirlər görülür. Ötən dövrdə burada 23-ü uşaq olan 46 nəfərlə reabilitasiya işi aparılıb.

### Peşə hazırlığı təlimləri

**Dövlət Məşğulluq Agentliyi ötən həftə daha 327 şəxs əmək bazarının tələblərinə uyğun peşələr üzrə kurslara cəlb olunub. Onlardan 178 nəfəri üçün agentliyin Bakı, Gəncə, Göyçay və Qarabağ peşə hazırlığı mərkəzlərində, 149 nəfəri üçün isə özəl tədris müəssisələrində peşə kursları təşkil olunub.**




İşəgötürənlərlə əməkdaşlıq edilməklə təşkil olunan kurslarda müdavimlərə nəzəri və praktiki biliklər tədris olunur. Peşə hazırlığının yekununda kursu uğurla başa vuran şəxslərin işlə təminatına da dəstək göstərilir.

Hazırda agentlik 175 prioritet istiqamət üzrə hazırlıq kursları təşkil edib.

### “Sevgi dolu bir ürəyəm"

**Sosial Xidmətlər Agentliyinin təşkilatçılığı ilə Beynəlxalq Muğam Mərkəzində “Sevgi dolu bir ürəyəm” adlı inklüziv konsert təşkil olunub.**



Dövlət qurumlarının rəhbər şəxsləri, Milli Məclisin deputatları, agentliyin sosial tərəfdaşları, ictimaiyyət nümayəndələrinin iştirak etdiyi tədbirin açılışında əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Hidayət Abdullayev xüsusi qayğıya ehtiyacı olan şəxslərin sosial müdafiəsi sahəsində həyata keçirilən tədbirləri diqqətə çatdırıb.

Əlilliyi olan şəxslərin cəmiyyətə inteqrasiyası, inklüziv yaradıcılıq mühitində bacarıqlarının inkişaf etdirilməsi istiqamətində aparılan işlər qeyd edilib. Bu işlərin bir istiqaməti olaraq belə inklüziv tədbirlərin də təşkil olunduğu bildirilib. Həmçinin Sosial Xidmətlər Agentliyi tərəfindən bu kateqoriyadan olan uşaqların səyyar, stasionar və yarımstasionar şəraitdə reabilitasiya yönümlü sosial xidmətlərlə təmin edildikləri vurğulanıb.

Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri, professor Hicran Hüseynova tədbirin əhəmiyyətinə diqqət çəkib. Bildirib ki, bu kimi layihələr uşaqların reabilitasiyasında xüsusi rola malikdir.

Sonra agentliyin əlilliyi olan uşaqlar üçün 1 saylı sosial xidmət müəssisəsinin benefisiarlarının, eyni zamanda, Respublika Uşaq-Gənclər İnkişaf Mərkəzi və Xoreoqrafiya Akademiyasının tələbələrinin ifasında milli, müasir və klassik rəqslər, caz və estrada vokalı, instrumental kompozisiyalar təqdim edilib.

Tədbirin keçirilməsində məqsəd həssas kateqoriyadan olan uşaqların cəmiyyətə inteqrasiyası, yaradıcı potensiallarının dəstəklənməsidir.

**Zərifə HÜSEYNOVA**
**XQ**

# Elm "yaşıl" iqtisadiyyata "yaşıl" işıq yandırır

**Müasir dövrdə ölkə iqtisadiyyatının modernləşdirilməsi, innovativ inkişafı, rəqabət qabiliyyətinin yüksəldilməsi, enerji səmərəliliyinin təmini, ilk növbədə, iqtisadi artıma istiqamətləndirilsə də, əslində əsas məqsəd hər bir cəmiyyət üzvünün həyat şəraitinin yaxşılaşdırılması, budcənin neft-qaz resurslarından asılılığının əhəmiyyətli dərəcədə azaldılması, qeyri-neft sektorunu inkişaf etdirməklə gələcək nəsillərin davamlı və dayanıqlı normal rifah şəraitinin təmin edilməsidir. Bu problem hazırda formalaşmaqda olan rəqəmsal iqtisadiyyatın yeni prinsiplər əsasında davamlı və dayanıqlı inkişafının təmin olunması kimi müəyyənləşdirilib.**

Məlum olduğu kimi, Azərbaycanda ekoloji cəhətdən dayanıqlı sosial-iqtisadi inkişafa dair Milli Proqram 2003-cü ildə qəbul edilib. Həmin proqramın məntiqi davamı kimi qəbul edilən "Azərbaycan 2020: Gələcəyə baxış" inkişaf konsepsiyasının, həmçinin "İnformasiya cəmiyyətinin inkişafına dair 2014-2020-ci illər üçün Milli Strategiya"nın, milli iqtisadiyyatın perspektiv inkişafı üzrə strateji yol xəritələrinin də əsas hədəflərindən biri ekoloji cəhətdən dayanıqlı sosial-iqtisadi inkişafa, cəmiyyətin rəqəmsallaşmasına, iqtisadiyyatın yaşıllaşdırılmasına, alternativ və bərpaolunan enerji mənbələrindən səmərəli istifadə proseslərinin daha da sürətləndirilməsinə nail olmaqdır.



Hazırda dünyanın əksər ölkələrində iqtisadi artım antropogen və texnogen proseslər nəticəsində ətraf mühitin pisləşməsi, təbii balansın pozulması, çirklənmə səviyyəsinin artması, təbii resurslardan israfçılıqla istifadə, biosferin normal mühafizəsinin pozulması və iqlim dəyişikliyi kimi mənfi təzahürlərlə müşahidə olunur. Bunlar isə, insan sağlamlığına zərər vurur və sonrakı nəsillərin normal inkişafına mane olur. Başqa sözlə, insanın rifah halının yüksəlməsinə xidmət etməli olan iqtisadiyyat, onun həyatının yaxşılaşmasına əngəl olur və sağlamlığını təmin etmir.

Ona görə də yeni informasiya və biliklər cəmiyyəti şəraitində modernləşmənin istiqaməti iqtisadi inkişafı təmin edən elə mütərəqqi innovativ texnologiyalara yönləndirilməlidir ki, ətraf təbii mühitin münbitliyi və əlverişliliyi saxlanılsın və yaxşılaşdırılsın. Belə olan halda ekoloji təhlükəsizlik həm iqtisadi artım, həm də insanın özünün daha yaxşı və sağlam mövcudluğu üçün həlledici amilə çevrilir. Bütün bu kimi problemlərin həlli müvafiq texnologiyaların geniş tətbiqi əsasında cəmiyyətin və iqtisadiyyatın həm rəqəmsal, həm də yaşıl transformasiyasını tələb edir.

Birləşmiş Millətlər Təşkilatının İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı, Ətraf Mühit Proqramı kimi beynəlxalq təşkilatlar yaşıl inkişafı və ya yaşıl iqtisadiyyatı ekoloji təhlükəsizliyi təmin edən mal və xidmətlərin istehsal və istehlakı kimi, həmçinin yaşıl inkişafa və texnologiyalara yatırılan investisiyaları nəzərdə tutan bir proses kimi qəbul edirlər. Beynəlxalq təşkilatlar yaşıl iqtisadiyyatın formalaşmasını daha çox qlobal maliyyə-iqtisadi böhrandan perspektiv çıxış istiqamətlərindən biri kimi nəzərdən keçirirlər. Yaşıl iqtisadiyyat konsepsiyası davamlı inkişaf konsepsiyasını tam əvəz etmir. Ancaq dayanıqlığın əldə olunması da, demək olar ki, iqtisadiyyatın düzgün formalaşmasından və yaşıllaşdırılmasından asılıdır.

Yaşıllaşdirma prosesi prinsip etibarı ilə cəmiyyətin və iqtisadi inkişafin yeni mərhələsi kimi xarakterizə olunur. Yer kürəsində həyatın qorunması, uzunmüddətli inkişafın təmin edilməsi insanın iqtisadi fəaliyyətində yeni prioritetlərin formalaşmasını tələb edir. Onlardan ən əsasları ətraf mühit ilə qarşılıqlı əlaqədə olan, davamlı inkişafı təmin edən cəmiyyət üzvlərinin yaşıl həyat tərzi, yaşıl təfəkkürü, yaşıl düşüncəsi və yaşıl intellektdir. Bu istiqamətdə yaşıl iqtisadiyyatın formalaşması həm ətraf mühitin qorunmasının, həm də mövcud olan təbii ehtiyatlara və biliyə əsaslanan uzunmüddətli inkişafın təmin edilməsinin əsas yoludur.

Yaşıl iqtisadiyyatın formalaşması ilə əlaqədar Azərbaycandakı vəziyyətlə tanışlıq göstərir ki, burada davamlı inkişafın bir komponenti kimi yaşıl iqtisadiyyatın qurulması istiqamətində uğurlu siyasət həyata keçirilir. Azərbaycan yaşıl iqtisadiyyatın inkişafı üçün güclü potensial imkanlara malikdir. Lakin mövcud zəif tərəflər və təhlükələr də yaşıl iqtisadiyyatın inkişafını ləngidir. Hazırda yaşıl iqtisadiyyatın sistem yaradan paradiqması – insan kapitalının inkişafı Azərbaycanda dövlətin iqtisadi siyasətinin təməlini təşkil edir. Bu siyasət çərçivəsində həyata keçirilən yoxsulluqla mübarizə, davamlı inkişaf, regionların sosial-iqtisadi inkişafı, ərzaq və enerji təhlükəsizliyi, təhsil, informasiya və kommunikasiya texnologiyaları və s. kimi kompleks proqramların icrası nəzərdə tutulan hədəflərin yerinə yetirilməsini təmin edəcəkdir.

Azərbaycan yaxın keçmiş olan 1990 il ilə müqayisədə 2030-cu ilə qədər istilik effekti yaradan qazların emissiyalarının 35 faiz, 2050-ci ilə qədər isə 40 faiz azaldılmasını hədəf kimi götürüb. Qlobal dünyamızın strateji mövqeyə malik ən əsas ölkələrindən biri kimi iqlim dəyişmələrinin və ekoloji pozuntuların fəsadlarına qarşı mübarizəyə öz töhfəsini vermək əzmindədir.

2020-ci ildə erməni işğalından azad edilmiş Qarabağ və Şərqi Zəngəzur, eləcə də Naxçıvan Muxtar Respublikası "yaşıl enerji zonası" elan olunub. Azad edilmiş ərazilərdə həyata keçirilən genişmiqyaslı bərpa və yenidənqurma prosesində ətraf mühitin qorunması prioritet məsələlərdəndir. Həmin ərazilərdə "ağıllı şəhər", "ağıllı kənd" kimi innovativ yanaşmalar tətbiq edilir və zəruri ekosistem formalaşdırılır. Bütövlükdə isə, yaşıl enerji növlərinin yaradılması və onun dünya bazarlarına nəqli Azərbaycanın enerji siyasətinin prioritetidir. Təsadüfi deyil ki, ölkəmiz elektrik enerjisi istehsalının ümumi həcmində bərpaolunan enerji mənbələrinin payının 2030-cu ilə qədər 30 faizə çatdırılmasını hədəfləyir.

BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) Azərbaycanda keçirilməsi ölkəmizin milli, regional və qlobal səviyyədə ətraf mühitin qorunması, iqlim dəyişmələrinin qarşısının alınması işinə töhfəsi kimi dəyərləndirilməlidir. Bu istiqamətdə həm Azərbaycanda, həm də digər ölkələrin iqlim dəyişmələrinə qarşı qlobal mübarizəsində beynəlxalq həmrəyliyin gücləndirilməsi məqsədilə 2024-cü il respublikamızda "Yaşıl dünya naminə həmrəylik ili" elan edilib. Bununla əlaqədar ölkəmizin alim və mütəxəssisləri, yaradıcı insanları, başqa sözlə, hər bir şəxs və qurum bu böyük qlobal planetar əhəmiyyətə malik işlərin həyata keçirilməsində yaxından iştirak etməkdədir.

Bir faktı da vurğulayaq ki, cəmiyyətin və iqtisadiyyatın yaşıllaşdırılmasında rəqəmsallaşmanın, rəqəmsal texnologiya və transformasiyaların çox böyük potensial imkanları olduğuna görə cəmiyyətin iqtisadi inkişafında yaşıl və rəqəmsal transformasiyalar paralel olaraq qarşılıqlı əlaqədə inkişaf və tətbiq olunmalıdır. Təsadüfi deyil ki, son onilliklərdə qəbul olunan inkişaf konsepsiyalarında və milli strategiyalarda ətraf mühit problemlərinin həllində İKT amilinə böyük diqqət yetirilib. Yeri gəlmişkən, İKT sektorunun Azərbaycandakı inkişaf prosesinin 2025-ci ildən sonrakı dövrlərdə də müntəzəm olaraq davam etdirilməsi planlaşdırılır. Uzunmüddətli perspektivdə yaşıl və rəqəmsal iqtisadiyyatla bağlı hədəf-baxışın icrasını təmin etmək məqsədilə innovasiya yönümlü texnoloji-ekoloji savadlılıq səviyyəsi yüksəldiləcək, orta, peşə təhsili müəssisələrində və universitetlərdə istedadlı şagird-tələbələrin hazırlanmasına xüsusi diqqət yetiriləcək. Texnoloji-ekoloji savadlılığın artırılması və yaşıl innovativ düşüncə tərzinin inkişaf etdirilməsi məqsədilə universitetlərin və müvafiq məktəblərin tədris proqramlarına əlavə dərslər daxil ediləcəkdir.

Xatırladaq ki, yaşıl innovativ texnologiyaların rəqəmsallaşması ilə əlaqədar olan bu kimi proseslər Azərbaycanın 2030-cu ilə qədər Sosial-iqtisadi inkişafı üzrə Milli Prioritetlərində də əksini tapıb. 2030-cu ilədək ölkənin sosial-iqtisadi inkişafına dair müvafiq Milli Prioritetlərin icrası reallaşdırılmalıdır. Başqa sözlə, dayanıqlı artan rəqabətqabiliyyətli iqtisadiyyat və dinamik, inklüziv və sosial ədalətə əsaslanan cəmiyyət qurulmalıdır. Bu müddətdə rəqabətli insan kapitalı və müasir innovasiyalar məkanı da formalaşdırılmalıdır. İşğaldan azad olunmuş ərazilərə böyük qayıdış həyata keçirilməklə təmiz ətraf mühit yaradılmalıdır. Bununla yanaşı, ölkədə təmiz ətraf mühitin rəqəmsallaşmasına və yaşil iqtisadi artıma nail olmaq istiqamətində qlobal iqlim dəyişikliklərinin miqyası nəzərə alınaraq ekoloji təmiz texnologiyaların tətbiqinə əhəmiyyətli yer verilməli, təmiz enerji mənbələrindən istifadə, tullantıların təkrar emalı və çirklənmiş ərazilərin bərpası təşviq edilməlidir. Bu, istilik effekti yaradan qaz emissiyasını beynəlxalq normalara uyğun səviyyədə saxlanılması istiqamətində göstərilən səylərə mühüm töhfə ola bilər.

Sonda onu da qeyd edək ki, uzunmüddətli iqtisadi inkişafın və ekoloji tarazlığın təmin edilməsində informasiya və bilik cəmiyyətinin, İKT-nin qarşısında ümumən bir çox problemlər durur. Bu sahədə əsas məsələlərdən biri yaşıl iqtisadiyyat texnologiyalarının işlənilməsi və tətbiqi ilə bağlıdır. Ona görə də Azərbaycan iqtisadiyyatı və cəmiyyəti, ilk növbədə, postsənaye iqtisadiyyatının yaşıllaşdırılması texnologiyalarından ən səmərəli formada istifadə etməlidir. Bununla yanaşı, iqtisadiyyatın şaxələndirilməsi üsulu ilə qeyri-neft sektorunun inkişafına nail olunmalı, yüksək texnologiyaların geniş tətbiqi ilə informasiya və bilik iqtisadiyyatının özünün də yaşıllaşdırılması həyata keçirilməlidir.

*Əlövsət ƏLİYEV,*
*ETN İnformasiya Texnologiyaları İnstitutunun şöbə müdiri,*
*iqtisad elmləri doktoru*



# Suyun hər damlası həyat iksiridir

**Tacikistanın paytaxtı Düşənbə şəhərində 2018-2028-ci illər üzrə "Davamlı inkişaf üçün su" Beynəlxalq Onillik Fəaliyyətə dair III Yüksək Səviyyəli Beynəlxalq Konfrans keçirilib. Beynəlxalq tədbirdə Azərbaycanı kənd təsərrüfatı naziri Məcnun Məmmədovun rəhbərlik etdiyi nümayəndə heyəti təmsil edib. Nümayəndə heyətinin tərkibinə Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Dövlət Su ehtiyatları Agentliyinin məsul şəxsləri daxil olub.**

Kənd Təsərrüfatı Nazirliyinin ictimaiyyətlə əlaqələr və informasiya təminatı şöbəsindən verilən məlumata görə, Tacikistan Prezidenti Emoməli Rəhmon tədbiri giriş sözü ilə açaraq bildirib ki, qlobal istiləşmə fonunda su ehtiyatlarından səmərəli istifadə mühüm çağırışlardan biri olaraq qalır. Son 5 ildə planetdə ən isti il və ayların müşahidə olunduğunu xatırladan Prezident əlavə edib ki, bununla yanaşı, hər il təbii fəlakətlərin ümumi sayında su ilə bağlı fövqəladə halların xüsusi çəkisi və dəymiş zərərin miqdarı da artır. Tacikistanın dövlət başçısı, həmçinin iqlim dəyişikliyinin su ehtiyatlarına mənfi təsirlərinin minimuma endirilməsi məqsədilə effektiv və təcili tədbirlərin görülməsi üçün müzakirə və qlobal əməkdaşlığın mühüm olduğunu diqqətə çatdırıb.

Prezident Emoməli Rəhmon bu ilin noyabrında Azərbaycanda keçiriləcək Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) çərçivəsində təşkil olunacaq müzakirələrdə su resurslarından rasional və dayanıqlı istifadə etməklə bağlı mühüm nəticələrin əldə olunacağına əminliyini ifadə edib.

Tədbirdə çıxış edən kənd təsərrüfatı naziri Məcnun Məmmədov son illər qlobal iqlim dəyişikliyi səbəbindən su ehtiyatlarının azalması nəticəsində kənd təsərrüfatı təyinatlı torpaqların suvarılmasında yaranan çətinliklərə toxunub. Azərbaycanın su və torpaq ehtiyatları məhdud olan ölkələrdən olduğunu vurğulayan nazir bildirib ki, su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsi və su təsərrüfatının təkmilləşdirilməsi daim diqqət mərkəzində saxlanılır. Azərbaycanda intensiv kənd təsərrüfatının formalaşmasına, o cümlədən müasir suvarma sistemlərinin tətbiqinə mühüm dövlət dəstəyi verilir. Nazir bildirib ki, bu sahədə fəaliyyəti əlaqələndirmək məqsədilə Prezident İlham Əliyevin sərəncamı ilə komissiya yaradılıb. Komissiya tərəfindən yeni çağırışlar nəzərə alınmaqla iqlim dəyişikliyinin su resurslarına təsirinin minimuma endirilməsi üçün mövcud su itkilərinin azaldılması, ölkədə su ehtiyatlarının artırılması, alternativ su ehtiyatlarının qiymətləndirilməsi və mümkün istifadəsi kimi 3 prioritet istiqamət müəyyən edilib. Tədbir iştirakçılarına Azərbaycanda sudan səmərəli istifadə ilə bağlı həyata keçirilən və planlaşdırılan tədbirlər barədə ətraflı məlumat verilib.

İqlim dəyişikliyinin təsirlərinin regional səviyyədə idarə olunmasının vacibliyini deyən nazir COP29 tədbirində su ehtiyatları sahəsində bütün təşəbbüslərin diqqət mərkəzində saxlanılacağını və bu istiqamətdə faydalı müzakirələrin aparılacağını vurğulayıb.

Tədbirdə su ehtiyatlarından səmərəli istifadə, su itkilərinin qarşısının alınması, təbii ehtiyatların davamlı istifadəsində innovasiya və rəqəmsallaşmanın rolu, bu istiqamətdə gələcək əməkdaşlıq istiqamətləri, davamlı inkişaf üçün su üzrə qlobal, regional və ölkələr səviyyəsində görüləcək işlər müzakirə olunub. Mütəxəssislər qlobal iqlim dəyişikliyinin su mənbələrinə təsirinin idarə edilməsi üçün su ehtiyatlarının sektorlar üzrə bölüşdürülməsi və dəqiq uçotunun aparılmasının, müasir suvarma sistemlərinin tətbiqinin genişləndirilməsinin aktual olduğunu vurğulayıblar.

**Azərbaycan ətraf mühitin mühafizəsi sahəsində mühüm addımlar atıb. Bunu Bakıda keçirilən Ümumdünya Aeronaviqasiya Sammitində çıxışı zamanı CANSO-nun baş direktoru Saymon Hokkard deyib.**

## Aeronaviqasiya Sammiti COP29-u dəstəkləyib



"Azərbaycanda bir araya gəlməyimiz bizə iqlim dəyişikliyinin təsirlərini azaltmaq üçün qlobal əməkdaşlığın və birgə fəaliyyətin vacibliyini xatırladır. Bu mühüm müzakirəni burada, Bakıda apararaq biz gələcək nəsillər üçün planetimizin ekosisteminin qorunması məqsədilə bütün sənaye və ölkələrin birgə səylərinin zəruriliyini dərk edirik", – deyə o, vurğulayıb.

Yeri gəlmişkən, CANSO-nun baş direktoru jurnalistlərə açıqlamasında Bakını Ümumdünya Aeronaviqasiya Sammitinin keçirilməsi üçün ideal məkan adlandırıb. Onun sözlərinə görə, bu tədbirin keçiriləcəyi məkan kimi Bakının seçilməsi ona görə məqsədəuyğundur ki, BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) noyabr ayında məhz bu şəhərdə təşkil olunacaq. "Bu mənada Bakı ideal məkandır, çünki burada müxtəlif enerji mənbələrindən istifadə imkanları nəzərdən keçirilir və bu məsələ COP29-un gündəliyində də öz əksini tapıb. İqlim dəyişikliyi mövzusu aviasiya sənayesi üçün də aktualdır və onun üçün böyük problemlər yaradır. Ümumi məqsədlərdən biri 2050-ci ilə qədər xalis sıfır karbon emissiyasına nail olmaqdır. Buna nail olmaq üçün çox iş görməliyik", – deyə Saymon Hokkard əlavə edib.

Hazırda aviasiya sektorunun qlobal emissiyalarda, təxminən, 2 faiz paya malik olduğunu bildirən baş direktorun dediyinə görə, lazımi tədbirlər görülməsə yaxın 20 il ərzində bu nisbət 22 faiz olacaq.

# Dubaydan Bakıya COP magistralı

**Aşqabad şəhərində Türkmənistan Xarici İşlər Nazirliyinin, BMT-nin Türkmənistandakı Rezident Əlaqələndiricisinin Ofisi, Azərbaycanın və Birləşmiş Ərəb Əmirliklərinin Türkmənistandakı səfirliklərinin təşkilatçılığı ilə "Dubaydan Bakıya Yol – COP29 öncəsi" adlı tədbir keçirilib. Bu barədə Azərbaycanın Türkmənistandakı səfirliyindən məlumat verilib.**




Tədbirdə çıxış edən məruzəçilər BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 28-ci sessiyasının (COP28) sonrakı fəaliyyətlərə dair yeniliklərin təqdim edilməsi və 2024-cü ilin noyabr ayında Azərbaycanda keçiriləcək COP29 sammitinə hazırlıqların müzakirəsi, eləcə də "yaşıl enerji", alternativ enerjiyə keçid və metan emissiyalarının azaldılması istiqamətində fikir mübadiləsi aparılıb.

Ölkəmizin Türkmənistandakı səfiri Qismət Gözəlov çıxışında 2024-cü ilin Azərbaycanda "Yaşıl dünya naminə həmrəylik ili" elan edildiyini xatırladaraq respublikamızın iqlim dəyişikliyi ilə bağlı həyata keçirdiyi layihələr, ölkəmizdə "yaşıl enerji" istiqamətdə görülən işlərə diqqət çəkib. Azərbaycanda keçiriləcək qlobal əhəmiyyətli COP29-la bağlı iştirakçıları məlumatlandıran səfir könüllülərin konfransın təşkilində də mühüm rol oynayacağını bildirib. Bu xüsusda COP29-da könüllülərin iştirakını təşkil etmək üçün volunteers.cop29.az portalının istifadəyə verildiyini və burada 16 minə yaxın namizədin qeydiyyatdan keçdiyini, təxminən 3 min yerli və beynəlxalq könüllünün prosesə cəlb olunmasının gözləndiyini qeyd edib.

Q. Gözəlov Azərbaycan, BƏƏ və Braziliyanın həmsədrliyi ilə COP sədrləri üçlüyünə diqqət çəkərək iqlimlə bağlı fəaliyyətin gücləndirilməsinə təkan verən cari və gələcək COP sessiyalarına sədr ölkələr arasında əməkdaşlığın, eləcə də davamlılığı daha da yüksəltmək üçün COP sədrlikləri üçlüyünün əhəmiyyətinə toxunub. Azərbaycan və Türkmənistanın alternativ enerji və iqlim dəyişikliyi ilə bağlı həyati məsələlərin həllində inamla irəlilədiklərini vurğulayan səgir deyib ki, hər iki ölkə neft və təbii qazla zəngin olsa da, metan emissiyası öhdəliklərinə sadiq qalaraq iqlim dəyişikliyi layihələrinə töhfə verir. O, qardaş Türkmənistanın da bu ilin noyabr ayında Azərbaycanda keçiriləcək COP29 sammitinə öz töhfəsini verəcəyinə əminliyini bildirib.

Səfir, həmçinin minaların dağıdıcı təsirinə diqqət çəkərək Azərbaycan ərazilərində mövcud mina təhlükəsi, habelə onun yaratdığı ciddi ekoloji və humanitar fəsadlardan danışıb, minaların və partlamamış sursatların ətraf mühitə təhlükə, mülki əhalinin mədəni irsinə zərər vurmaqla yanaşı, son nəticədə dayanıqlı inkişafa maneçilik törədən kəskin problem olduğunu vurğulayıb.

Sonda COP29-la bağlı video-çarx və fotolar nümayiş olunub.

*Hazırladılar:*
*Vaqif BAYRAMOV,*
*Mirbağır YAQUBZADƏ*
*XQ*

# Özbəkistanda Azərbaycanın Mədəniyyəti Günləri






**Özbəkistanda keçirilən Azərbaycan Mədəniyyəti Günləri çərçivəsində Prezident Şavkat Mirziyoyev ölkəmizin mədəniyyət naziri Adil Kərimlini qəbul edib.**

Görüşün əvvəlində Adil Kərimli Şavkat Mirziyoyevə Azərbaycan Prezidenti İlham Əliyevin səmimi salamlarını və xoş arzularını çatdırıb. Söhbət zamanı Özbəkistanla Azərbaycan arasında strateji tərəfdaşlıq münasibətləriin, həmçinin humanitar sahədə əlaqələrin gələcək inkişafı məsələləri müzakirə olunub.

Şavkat Mirziyoyev son illərdə mədəni mübadilənin genişlənməsindən məmnun olduğunu bildirib. Qeyd olunub iki, bu ilin əvvəlində Bakıda Özbəkistanın elm və mədəniyyət güünləri uğurla keçirilib.

Görüşdə Azərbaycan Mədəniyyəti Günləri haqqında məlumat verilib, müxtəlif sərgilərin, teatr taamaşalarının və başqa tədbirlərin keçiriləcəyi bildirilib. "Yol xəritəsi"nə əsaslanaraq intensiv dialoq və zəngin mədəni tədbirlər proqramının davam etdirilməsinin, UNESCO, TÜRKSOY və digər beynəlxalq təşkilatlar çərçivəsində birgə təşəbbüs və layihələrin həyata keçirilməsinin vacibliyi vurğulanıb.

Görüşdə Azərbaycanın Özbəkistandakı səfiri Hüseyn Quliyev iştirak edib.

***

**İyunun 12-də qardaş ölkələrin mədəniyyət nazirləri Adil Kərimli və Azadbek Nazarbekov, Milli Məclisin deputatı akademik Nizami Cəfərov, şair Baba Vəziroğlu, mədəniyyət və incəsənət xadimləri ümummilli lider Heydər Əliyevin Daşkənddəki abidəsini ziyarət ediblər.**

***

**Həmin gün Özbəkistan Təsviri İncəsənət Qalereyasında "Sənət incilərində yaşayan Azərbaycan milli irsi" sərgisi keçirilib.**

Sərgidə Azərbaycanın və Özbəkistanın mədəniyyət nazirləri Adil Kərimli və Azadbek Nazarbekov, ölkəmizdən gələn qonaqlar, Özbəkistanın elm, mədəniyyət və incəsənət xadimləri, diasporumuzun üzvləri, jurnalistlər iştirak ediblər.

***

**Özbəkistan Mədəniyyət və İncəsənət İnstitutunda Azərbaycan Dövlət "Yuğ" Teatrının "Mən mənəm" tamaşası nümayiş olunub.**

***

**Axşam isə Əlişir Nəvai adına Akademik Opera və Balet Teatrında Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrı tərəfindən böyük Azərbaycan bəstəkarı Üzeyir Hacıbəylinin "Arşın mal alan" operettası nümayiş etdirilib.**

Tamaşa anşlaqla keçib, aktyorlar dəfələrlə sürəkli alqışlarla qarşılanıb.



***

**Özbəkistandakı Əlişir Nəvai adına Milli Kitabxanada "Azərbaycan ədəbiyyatı guşəsi"nin açılışına isə Özbəkistan mədəniyyət nazirinin birinci müavini Avazxan Tacixanov, Azərbaycan mədəniyyət nazirinin müavini Fərid Cəfərov, ölkəmizdən gələn qonaqlar, qardaş özbək xalqının nümayəndələri qatılıb.**

Fərid Cəfərov öz çıxışında xalqlarımızın qədim köklərə, milli adət və ənənələrə malik olduğunu bildirib, ölkələrimizin milli kitabxanaları arasında qarşılıqlı əlaqələrin uğurla inkişaf etdiyini vurğulayıb, Özbəkistan Milli Kitabxanasında yaradılan Azərbaycan guşəsinin böyük əhəmiyyət kəsb etdiyini diqqətə çatdırıb.

Özbəkistan Milli Kitabxanasının direktoru Umida Teşabayeva əlaqələrin genişləndirilməsi istiqamətində görülən işlərdən danışıb. Azərbaycan Milli Kitabxanasının direktoru, professor Kərim Tahirov bildirib ki, rəhbərlik etdiyi kitabxanada 2019-cu ildə Özbəkistan guşəsi yaradılıb. Son illərdə kitabxanada Özbəkistanın tanınmış şair və yazıçılarının yubileyləri qeyd edilib, müxtəlif kitab təqdimatları baş tutub.

Çıxış edənlər bildiriblər ki, Azərbaycan guşəsində, təxminən, 300 adda nəşr var. Kitablar arasında Heydər Əliyev Fondu tərəfindən çap olunan nəşrlər, ölkəmizin tarixi, mədəniyyəti, ədəbiyyatı ilə bağlı toplular yer alıb. Burada 44 günlük Vətən müharibəsi haqqında məlumatlar da var.

**Qulu KƏNGƏRLİ,**
**XQ-nin xüsusi müxbiri**

**Daşkənd**

# Xəzər – misilsiz sərvətimiz

**"Dənizçilərə Sosial Dəstək" (DSD) İctimai Birliyi Azərbaycan Respublikasının QHT-lərə Dövlət Dəstəyi Agentliyinin elan etdiyi kiçik qrant müsabiqəsi çərçivəsində "Xəzərin qorunmasi üçün təşəbbüslər" layihəsinin qalibi olub.**

Üç ay müddətində gerçəkləşəcək lahiyənin rəhbəri "DSD" İB-nin sədri, peşəkar dənizçi, gəmi kapitan, şair Faiq Balabəylidir. Əsas məqsədi dünyada baş verən ekoloji terrorun, dənizin və dəniz ətrafının çirklənməsinin, insan sağlamlığına, təbitə vurduğu ziyanların qarşısını almaq üçün maarifləndirmə işi aparmaq və nümunə olacaq işlərə start verməkdir. Layihə Xəzərin və dənizətrafı yerlərin çirklənməsinin, Xəzərdə üzən gəmilərin, qazma qurğularının, buruqların və digər sahələrin tullantılarının qarşısını almaqla dənizin fauna və florasının, sualtı və suüstü sərvətlərinin qorunmasına yardımçı olmaq məramına xidmət edir.

Məlumdur ki, 1972-ci ildə Beynəxalq Dəniz Təşkilatı (BDT) tərəfindən dəniz və okeanların, digər su hövzələrinə dair müvafiq qərar və konvensiyası var. Azərbaycan BDT-nın üzvü olan ölkələr sırasındadır və tövsiyə olunan qabaqlayıcı tədbirlər haqqında konvensiyalar Azərbaycan gəmiçiliyində də tətbiq edilir. Lakin əldə olunan əyani vəsait və maarifləndirmə tədbirləri üçün yazılı məlumatlar dilimizdə çox azdır. "DSD" İB-nin komanda heyəti layihə çərçivəsində bu vəsaitləri dilimizə çevirəcək, kitab halında dərc edəcək, "Roll-up" mobil stendi vasitəsilə reklamını quracaq, əsasən dənizçiləri və dəniz sahəsində çalışan insanları maarifləndirməyi gerçəkləşdirəcək.

Layihənin icrasına cəlb olunan şəxslər öhdəlik götürdüyü sahə üzrə kifayət qədər təcrübəyə malikdir, buna görə də inam böyükdür ki, tərəfdaşlarla münasibət qurulması və nəzərdə tutulan işlərin, müqavilə ilə göstəriləcək xidmətlər kifayət qədər peşəkarlıqla gerçəkləşəcək. "Xəzərin qorunmasi üçün təşəbbüslər" layihəsi Azərbaycan Respublikasının QHT-lərə Dövlət Dəstəyi Agentliyinin maliyyə dəstəyi ilə həyata keçirilir.

***XQ***

# "Dəcəl keçi" Qubaya gedib



**Azərbaycan Dövlət Milli Gənc Tamaşaçılar Teatrı regionlara təşkil olunan qastrol səfərləri çərçivəsində Quba şəhər Mədəniyyət evində Pərvin Nurəliyevanın "Dəcəl keçi" tamaşasını uşaqlar üçün nümayiş etdirib.**

Azyaşlıların böyük sevincinə səbəb olan səhnə əsərini qazi və şəhid övladları da izləyiblər. Tamaşanın quruluşçu rejissoru Ayla Osmanova, quruluşçu rəssamı Elşən Sərxanoğludır. Rolları Vahid Orucoğlu, Anar Seyfullayev, Yusif Dadaşov, Ədalət Əbdülsəməd, Səbinə Məmmədzadə, İlqarə Tosova və Zümrüd Quliyeva canlandırıblar. "Dəcəl keçi"nin əsas ideyası keçinin timsalında xudpəsəndlik, tənbəllik, yalan və lovğalıq kimi mənfi cəhətlərin tənqididir.

Tamaşanı uşaqlar maraqla izləyib və dönə-dönə alqışlayıblar.

***XQ***

# Gəncə tələbələrinə Nizami dərsləri

**AMEA Gəncə Bölməsinin sədri, akademik Fuad Əliyevin təşəbbüsü ilə keçirilən maarifləndirici seminarlar gənclərin elmi və ictimai məlumatlılığının artırılması məqsədilə təşkil olunur və şəhərdəki ali məktəbləri əhatə edəcək.**



Gəncə Dövlət Universitetinin filologiya fakültəsinin IV kurs tələbələri üçün təşkil olunan ilk elmi seminarda Nizami Gəncəvi Mərkəzinin direktoru Əlimuxtar Muxtarovun "Heydər Əliyev Fondu və Nizami Gəncəvi irsi" mövzusunda oxuduğu mühazirə böyük maraqla qarşılanıb.

Qeyd edilib ki, Nizami Gəncəvinin əsərlərində cəmiyyətin hüzur və xöşbəxtliyi naminə bizə və bütün bəşəriyyətə ünvanlanan fəlsəfəsi müasir mürəkkəb dövrümüz üçün də bir açar olub. Ulu Öndər Heydər Əliev dahi mütəfəkkirimiz Nizaminin əsərlərinin öyrənilməsi, ölkə və dünyada təbliği məsələlərinə milli-ideoloji strategiya kimi baxıb. Vurğulanıb ki, bu mənəvi impuls onun layiqli varisi, Prezident İlham Əliyev tərəfindən davam etdirilərək millətimizin daxili gücünə yönəlib. Heydər Əliyev Fondu və onun prezidenti Mehriban xanım Əliyevanın Nizami Gəncəvi irsinin öyrənilməsi, təbliği sahəsində apardığı işlər misilsizdir və bu yöndə həyata keçirilən tədbirlər hər yerdə rəğbətlə qarşılanır.

Seminar zamanı ən müxtəlif metodiki vasitələrdən, slaydlardan və digər üsullardan istifadə olunur ki, tələbələr bu vacib məsələnin mahiyyətini daha dərindən dərk edə bilsinlər.

**Akademik F.Əliyev müxbirimizlə söhbət zamanı demişdir:**

– Nizami Gəncəvi elə bir dühadır ki, onu əsrlər boyu təbliğ etmək, öyrənmək lazımdır. Biz gənclərimizə bunu aşılamalıyıq. Bu baxımdan Heydər Əliyev Fondunun gördüyü işlər təqdirəlayiqdir. Yeri gəlmişkən, Fondun 20 illik yubileyi münasibətilə sanballı monaqrafiya hazırlayırıq.

***Hamlet QASIMOV,***
***XQ-nin bölgə müxbiri***

*Gəncə*

**Sərgi salonlarında**

# "Çiçəklənən Şuşa"nın Xarıbülbül sevinci

**Təbiətin gözoxşayan mənzərələri, başını torpaqdan qaldırıb boylanan çiçəklər, əziz Şuşa və hər ləçəyində məxsusi gözəllik daşıyan Xarıbülbülün sevinci, Cıdır düzündəki günəbaxanlar, fırça ustasının ilham mənbəyi...**



Tanınmış rəssam, Azərbaycan Dövlət Universitetinin müəllimi, tarix üzrə fəlsəfə doktoru Səyyad Əliyevin Azərbaycan Rəssamlar İttifaqının sərgi salonunda açılan "Çiçəklənən Şuşa" adlı rəsm sərgisi hər bir ziyarətçidə belə xoş təəssürat yaradır. Açılışdan öncə sərgi barədə medianı bilgiləndirən rəssam dedi ki, sayca 7-ci olan budəfəki fərdi sərgisi ümummilli lider Heydər Əliyevin 101 illiyinə həsr edilib.

Sərgidə neorealistik və abstrakt üslubda əsərlərin yer aldığını söyləyən fırça ustası dedi: "Ekspozisiyada sərgilənən əsərlərin çoxu Şuşa və Qarabağ, habelə onların təbiəti mövzusundadır. Burada dövlətçilik və Vətənə məhəbbəti tərənnüm edən sənət əsərlərini də görmək mümkündür. Təşkilatçılara təşəkkürümü bildirirəm".

Açılış mərasimində Rəssamlar İttifaqının katibi, Xalq rəssamı Ağaəli İbrahimov rəssamın yaradıcılığı barədə məlumat verdi, sərgidə yer alan portret və mənzərə janrlarının önəmini qeyd etdi. Xalq rəssamı söylədi ki, hər iki janrda olan əsərlərin tərənnümü birbaşa Vətənə sevgi ilə bağlıdır: "Rəssam Qarabağ mövzusuna çox dəqiq münasibət göstərib. Onun qeyri-adi incəsənət eşqi həmişə parlaq hiss olunur.

Əməkdar incəsənət xadimi Ziyadxan Əliyev, Azərbaycan Dövlət Pedaqoji Universitetinin kafedra müdiri Yeganə Cəlilova və digər natiqlər qeyd etdilər ki, sərgidə Şuşa və Qarabağın gözəl təbiətini tərənnüm edən əsərlərin yer alması xüsusu önəm daşıyır. Belə ki, əslən Şuşadan olan rəssam bu əsərlərində nisgillə sevinci bir araya gətirib. Bildirildi ki, rəssam bu əsərləri böyük zövq və yüksək ustalıqla yaradıb.

Xatırladaq ki, Səyyad Əliyevin tarixçi olması ona şanlı keçmişimiz və vətənpərvərlik mövzusunda orijinal sənət əsərləri ərsəyə gətirməkdə kömək edir. Mədəniyyət Nazirliyi, Azərbaycan Rəssamlar İttifaqı və Şuşa Şəhər İcra Hakimiyyətinin təşkilatçılığı ilə açılan sərgi iyunun 18-dək davam edəcək.

**Ceyhun ALIŞLI,**
**jurnalist**

Ruzili fermerlərimiz

# Torpağı ver əkinçiyə...

**Bu yazının qəhrəmanı Quba rayonunda qabaqcıl iş təcrübəsi ilə fərqlənən, 74 yaşlı fermer İldırım Məmmədovdur. Hazırda Quba rayonunda ailə-fermer təsərrüfatından söhbət düşəndə həmyerliləri həmişə İldırım Məmmədovun adını fərəhlə və iftixarla çəkirlər və "öz işini dərindən bilən əsl zəhmət adamıdır", – deyirlər.**



O, 1975-ci ildə Azərbaycan Kənd Təsərrüfatı İnstitutunun qiyabi şöbəsini bitirib və alim-zootexnik ixtisasına yiyələnib. Rayonun Nizami adına sovxozunda ilk dəfə ixtisası üzrə zootexnik vəzifəsində işləyib.

Dahi siyasətçi Heydər Əliyevin birinci dəfə hakimiyyətə gəlişinin ilk illərində respublikada cins heyvanların artırılması və inkişaf etdirilməsi məqsədilə ölkəmizin regionlarında damazlıq birlikləri yaradılırdı. Hərbi xidmətdən tərxis olunaraq rayona qayıdan gənc mütəxəssis İldırım Məmmədov Xaçmaz–Quba–Qusar rayonları üzrə cins heyvanların damazlıq birliyində əvvəlcə zootexnik, sonra isə baş zootexnik vəzifələrində çalışıb. Bir müddət sonra rayon rəhbərliyi onu Quba Rayon Kənd Təsərrüfatı İdarəsinə əvvəlcə zootexnik, sonra isə rəis vəzifələrinə irəli çəkib.

Daha sonra İ.Məmmədov Nizami adına sovxozda zootexnik və direktor vəzifəsində çalışıb. O bu vəzifəyə təyin olunanda həmin müəssisə rayonun ən geridə qalan təsərrüfatlarından idi. İ.Məmmədov zəngin biliyi və təcrübəsi sayəsində qısa müddətdə sovxozu gerilikdən qabaqcıl təsərrüfatlar sırasına çıxarıb.

Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin tabeliyində olan Quba Rayon Kökəltmə Kompleksinin bazasında "Şahdağ" aqrofirması yaradılıb. Firmaya ət kombinatı, kökəlmə kompleksi, sovxoz , eləcə də ətin qəbulu və ət kəsmə məntəqəsi də daxil idi. İ.Məmmədov 1995-ci ilə kimi bu firmanın baş direktoru vəzifəsində işləyib. Aqrofirmanın ərazisi çox böyük olduğuna görə həmin müəssisəyə nəzarət işi hava nəqliyyatı vasitəsilə, yəni vertolyotla həyata keçirilirdi.

İ.Məmmədov 1991-ci ildən Quba rayonunda sahibkarlıq fəaliyyəti ilə məşğuldur. Rəhbərlik etdiyi ailə-fermer təsərrüfatında hazırda onun 10 nəfər ailə üzvü çalışır. Təsərrüfatda, əsasən, taxılçılıq, heyvandarlıq və yemçilik sahələri inkişaf etdirilir. Təsərrüfatın özünün ailəyə məxsus 2,5 hektar kənd təsərrüfatına yararlı torpaq sahəsi vardır. 200 hektar dövlət mülkiyyətindən, 200 hektar isə bələdiyyə mülkiyyətindən əkin, otlaq, örüş yeri və s. üçün torpaq sahəsi və tələb olunan texniki vəsaitlər və s. icarəyə götürülüb.

1993-cü il noyabrın 24-də Bakı şəhərində Prezident Sarayında Azərbaycan Respublikasının müstəqillik şəraitində sosial-iqtisadi vəziyyəti ilə bağlı ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə keçirilən müşavirədə torpaq islahatına və respublikada kənd təsərrüfatının inkişaf etdirilməsi ilə bağlı iclasda o da fəal iştirak edib. Ona Ulu öndərin qarşısında öz təklifləri ilə çıxış etmək imkanı verilib.

İ.Məmmədov onun çıxışına xüsusi diqqət yetirən Ümummilli liderdən xahiş edib ki, Naxçıvan Respublikasının Ali Məclisinə rəhbərlik etdiyi vaxtda orada kənd təsərrüfatında aparılmış islahat siyasətini və torpaq islahatına dair təcrübəsini bütün respublikada–Azərbaycanın digər bölgələrində də tətbiq edilməsinə icazə versin.

Sonra yenilikçi təsərrüfat başçısı torpaq islahatı və kənd təsərrüfatına aid qanunların qəbul edilməsinə fayda verə biləcək bir sıra təklif və ideyalarla çıxış edib. Onun verdiyi təkliflərin 16-sı respublikamızda torpaq islahatı qanununda öz əksini tapıb.

İ.Məmmədovun ölkənin baş təşkilatlarına ünvanladığı mütəxəssis təklifləri əsasında respublikada mövcud olan kənd təsərrüfatı texnikasının özəlləşdirilməsi, çoxsaylı kənd təsərrüfatı vergilərinin ləğv edilərək təkcə bir növ–torpaq vergisinin saxlanılması, kənd təsərrüfatı üçün yararlı olan torpaqlarda yaşayış evlərinin tikilməsinin dayandırılması və s. kimi məsələlər qanunçuluq yolu ilə tənzimlənərək öz həllini tapıb.

İ.Məmmədov sahibkarlıq sahəsi üzrə dünya təcrübəsini öyrənmək məqsədi ilə 1993-cü ildə ABŞ-də bir aylıq təkmilləşdirmə kursunda olub. Respublikanın keçmiş kənd təsərrüfatı naziri İnam Kərimovla birlikdə Fransada kənd təsərrüfatı sərgisində iştirak edib. Heyvandarlığa aid təcrübə mübadiləsi məqsədilə Almaniyaya, fermerlərin iş təcrübəsini öyrənmək üçün Rusyaya, kənd təsərüfatı texnikası üzrə qabaqcıl təcrübəni öyrənməkdən ötrü və s. məsələlərlə bağlı Türkiyəyə səfər edib.

Respublikamızda kənd təsərrüfatı sahəsində fermer təsərrüfatlarının inkişafına verdiyi töhfələrə görə bu zəhmətkeş insanın əməyi dövlətimiz tərəfindən layiqincə qiymətləndirilmişdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə Quba rayonunun sosial-iqtisadi inkişafı və ictimai-siyasi həyatındakı xidmətlərinə və səmərəli fəaliyyətinə görə İ.Məmmədov ümummilli liderimiz "Heydər Əliyevin 100 illiyi" yubiley medalı ilə təltif edilmişdir. Rayonun kənd təsərrüfatının inkişafında uzun illər səmərəli fəaliyyətinə görə isə "Tərəqqi" medalına layiq görülmüşdür.

Fəxrlə qeyd etməyə dəyər ki, İldırım Məmmədov torpaqda izi olan, zəhməti, alın təri ilə ucalan insanlardandır. Vətən məhəbbətindən və torpaq sevgisindən qidalanan, xalqa və dövlətə, dövlətçiliyimizə və qanunlarımıza dərin hörmətlə yanaşan 74 yaşlı torpaq adamı bu gün də gənclik illərində olduğu kimi, yüksək əhval-ruhiyyə ilə çalışır.

***Zakir BAYRAMLI,***
***şair-publisist***

# BP-nin "bilik istehsalı"

**Dünən BP şirkəti yerli ali təhsil müəssisələrində fənlərarası münasibətlərin və ya fənlərarası inteqrativ tədrisin tətbiqinə yönəlmiş və bu yaxınlarda tamamlanmış yeni təhsil layihəsini təqdim etdi. Layihənin əsas məqsədi "Fənn münasibətləri – yeni biliklər istehsalı" adlı kitabın hazırlanması və nəşri idi. Kitab Azərbaycanda fəaliyyət göstərən 40-dan çox ali təhsil müəssisəsinin rəhbər işçiləri, müəllim və professorları, doktorantları və magistrləri üçün nəzərdə tutulub.**




Təqdimat mərasimində BP-nin Xəzər regionu üzrə vitse-prezidenti Bəxtiyar Aslanbəyli çıxış edərək deyib: "İnanırıq ki, bu kitabı nəşr etməklə çətin yerli və qlobal problemlərin həlli, eləcə də mürəkkəb mövzuların başa düşülməsi və irəli aparılması üçün intellektual resursların və biliklərin sərhədləri silərək bir araya gətirilməsinin qaçılmazlığını vurğulamış oluruq. Bu cür yanaşma müxtəlif fənləri və təcrübəni bir araya gətirməyə və inteqrasiya olunmuş yeni biliklər yaratmağa imkan verir. Ümid edirik ki, bu, öz növbəsində, ümumi təhsil potensialını artırmağa və dəyişən dünyanın problemlərini həll etməyə qadir yüksək keyfiyyətli mütəxəssislər və səriştəli işçi qüvvəsi ilə bazarı təmin etməyə şərait yaradacaq".

Tədbirdə kitabın həmmüəllifləri İlqar Orucov, Manuela Harqasner-Delpos (videomüraciət) çıxış edərək belə bir fundamental dərs vəsaitinin ərsəyə gəlməsində hərtərəfli dəstəyə görə BP şirkətinin rəhbərliyinə təşəkkürlərini çatdırdılar. Kitabın ölkənin ali məktəblərində fənlərarası əlaqələrin yaradılmasına mühüm töhfə verəcəyi vurğulandı. Qeyd olundu ki, fənlərarası termini bir neçə fundamental fənnin və ya ənənəvi tədris sahəsinin metod və özül biliklərini birləşdirərək istifadə edən tədqiqatlara aid edilir.

Daha sonra ADPU-nun rektoru Cəfər Cəfərov, Milli Məclisin deputatı Rəşad Mahmudov, ETN Təhsilin İnkişafı Fondunun rəhbəri Elnur Nəsibov və başqaları çıxış edərək kitabı yerli ali təhsil müəssisələri üçün yeni tədqiqat istiqaməti və onlartın əmək bazarını yüksək ixtisaslı mütəxəssislərlə təmin etmək imkanlarının artırılmasına BP-nin töhfəsi kimi dəyərləndirdilər.

Qeyd edək ki, "Azərbaycan Gənc Alim, Doktorant və Magistrlər Cəmiyyəti" İctimai Birliyi tərəfindən bir il müddətində həyata keçirilən layihənin ümumi dəyəri, təxminən, 79 min 300 manat təşkil edib.

***XQ***

Uzunömürlülərimiz

# 101 yaşlı nənənin kötücə arzusu

**Elə bil nağıllardan gəlib. Üz-gözündən nur süzülən, başında ağ kəlağayı olan ağbənizli Rahilə nənə öz nəsil şəcərəsi haqqında məlumat verir:**

– Atam içərişəhərli Yusif bəy olub. Çox yaxşı ikimərtəbəli ev-eşiyimiz, içində bahalı mebellərlə dolu böyük mülkümüz var idi. Anam Aminə isə əslən Aşurbəyovlardandır. Həmin nəslin tanınmış nümayəndələrindən biri də Nabat xanım Aşurbəyova olub. Təzə Pir məscidinin tikilməsi onun adı ilə bağlıdır və məscidin tikintisi başa çatmamış vəfat edib, elə orada da dəfn olunub. Nabat xanım milyonçu Hacı Zeynalabdin Tağıyevin təşəbbüsünə qoşularaq Bakıya su kəmərinin çəkilməsində də iştirak edib, çox xeyirxah və səxavətli xanım olub. Anam Nabat xanımın ən yaxın qohumlarından idi.

"1945-ci ildə Tibb Universitetini bitirəndən sonra ailə həyatı qurub Naxçıvana köçdüm. Həyat yoldaşım Məhəmməd tarix müəllimi idi, o, bacımın həyat yoldaşı Manaf həkimlə dost olub", – deyə müsahibimiz uzaq illərin arxasında qalan xatirələri çözələyir: "O vaxt necə olubsa, onunla Bakıya gələndə məni görüb. Əlbəttə, qismətdən qaçmaq olmaz. Onunla ailə həyatı qurduq və Naxçıvana gedib 28 il orada diş həkimi işlədim. Uşaqlar hamısı orada doğulub. Oğlum Faiq uzun illər dövlət təhlükəsizlik orqanlarında işləyib, polkovnikdir, indi təqaüddədir, Fərəc Odessada Yeyinti Sənayesi İnstitutunu bitirsə də, poliqrafiya sahəsində çalışır,



ailəmizin sonbeşiyi Orucəli dövlət qulluğunda işləyir. Qızım Məlahət isə evdardır, dörd oğlu var", – deyə 101 yaşlı Rahilə Hacıyeva bildirib.

Keçən il Rahilə nənənin bir əsrlik yubileyi ailə üzvləri tərəfindən qeyd olunub. Övladları, nəvə-nəticələri, qardaşı və bacısı uşaqları, qohum-əqrəba əlamətdar yubiley münasibətilə bir yerə yığışıblar.

Rahilə nənənin fəaliyyəti Naxçıvan şəhəri ilə bağlı olub. Əmək kitabçası orada açılıb, orada da bağlanıb. 28 il diş həkimi işləyib. Böyük oğlu Faiqin həyat yoldaşı Elmira da, onların Elmira adlı nəvəsi də həkimdir. Neçə illərdir ki, Almaniyada nevropatoloq işləyir. Fərəcin oğlu Fərid də ailə həyatı quraraq Almaniyada yaşayır. Digər nəvələrindən Elvin Amerikada, Surxay Türkiyədə, Emin İngiltərədə ali təhsil alıblar.

O, gəlinləri Elmira, Afət və Şəfəq, eləcə də nəvələri haqqında ağızdolusu danışır: "Harada olsalar, nə vaxt imkan tapsalar, mütləq mənə baş çəkirlər, zəng edib hal-əhvalımla maraqlanırlar. Mən də onlarla nəfəs alıram. Faiqin oğlu Məhəmməd qızına mənim adımı verib, indi üçüncü sinifdə oxuyur. Amma deyirlər ki, mənə ən çox Məlahətin qızı Nəzrin və Faiqin qızı Təranə oxşayır".

Bakının Səbail rayonunda yaşayan Rahilə xanım 4 dəfə Məkkə, bir dəfə Kərbəla, dəfələrlə Məşhəddə ziyarətdə olub. Uzun illərdir ki, namaz qılır, oruc tutur. İndinin özündə də Hacı Rahilə xanım bir dəfə də olsun sübh namazını ötürməz. Neçə-neçə bəndənin hidayət yoluna gəlməsində vasitəçi olub.

– Şükür ki, torpaqlarımızın, yurdumuzun quldurlardan tam təmizləndiyi günü görmək mənə nəsib oldu. Azərbaycan Bayrağının Şuşada, Xankəndidə dalğalandığını görəndə qəlbim fərəh hissi ilə dolur. Təki bayrağımız lap ucalarda dalğalansın.

Ömrünün ixtiyar çağlarını yaşayan Rahilə Hacıyevanın 14 nəvə, 26 nəticəsi olsa da, hələ kötücəsi yoxdur. "Qızım Məlahətin nəvəsi Surxayın artıq 30 yaşı var, Türkiyədə turizm təhsili alıb və indi orada işləyir. Evlənmir ki, mən kötücəmi də görüm. Belə getsə, deyəsən, kiçik qardaşı Hüseyn ondan qabağa düşəcək. Fərqi yoxdur, hansı evlənir-evlənsin, qoy həmişə toy olsun, hamının evindən "Vağzalı" sədası eşidilsin, təki dünyaya övlad gəlsin", – deyir Rəhilə nənə.

Nə gözəl arzudur?! Biz də elə bu arzunun həyata keçməsi diləyi ilə onunla sağollaşırıq.

***Süleyman QARADAĞLI***

**Bu gün "Böyük yeddilər"in (G7) növbəti sammiti keçiriləcək. Sammitdə müzakirə olunacaq əsas mövzular arasında Rusiya–Ukrayna müharibəsi, Yaxın Şərq, Afrika, Hind–Sakit okean regionunda mövcud vəziyyət, iqlim dəyişikliyi və miqrasiya var. Avropa Birliyini sammitdə Avropa Komissiyasının prezidenti Ursula Fon der Llayen və Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişel təmsil edirlər. Sayca 50-ci olacaq sammit çərçivəsində ABŞ Prezidenti Co Baydenin Ukrayna lideri Volodimir Zelenski ilə Kiyevə növbəti yardımı müzakirə edəcəyi bildirilir. Eyni zamanda, Ağ evin Milli Təhlükəsizlik Şurasının strateji kommunikasiyalar üzrə koordinatoru Con Kirbi bildirib ki, G7 ölkələri Rusiyaya qarşı yeni sanksiyalar elan edəcək. Nəhayət, gözlənilir ki, sammitdən sonra G7 Kiyevə Rusiya aktivlərindən əldə edilən gəlirlə təminatla 50 milyard dollar məbləğində kreditin verilməsini təsdiqləyəcək.**

# G7 Rusiya və Çinə qarşı sanksiya elan edəcəkmi?

## Bu gün "Böyük yeddilər"in liderləri görüşürlər




G7-yə Böyük Britaniya, Almaniya, İtaliya, Kanada, ABŞ, Fransa və Yaponiya daxildir. İlk sammiti 1975-ci ildə baş tutan sammit hər il müntəzəm olaraq keçirilir. Bu dəfə "Böyük yeddilər"in liderləri İtaliyada bir araya gələcəklər. Əsas müzakirə mövzusu, əlbəttə ki, 2 ildən artıqdır davam edən Rusiya–Ukrayna müharibəsi olacaq. Xarici KİV-in yazdığına görə, Aİ də, ABŞ da Rusiyaya qarşı növbəti sanksiyalar elan edəcək. "Bloomberg" mənbələrə istinadən xəbər verir ki, ABŞ Prezidenti Co Baydenin administrasiyası bu gün sanksiyaların genişləndirilməsini elan etməyi planlaşdırır. Sanksiyaların Honq-Konqda yerləşən 8 şirkətə təsir edəcəyi bildirilir. Agentlik mənbələri iddia edirlər ki, bu şirkətlər Rusiyaya yarımkeçirici çiplər tədarük edirlər. Bundan əlavə, məhdudiyyətlər Vaşinqtonun fikrincə, Rusiya aviasiya sektorunu məhsullarla təmin edən şirkətlərə də təsir edəcək. ABŞ, həmçinin Rusiyada istifadə olunan "müəssisə proqram təminatı"na qarşı tətbiq etdiyi sanksiyaları genişləndirəcək və bu, "praktikada onun artıq yenilənməyəcəyinə gətirib çıxaracaq".

Agentliyin həmsöhbətlərinin sözlərinə görə, bu şirkətlər Rusiyaya raketlərdə və döyüş meydanında mühüm əhəmiyyət kəsb edən digər texnologiyalarda istifadə üçün çiplər əldə etməyə icazə verir. Bu mikroçiplər ABŞ-dan kənarda istehsal olunur, lakin Amerika texnologiyası və ya avadanlığı ilə yaradılır. Qeyd olunur ki, əvvəllər anti-Rusiya sanksiyaları əsasən birbaşa Amerika ərazisində istehsal olunan məhsullara aid idi. "Bloomberg" qeyd edir ki, yeni məhdudiyyətlərin əsas hədəfi çox güman ki, Çin müəssisələri olacaq. Agentliyin həmsöhbətlərindən birinin dediyinə görə, üçüncü ölkələrin tədarükçüləri, məhsullarından Rusiya müdafiə-sənaye kompleksində istifadə edilmədiyi təqdirdə satışı davam etdirmək üçün lisenziya tələb etmək hüququna malik olacaqlar. Sanksiya rejiminin pozulması cinayət məsuliyyətinə səbəb ola bilər.

Aprelin əvvəlində "The Wall Street Journal" yazmışdı ki, Rusiya–Ukrayna hərbi münaqişəsi başlayandan sonra Çin Rusiyaya elektron sxemlərin, təyyarə hissələrinin, avtomobillərin və dəzgahların əsas tədarükçüsüdür. "Financial Times"ın məlumatına görə, 2023-cü ildə Rusiyanın idxal etdiyi çiplərin 90 faizi Çindən gətirilmiş və raket, tank və təyyarə istehsalında istifadə edilmişdi. ABŞ Çin şirkətlərini sanksiyalarla hədələyir. Ancaq Çin Rusiya-Ukrayna münaqişəsində heç bir tərəfə silah vermədiklərini bildirir.

ABŞ Prezidenti Co Baydenin sammiti çərçivəsində Ukraynanın Prezidenti Volodimir Zelenski ilə görüşəcəyi bildirilir. Ağ evin Milli Təhlükəsizlik Şurasının strateji kommunikasiyalar üzrə koordinatoru Con Kirbinin sözlərinə görə, Prezident Bayden cənab Zelenski ilə görüşdə ABŞ-nin Ukraynaya indi və gələcəkdə güclü dəstəyini müzakirə edəcəklər. Bu görüşdən sonra hər iki lider mətbuat qarşısına çıxacaq. Ötən həftə Bayden və Zelenski Fransada görüşmüşdülər və orada İtaliyada keçiriləcək G7 sammiti çərçivəsində müzakirələri davam etdirmək barədə razılığa gəlmişdilər.

Cənab Kirbinin sözlərinə görə, G7 ölkələri Rusiyanın dondurulmuş aktivlərinin Ukraynanın maraqları naminə istifadəsi ilə bağlı yeni qərarlarını da elan edəcəklər. G7-nin Rusiya aktivləri ilə bağlı hansı tədbirləri həyata keçirəcəyi açıqlanmır. Belə bir məlumat verilir ki, sammitdə bu məsələ ətraflı müzakirə olunacaq. Belə belə, cənab Kirbi bildirir ki, ABŞ Prezidenti Co Bayden sammitdə Ukraynaya kömək üçün Rusiya aktivlərindən istifadə etməyə çağıracaq. İyunun 11-də "Nikkei Asia" qəzeti G7-nin dondurulmuş Rusiya aktivlərindən əldə edilən gəlirlərin ayrılacağı bir fond yaratmaq niyyəti haqqında məlumat vermişdi. İddialara görə, fond beynəlxalq maliyyə təşkilatının nəzdində yaradılacaq və həmin fond Kiyevə ianə şəklində pul ayıracaq. İdeya müəlliflərinin fikrincə, belə bir format Ukraynanı pulu qaytarmaq öhdəliyindən azad etməlidir.

***S.ELAY***
***XQ***

## Ləğvetmə prosesində olan "Gəncə Ərzaqnəqliyyat" ASC səhmdarlarının nəzərinə!

30 iyul 2024-cü il saat 10.00-da səhmdarların növbəti ümumi yığıncağı keçiriləcəkdir.

Ümumi yığıncağın gündəliyi:

1. Cəmiyyətin ləğvetmə balansının təsdiq edilməsi.
2. Cəmiyyətin qalıq əmlakının və pul vəsaitinin səhmdarlar arasında bölünməsi planını əks etdirən hesabatın təsdiq edilməsi.
3. Cəmiyyətə məxsus səhmlərin ləğv edilməsi və dövriyyədən çıxarılması.
4. Digər məsələlər.

Ümumi yığıncaq Gəncə şəhəri, Ələkbər bəy Rəfibəyli küçəsi 19 nömrəli ünvanda keçiriləcəkdir. Səhmdarlar gündəlikdəki məsələlərə aid sənədlərlə tanış olmaq üçün hər həftənin iş günləri saat 10.00-dan 13.00-dək cəmiyyətin ləğvetmə komissiyasına müraciət edə bilərlər. Əlaqə nömrəsi: +99450-346-44-00.

***Ləğvetmə komissiyası***

## Ləğvetmə prosesində olan "Gəncə Universam" QSC səhmdarlarının nəzərinə!

31 iyul 2024-cü il saat 10.00-da səhmdarların növbəti ümumi yığıncağı keçiriləcəkdir.

Ümumi yığıncağın gündəliyi:

1. Cəmiyyətin ləğvetmə balansının təsdiq edilməsi.
2. Cəmiyyətin qalıq əmlakının səhmdarlar arasında bölünməsi planını əks etdirən hesabatın təsdiq edilməsi.
3. Cəmiyyətə məxsus səhmlərin ləğv edilməsi və dövriyyədən çıxarılması.
4. Digər məsələlər.

Ümumi yığıncaq Gəncə şəhəri, H.Əliyev prospekti 149 nömrəli ünvanda keçiriləcəkdir.Səhmdarlar gündəlikdəki məsələlərə aid sənədlərlə tanış olmaq üçün hər həftənin iş günləri saat 10.00-dan 13.00-dək cəmiyyətin ləğvetmə komissiyasına müraciət edə bilərlər. Əlaqə nömrəsi: +994222664592.

***Ləğvetmə komissiyası***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 124 (30528) 13 iyun 2024-cü il, cümə axşamı

İDMAN

## Kazanda multi-idman oyunları başladı

**Bu gün Rusiyanın Kazan şəhərində “BRICS Sports Games Kazan 2024” beynəlxalq multi-idman oyunları start götürür.**

BRICS SPORTS GAMES KAZAN 2024

Yarışda ölkəmiz 11 idman növündə – avarçəkmə, kanoe, cüdo, stolüstü tennis, qılıncoynatma, yunan-Roma güləşi, sərbəst güləş, qadın güləşi, koreş, sambo, karate üzrə ümumilikdə 97 idmançı ilə təmsil olunur.

Dünən keçirilən yarışın açılış mərasimində Azərbaycan bayrağını avarçəkənimiz, “Amber Oars” beynəlxalq reqatasının gümüş və bürünc mükafatçısı, “Prezident Kuboku-2015” beynəlxalq reqatasının qızıl mükafatçısı Ziya Məmmədzadə daşıyıb.

Oyunlar iyunun 24-dək davam edəcək.

## Karateçilərimiz 13 medal qazanıb

**Gənc və yeniyetmə karateçilərimiz Gürcüstanda keçirilən beynəlxalq turnirdə uğurla çıxış edərək 13 medal qazanıblar.**



“Open Georgia” adlanan yarışda 6 ölkədən, ümumilikdə, 700-ə yaxın idmançı mübarizə aparıb. Təmsilçilərimiz yarışı 3 qızıl, 4 gümüş və 6 bürünc medalla başa vurublar.

Qeyd edək ki, yarışda beynəlxalq dərəcəli hakim Vüqar Kərimov ədaləti qoruyub.

## Santuş futbol millimizin baş məşqçisi oldu



**Futbol üzrə Azərbaycan millisinin yeni baş məşqçisi müəyyənləşib.**

Bu barədə qərar AFFA İcraiyyə Komitəsinin onlayn formatda keçirilən iclasında qəbul edilib.

Baş məşqçi postuna tanınmış portuqaliyalı mütəxəssis Fernandu Santuş təyin edilib.

*L.QURBANOVA*
*XQ*

Ciddi bir zarafat

# “Oxuyur platin şlyager”

**Mən də oxumaq istəyirəm. Uşaqlıqdan oxuyan olmuşam. Qonşu kəndə məktəbə gedəndə, çöldə, düzdə gəzəndə səhərdən axşamacan mızıldanmışam, səsim də özümə xoş gəlib. Amma o vaxtlar məni evdə danlayırdılar. Deyirdilər ki, “dingiş olma”, özünü ağır apar. Mən də oxumağı tərgitdim.**



Düzünü desəm, indi yenə keyfim kök olanda, təklikdə arabir oxuyuram. Son illər səhərdən-axşamadək telekanalların ekranlarında tamaşaçıların gözünü yara, qulağını dəng eləyən müğənniciklərə baxandan sonra yenidən oxumaq həvəsinə düşmüşəm.

Arada evdə, işdə, küçədə, hətta avtobusda pəsdən mızıldanıram. O gün evdə oxuyanda nəvəm gülüb dedi ki, baba, olmaya xanəndə olmaq istəyirsən? Küçədə isə yanımdan keçib gedənlər mızıltımı eşidib mənə qəribə tərzdə baxırlar. Guya mən qəbahət iş görürəm.

İş yoldaşlarım arasında da bu məsələyə baxış birmənalı deyil. Biri deyir, oxu, həvəsin varsa, istəyin həyata keçəcək. “Tem boli” yaxşı nitqin, şeir deməyin də var, səsin yaxşı-pisliyi isə indi o qədər də “vajnı” deyil, o işi “aparatura” yoluna qoyacaq.

Onsuz da hazırda oxuyanların çoxunun məlahətli səsi yoxdur. Sağ olsun, mikrofon! Çətini bir-iki dəfə səhnəyə, ekrana çıxanacandı. Bunun da yolu var. İmicini dəyişirsən, saç-saqqalını uzadırsan, əlinə keçən arvad, yaxud kişi paltarı, ayaqqabı əvəzinə qədimi çarıq geyinirsən. Zatən, sənin saqqalın var. Sonra lazımi adamları görüb haqqını verirsən, adını salır şou-biznes proqramlarına. “Kruq”a düşənə kimidi. Əvvəlcə sən onları təriflәyirsən, “ustad” deyirsən, sonra da onlar səni tərifləyir və yanlarına salıb orda-burda tanıdırlar.

Başqa iş yoldaşım isə deyir ki, ayıbdı, həm də bu yaşda oxumağa başlamaq çox gecdi, bir də axı sənin səsin yoxdu, üstəlik, xalq mahnılarından, muğamdan da bixəbərsən.

Mən isə onu başa salmağa çalışdım ki, bəyəm əlinə mikrofon alanların hamısı xalq mahnısı və yaxud muğam oxuya bilir? Onların çoxu heç muğamın şöbələrinin adını bilmir. Eləsi də var ki, oxuduğu mahnının sözlərini tam bilmir. Buna görə də sözlərin axırını “yeyirlər”. “Pərəstişkarları” deyirlər ki, guya o, mahnını yeni oranjimanda oxuyur. O stildə elə mən də oxuya bilərəm də”.

Özümə ad, təxəllüs də seçmişəm: Çöloğlu Gümüşsəs. İndi belə adı olmayanlara yaxşı baxmırlar. Həm də qoy desinlər ki, yəqin xaricdə yaşayan türklərdəndi. Saçımı da iki rəngdə boyayacam - yarısını qırmızı, qalanını da göy. Desinlər ki, müğənni olmaqla yanaşı, azadlıqsevərdi.

Bilirsiniz ki, bizdə xaricdən gələn “posledni” oxuyanlardan ötrü də sino gedirlər. Özümə ikinci qondarma ad da tapmışam – “Platin şlyager”. Tezliklə mənə mükafat verəcək təşkilatla da danışmışam, mükafatın pulu onlara qalacaq, ancaq mənə qızıl suyu çəkilmiş adi mikrofon verəcəklər. Media nümayəndələrinə o məclisdən sonra restoranda yaxşı qonaqlıq verəcəyəm. Qonaqlığın pulunu “sokzavod”da işləyən xalaoğlu verəcək. Çünki söz vermişəm ki, onun oğlunu özümə prodüser götürəcəm. Oğlan dədəsindən də “delovoy”, cələqırmışın biridir.

Qalır restoran, şadlıq evi məsələsi, onun da yerini eləmişəm. Biri dənizin dibində “Akvarium” adlı əyləncə mərkəzi tikdirir. Mənə elə gəlir ki, pullu yer olacaq və orada oxumaq elə də çətin olmayacaq. Çünki “Akvarium”a gələnlər balığa, tısbağaya, krokodilə tamaşa etməyə gələcəklər, üstəlik, yeyib-içəcəklər. Çoxu da pullu balaları olacaq. Onlar da xalq mahnılarını, muğamı neynirlər, tez-tez xarici müğənnilərin diskini qoy, ağzını aç-yum, sürt özünü yerə. Elə toylara da çoxu fonoqramla gedir. Deyəcəklər, kişi can qoyur, belə oxuyan heç yerdə yoxdu.

Repertuarıma adı bizlərə o qədər də tanış olmayan xalqların mahnılarından salacam. Bilirsiz ki, indi Bədii Şura da yoxdur. O mahnıları da özüm oxumayacağam, başqası oxuyacaq və lentə yazdıracağam, ancaq klipdə məni göstərəcəklər. Klipi də xarici ölkələrdə satdıracam.

Bir də gördün, çağırdılar Cənubi Afrika Respublikasına konsert verməyə. Deyilənə görə, orada küçədəki toz-torpaq da qızıldı. Konsertləri pulsuz verəcəyəm. Deyəcəyəm ki, məni ölkənizin fəxri vətəndaşı eləyin və gedəndə icazə verin küçələrin toz-torpağından bir-iki kisə aparım...

Nə başınızı ağrıdım, sabahdan başlayıram “manıslığa”...

Konsert salonlarında, toylarda görüşənədək...

*Səməd MƏLİKZADƏ*

Maraq dünyamız

**Bizim uzun illərdən bəri Belorusiya kimi tanıdığımız bu dost ölkənin BMT tərəfindən tanınmış adı Belarus Respublikasıdır. Avropa ölkələri arasında ərazisinə görə Böyük Britaniya və Rumıniyadan geri qalan Belarusun Rakov kəndinin şimalındakı çaylar Baltik dənizinə, cənubundakı çaylar isə Qara dənizə axır.**

Daha maraqlı olan faktlardan biri isə – bəlkə də ən heyrətli görünəni bu ölkədəki Jodino adlı şəhərin Polşa, Ukrayna və Rusiyanın paytaxtlarından bərabər uzaqlıqda yerləşməsidir. Yəni Jodinodan Varşavaya neçə kilometrdirsə, Kiyev və Moskvaya da o qədərdir– cəmi 650 kilometr.

# Belarus səmasında leyləklər və meteoritlər...



Bu ölkə başdan-başa düzənliklərdən ibarətdir. Ən yüksək ərazi – ona dağ demək olmur – dəniz səviyyəsindən 345 metr hündürlükdədir. Buna baxmayaraq, Minskdən 35 kilometr aralıda olan “Yakut dağları” dağ-xizək mərkəzi (hündürlüyü cəmi 60 metrdir) turistlərin ən çox üz tutduğu məkanlardandır. Bu ölkəni maraqlı edən başqa bir fakt isə göllərin çoxluğudur. Belarusun şimalında və şimal-qərbində 11 minə yaxın göl var. Alimlərin fikrincə, “Belarus gölləri” vadisi (bu kiçik ərazidə irili-xırdalı 250 göl var) tarixdəki buzlaqlar dövründən bu xalqa qalmış təbii sərvətdir. Deyilənə görə, 12 min il əvvəl başlanan qlobal istiləşmə dövründə Valday buzlağı şimala “çəkilmiş”, onun yerində isə yüzlərlə göl yaranmışdır.

Slavqorod şəhərindəki “Mavi quyu” adlı bulaq ölkənin ən gursulu yeraltı su mənbəyidir. Ölkə ərazisinin 12 faizindən çoxunu təşkil edən bataqlıqların sayı isə 9200-dən çoxdur. Avropanın ən böyük bataqlığı olan Zvanets bataqlığı (150 kvadratkilometr) Belarusdadır. Qərbi Dvina, Dnepr, Pripyat, Neman, Soj və Berezina çayları və ölkə ərazisinin 40 faizini təşkil edən meşələr isə Belarus ədəbiyyatının ənənəvi mövzuları sırasındadır. Bu ölkənin faunası demək olar ki, Rusiya, Ukrayna və Polşanın faunası ilə eynidir. Hərgah boz leylәkləri saymasaydıq. Yeri gəlmişkən, bu ölkənin səması təkcə boz leyləkləri ilə diqqət çəkməyib. Dünya alimlərinin təsdiqlədiyi faktdır ki, Belarusa müxtəlif illərdə beş meteorit düşübmüş. Hətta 1954-cü ildə Slutsk rayonunun Pukovo kəndinə düşən (Qresk adlandırılan) meteoritin çəkisinin 300 kiloqram olduğu bildirilir. Yəni Azərbaycanın dostu və tərəfdaşı olan bu ölkənin istənilən sahəsi maraqlı faktlarla, təbii qeyri-adiliklərlə zəngindir.

*İttifaq MİRZƏBƏYLİ*



## Xaçmazda “Sehrli rənglər” festivalı

**Xaçmazda 15 İyun Milli Qurtuluş Gününə həsr olunan "Sehrli rənglər" festivalına 200-dən çox şagird qatılıb.**

Zəfər parkında təşkil olunan festivalda rəsm bacarığı olan məktəblilər öz istedadlarını nümayiş etdiriblər. İstedadlı şagirdlər 15 İyun – Milli Qurtuluş Gününə aid müxtəlif məzmunlu rəsmlər çəkiblər.

Festival Xaçmaz Rayon İcra Hakimiyyəti və Quba–Xaçmaz Regional Təhsil İdarəsinin birgə təşkilatçılığı ilə keçirilib.

*XQ*

Sağlamlıq

# Meyvələr təzə-təzə – həm sağlamlıq, həm məzə

**Türkiyəli professor Canan Karatay bu ay üçün tövsiyə etdiyi meyvə və tərəvəzlərin adlarını açıqlayıb. Xəstələndikdə belə dərman əvəzinə, təbii meyvə və tərəvəzlərdən istifadə edərək sağalmağa üstünlük verən alim onların əksəriyyətini çiy yeməyi və ya çox az bişirməyi məsləhət görür.**



Bunlar yaşıl soğan, təzə sarımsaq, paxla, ənginar, kök, üzüm yarpağı, pərpərən (pərpətöyün), ispanaq, təzə lobya, yaşıl noxud, qabaq, yaşıl bibər, xiyardır.

Professor, xüsusilə, yaşıl soğanın çox faydalı olduğuna diqqət çəkib. Bildirib ki, təzə soğan antioksidantdır. Onun tərkibində olan birləşmələr bədəni qoruyur və hüceyrə zədələnməsinin qarşısını alır. İmmun sistemini gücləndirir. Yaxşı bir C vitamini mənbəyidir. Xəstəliklərə qarşı müqaviməti təmin edir. Qan şəkərini balanslaşdırır. Xolesterolu aşağı salır. Ürək sağlamlığını qoruyur. Həzmə kömək edir.

Soğan, hətta xərçəng riskini azaldır. Xüsusilə bağırsaq, mədə və prostat xərçəngi riskini azaltmaqda təsirli olduğu düşünülür.

*Z.HÜSEYNLİ*
*XQ*

Hava

## Aranda yağmursuz, dağlarda yağış və duman...

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, iyunun 13-də Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin gündüzdən bəzi yerlərdə arabir yağış yağacağı, şimşək çaxacağı ehtimalı var. Şimal-qərb küləyi əsəcək, gündüz şimal-şərq küləyi ilə əvəz olunacaq.**



Gecə 20-24°, gündüz 29-34° isti olacaq Atmosfer təzyiqi 758 mm civə sütunu, nisbi rütubət gecə 70-75, gündüz 45-50 faiz olacaq. Abşeron çimərliklərində gözlənilən dəniz suyunun temperaturu: Şimal çimərliklərində: (Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zaqulba) 22-23° isti, Cənub çimərliklərində: (Türkan, Hövsan, Sahil, Şıx) 24-25° isti olacaq. Azərbaycanın rayonlarında əsasən yağmursuz keçəcək. Lakin gündüz dağlıq ərazilərdən başlayaraq bəzi yerlərdə arabir yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli intensiv olacağı, dolu düşəcəyi ehtimalı var. Gecə və səhər arabir duman olacaq. Mülayim qərb küləyi əsəcək. Havanın temperaturu gecə 18-23°, gündüz 30-35°, dağlarda gecə 10-15°, gündüz 15-20° isti olacaq.

*Q. QASIMOV*
*XQ*

✓ *“AEŞ” QSC (VÖEN- 1001469061) qoşulma yolu ilə “ARAZ LTD” MMM-ə (VÖEN -1000255711) birləşdiyini elan edir.*

**ALLAH RƏHMƏT ELƏSİN**

Azərbaycan Respublikası Dövlət Neft Fondunun icraçı direktoru İsrafil Məmmədov Milli Məclisin vitse-spikeri Adil Əliyevə qardaşı

**ALLAHVERDİ ƏLİYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 E-mail: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994(51) 280-16-44

“Xalq qəzeti”nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 4042
SİFARİŞ 1287
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Mirbağır YAQUBZADƏ
Çapa imzalanmışdır 00:00